HACI ƏRŞAD HACI BƏDƏLLİ

# AÇ SİNƏMİ, GÖR DAĞIMI

"BAKI HƏRBİ NƏŞRİYYAT" --- 2002.

Sürtülmüş, soluxmuş bir dəst zabit paltarından, cadar-cadar olmuş uzunboğaz əsgər çəkmələrindən, iki-üç şagird dəftərindən ibarət gündəliyindən, bir də Bakıda, Şəhidlər xiyabanında əbədi uyuyan, doğma yurda böyük məhəbbətinin rəmzi olan qəbrindən başqa heç bir yadigarı qalmayan oğlum Nadirin və bütün şəhidlərin əziz xatirəsinə ithaf edirəm bu kitabı.

B 56. HACI ƏRŞAD HACI BƏDƏLLİ,
AÇ SİNƏMİ, GÖR DAĞIMI – Bakı:
“Hərbi Nəşriyyat”, 2002.—288 səhifə.

Kod 022

“Hərbi Nəşriyyat”, 2002

## RUHUNDA İŞIQ GƏZDİRƏN ADAM

Onu yaxşı tanımaq üçün lap əvvəl şeirlərini oxumalısan.Qəribədir,əslində o şeirlərdən boy verən adam da tam Ərşad müəllimin özü deyil.Hacı Ərşad Hacı Bədəlli yalnız şeirləriylə bir yerdə olanda tamdır,bütövdür... Üzdən sakit görünür: müdrüklüyündən doğan ağır bir ləngər ocaq külü kimi alt qatda yatan közü gizlədir.Çətini o ocağa açar tapıncadı-- dəmirçi körüyü kimi alışan oda tutuşub bir ömür nağılina qulaq kəsilirsən.Dəmirçi dedim, yadıma Qubadlının Dəmirçilər kəndi düşdü-- Hacı Ərşad Hacı Bədəlli o kəndin adlı-sanlı nəsillərindən birinin övladıdır.O kənd neçə ildi balalarını Ərşad müəllimin nur, ziya paylayan ömrünə tapşırıb.Hacı Ərşad Hacı Bədəlli otuz yeddi ildir Dondarlı kənd

orta məktəbində müəllim işləyir.İndi Sumqayıtda yerləşən həmin qaçqın məktəbə o rəhbərlik edir.Köksünün hər hücrəsində yurd,el-oba, soy-kök, din-iman nüvəsi daşıyan bu adamın görkəmində də bir dəmir iradəsi yaşayır-- haqsızlıqlara, çətinliklərə sərtdir, amansızdır, sevgiyə, inama, ruha sərinlik gətirən hər şeyə elə bir o qədər də həlimdir.Deyirsən, İlahi, bu adam o adamdırmı ki, bunca lətif, həzin misralar süzülüb dodağından:

Anam,
namaza duranda,
beş vaxt
özündə itib,
Tanrı məqama varanda...
(“Vətən olsun vətən!”)

Yaxud,”Sevgi butası”nda

...Seçib ayıra bilmədim
Səni çiçəklərdən,
Çiçəkləri səndən.

Obrazlı deyimlər, ifadələr Hacı Ərşad Hacı Bədəllinin şeirlərində kifayət qədərdir. Amma o, məhz bunların dalınca qacmaq naminə özünü yormur.Çünki onun ilhamının buna ehtiyacı yoxdur. Ruhunun dərinliklərində gənclik ehtirası çağlayan məhəbbət bulağının göz yaşı kimi duruluğunda ritorikaya nə hacət?

Sənə bağlandığım tək sənə bəlli,
Yuxuma gəlmirsən, tapam təsəlli,
Dəliyəm, sərsəməm düzü, əməlli...
(“Qalarsan”)

İlk kitabını təsadüfən “Kino” qəzetinin baş redaktoru Mehdi Mükərrəoğlunun kabinetində görmüşəm.Dedi ki, bu adda, bu nişanda gözəl bir şair var... Kitabı vərəqlədim və onu sona çatanacan əlimdən yerə qoymadım. Sonra müəlliflə tanış oldum. Şairin öz şeirlərinə bənzəməyi çətin şeydir. Hələ böyük Füzuli deyirdi:”...Əlbəttə, şair sözü yalandır”.Amma bu kitabda toplanan misraların arxasında yaşanan ömrü, dağlar arasında binələnən balaca bir kəndi, onun adamlarını,

duyğularını ən hazırlıqsız oxucunun da görəcəyinə inanıram.Hacı Ərşad Hacı Bədəllinin şeirləri yalan danışa bilmir.Kosmetik quramalardan qaçır.Tanrı dərgahından göndərilən haqqa xəyanət eləmir. Bu mənada onun Mir Sədi Ağa, Mir Məhəmməd Ağa ocağına bağlılığı da anlaşılır.Yaxın dostluq münasibətlərindən yuxarıda dayanan bu bağlılığın içində sözsüz ki, birinci növbədə ruh adamı olmaq gözə dəyir.Söhbətlərimizin hansı məqamındasa mütləq o bu yerə dönməli, bu astanadan keçməlidir. Müqəddəs saydığı dəyərlərdi Hacı Ərşad Hacı Bədəllini böyüdən, saflaşdıran, şeirləşdirən, şövqə,eşqə gətirən bəlkə də...

Əslində bu belədir ki, var:

...Əynimizə eşq libası biçənik,
Cəhalətdə nur şərbəti içənik.
Bir məqamdan bir məqama köçənik
Qaldır məni, uçur məni,Allahım,
Günahlardan qaçır məni, Allahım.
(Hüzurda dua)

Bu sətirlər Mir Məhəmməd Ağaya həsr olunmuş şeirlərdən birindən götürülüb. Hacı Ərşad Hacı Bədəllinin həyat, dünya anlamı, kredosu bu sətirlərin içində gizlədilib. Həmin şeir müəllifin Həcc ziyarətində--Məkkədə qələmə alınıb.

Hacı Ərşad Hacı Bədəllinin şeirlərindəki bir-birinə keçid qəfil və gözlənilməzdir, ana xətt isə dəyişmir. Nədən və necə söz açmağından asılı olmayaraq yuxarıda da vurğuladığımız kimi ruhunu ortaya qoyur.Vətəndən, torpaqlarımızdan bəhs eyləyən sətirlərdə kədər qarışıq bir inam var...Şəhid oğlunun yarımçıq ömrünü poeziyanın zərif əllərinə tapşıran atanın böyüklüyü ondadır ki, bəziləri kimi onu vasitəyə çevirmir.”Oğul düşmən çəpəridir” el anlamı onun timsalında belədir: oğlum—şəhid oğullarımızdan biridir.

...baş çəkirəm
şəhidlər arasında
yatan oğluma --
vaxtsız ölümə
şərik dostlara
igid,
ölümə meydan sulayan

cəsur,
çevik dostlara --
qürur duyuram --
Təki vətən sağ olsun!
(Vətən fədaisi rəngində)

Ərşad müəllimin xoşbəxtlik kriteriyası belədir: gündə heç olmasa bircə saat üyəyincə söhbət eləməyə dost, ziyalı həmfikir tapırsansa, xoşbəxtsən.Bu nöqtədən baxanda Hacı Ərşad Hacı Bədəlli və onun kitabı bizim dostlarımızdı.Könlümüzə bulud çökəndə,axşamların darıxdırıcı alatoranlığında onların yanına can atırıq...Ərşad müəllimin və şeirlərinin.

Hüseyn Əfəndi
Şair, publisist.

***
Sənə pənah gətirmiş,
Sənə sığınmış qulunam, Allah!

Möhlət ver, Allah!
İllət ver, Allah!
***

(Şəkil)

## YA RƏBBİM

Qurdum ulamaz –möhtacam,
Qismət olmaz --möhtacam,
Belə qalamaz –möhtacam,
Möhlət umaram, ya Rəbbim!

Bülbül çəkdi gül sitəmi...
Bülbül öidü ğüi üstəmi?!

Özümün də var istəmi,
Rüsxət umaram, ya Rəbbim!

Yapılarmı arzu yapı,
Acılarmı bağlı qapı,

Özümüzdən balta sapı –

Qeyrət umaram, ya Rəbbim!

Babam qəbirdən durası,
Mənə tənələr vurası,
Silinərmi üz qarası –
Ismət umaram, ya Rəbbim!

Ürcah olduq  xəyanətə,
Tablaşırıq hər möhnətə,
Söykənirik dəyanətə,
Taqət umaram, ya Rəbbim!

## MÜBARƏK!

Ğağırdın,* ğəlmişəm, hüzurundayam,
Rəvadan doğulan rüsxət mübarək !
Həcc ziyarətindən hədsiz məmnunam,
Yüz ildən bir ğələn**qismət mübarək!

Bir sadiq quiunam – həmdü sənaiar,
Dilimin əzbəri-- şirin dualar.
Adını çağırmaq-- dərdə davalar,--
Şəriksiz  yaradan, qüdrət mübarək!

Vücudum  titrəyər, ya Allah,deyər,
Rəsulullah deyər, ya Allah, deyər,
Kəlamullah deyər, ya Allah, deyər,
Səcdəğah, yalvarış, minnət mübarək!

Dolandım Kəbəyə--rəyin olubdu,
Səfadan Mərvaya səyim olubdu,
Adınla bağlanıb nəyim olubdu,
İxlaslı, imanlı heyrət mübarək
05.04.1998.Məkkə.

--------------------------------------

**Ləbbeyki duasına işarə.*
***Əsrin əvvəlində babam Hacı*
*Bədəlin, sonunda isə mənim*
*Həcc ziyarətinə getməyimə işarədir.*

# ƏLHƏMDÜLİLLAH

Yunis İmrəyə nəzirə

Ustadından bəhrələnən
Az idik, əlhəmdülillah!
Haqqa varıb, nur alana
Düz idik, əlhəmdülillah!

Ömür sürüb ildə gəzən,
Alnıaçıq eldə gəzən,
Dastan olub dildə gəzən,
Söz idik, əlhəmdülillah!

Yaxşıları pisdən seçən,
Uğurları nəhsdən seçən,
Zərurəti qəsdən seçən,
Göz idik, əlhəmdülillah!

Dərya içi gövhər olan,
Haqqa sinədəftər olan,
Dost dərdinə sipər olan
Biz idik, əlhəmdülillah!

12.04. 98

# TÖVBƏ

İnsanı öldürmür günah yapısı,
Həmişə açıqdır tövbə qapısı,
Özündə cəsarət, hünər tapası –
Qəlbindən qaçırar şeytanı tövbə.

Tövbə də gərəkdir ürəkdən gələ,
Haqqın dərgahına diləkdən gələ,
Allah rüsxət verə, mələkdən gələ, -
Çıxarar saflığa insanı tövbə.

Tövbə et, nə lazım Tura çıxmağın,
And içib, Kəbədə gözü sıxmağın,
Bir dəfə özünə müdrık baxmağın,
Minada kəsilən qurbanı – tövbə.

Nəfsini öldür sən, haqqa ovundur,
Allahın dərgahı mütləq evindir...
Başına sığal çək, yetim sevindir,
Qovacaq içindən dumanı tövbə.

Incidib dəymə sən kimsə qəlbinə,
Ürəkdə yer vermə qəzəbə, kinə,
Lənətlər oxusan dinsiz xainə --
Təsdiqdir Allahı, Quranı tövbə.

Daş atdım qəlbimdə yatan şeytana,
Minada günaha batan şeytana, -
Adəmə təkəbbür tutan şeytana –
Saflığın, paklığın gümanı tövbəş

Tövbənin olmayır halalı, bici.
Riyası, yalanı, əyrisi, kəci,
Kamillik məqamı. Nurluq süzgəci –
Axirət ğününün amanı tövbə.

## LƏBBEYK DEYƏ –DEYƏ

Yunus İmrəvari

Yol ğedirik, uzaq ğedək,
Yanlış olsa, azaq ğedək, --
Haqq yoluna yozaq ğedək,
Sidqnən ləbbeyk deyə- deyə.

Tanrı versin rüsxət bizə,
Olsun Kəbə* qismət bizə.
Həm Həcərül –Əsvəd** bizə -
Sidqnən ləbbeyk deyə -deyə.

Niyyət tutaq, təvaf*** edək,
Çünah  yuyaq ,savab edək,
Haqqa uyaq, cavab ğüdək,
Sidqnən ləbbeyk deyə- deyə.

Səfa, Mərva****- keçə-keçə,
Səy edək biz qaça- qaça,--
Bağlı qapı açə- aça,
Sidqnən ləbbeyk deyə- deyə.

Dırmaş, Hira**ğərəyimiz,
Ərafat*** da köməyimiz,
Qurban kəsək Minada**** biz
Sidqinən ləbbeyk deyə-deyə.

Müzdəlifə!***** - Son oyanış! –
Haqq önündə düz dayanış,
Seçilən gün doğru, yanlış,
Sidqnən ləbbeyk deyə-deyə.
--------------------------------------
****Kəbənin yaxınlığında təpələr.***
*****Dağ adıdır. Məhəmməd peyğəmbərə (s.ə.s.) Quran həmin dağda yerləşən mağarada nazil olub.***
******Cənnətdən qovulandan 300 il sonra Adəmlə Həvvanın bir-birini tapdığı yer.***
*******Qurban mərasimi keçirilən yer.***
********Qiyamət günü Müzdəlifə çölündə qopacaq.***

## NİYYƏT  DUASI

Sənə pənah gətirmiş,
Sənə sığınmış
qulunam Allah!
Möhlət ver, Allah!
Illət ver , Allah!
Tab, taqət ver, Allah!
Yanğısından od aldığım,
od payladığım,
Həsrətindən dad aldığım,
dad payladığım,

Qalx! Vətənin Vətən oğlu!
Qeyrəti itən oğlu!
Mən
yönü Vətənə uzanılı qalan,
Torpaq vüsallı sabahlara
nə vatsa gedəsi,
aydın, işıqlı
yolunam, Allah!
Diz çöküb torpağımdan öpsəm,
Yanıb, yanıb kül olub
torpağıma səpilsəm,
Can alıb feyzindən
cana gələrəm, Allah!
Ruh çəkib hikmətindən, nurundan
ətə, qana gələrəm, Allah!
Üz sürtüb başdaşına atamın,
Diz çöküb Dəmirçilər torpağına –
tanımadığım qəbrinə Hacı babamın,
Dözüb gileyli tənəsinə,
"Allaha təvəkkül"lü səbrinə
Hacı babamın,
Qüvvət alıb,
qabarmış torpaq sinəsinə
yaş töküb,
doyunca kaş ağlayaydım –
Yarama məlhəm bağlayaydım...
Sonra
söykənəydim
daş körpü heykəlinə Hacı babamın –
Kinayəli təbəssümü acı babamın,
çəkib kökündən qəlbimin qoparaydım,
ataydım
gedər-gəlməzə
didərginli illərin duz yüklü
həsrətini,
Üzüntü çəkə-çəkə,
Ömrün Vətənsizliyə məhkum,
Bağrımın qan göləndə bəslədiyim,
ata-baba ruhuna ləkə

qardaş,
oğul
itkisinə bələnmiş qismətimi
edəydim dar ağacı
asaydım özümü,
Beləcə
olaydım xoşbəxtlərin xoşbəxti –
Şux tutub “xəcil”başımı
Dəmirçilər adlı obama
deyəydim
beləcə
son sözümü... 7.12.2000.

## NAL GƏRƏKDİR

Vətənsizin Vətən dərdi,
Yanıb, küldə bitən dərdi,
Qəriblikdə ötən dərdi
Danışmağa dil gərəkdi.

Haramzada başda durdu,
Yazda yatdı, qışda durdu,
Fitnə-fəsad iş də qurdu –
Namussuza fel gərəkdi.

Pərən-pərən düşən ellər,
Cəhənnəmdə bişən ellər--
Ağlar qalmış o şən ellər
Səbəbkarı bil –gərəkdi.

Bu millətə yad qan qatan,
Halallıqda haram tutan,--
Ləkələri silib atan
Qeyrət yüklü el gərəkdi.

Kömək durmaz Tanrı bizə,
Qənim olduq özümüzə.
Fərari oğula, qıza
Çəkmə deyil, nal gərəkdi...

## VƏTƏN OLSUN, VƏTƏN!

Anam,
namaza duranda –
beş vaxt
özündə itib
Tanrı məqama varanda,
bir dilək dilə
gəlib Sən dilə;
bir dua oxu –
Ulu yaradan
Səni
eşidər axı!
De ki,
qoy, bizim
ayaqlar altına
düşən Vətənimizin
cılızlaşan,
namus dəyəri
ucuzlaşan
övladlarına
təpər versin,
ya şəhid etsin,
ya qazi...
Vətən daşı olmağa
qadir olmayan,
Vətən başı olan biveclərin –
millət düşməni biclərin
xalqa yoluxur biganəlik mərəzi.
Anam, Allahdan
rüsxət dilə,
Bizə bütöv Vətən –
qismət dilə!

Qoy, bizim
Vətənin də
Vətən olmağa
haqqı çatsın,
qürur duya bilək...
Min-min igidlərinə --
canlı, qeyrət bütlərinə
bir gündə qıya bilək...
Azad olsun –
Azad ölkələrə tən
Vətən!
Babalardan qalmış
Cağbacağ, bütöv olsun
Vətən! Vətən! Vətən!

## NADAN BİLMƏZ VƏTƏN NƏDİ

Nadan bilməz Vətən nədi,
Bu müqəddəs itən nədi?
Çiçək açıb bitən nədi? –
Dərdin də öz baharı var.

Yan içindən –alış, sönmə,
Uç zirvəyə --ucal,enmə,
Istər danış, istər dinmə,
Eşqin də göz baharı var.

Batıb itsə səsi, ünü,
Unutsalar toy-düyünü,
Xəlvət yerdə görüş günü –
Vüsalın söz baharı var!..

## GÜNƏŞ DOĞAR VƏTƏNLƏ

Günəş doğar Vətənlə,
Arzu, kama yetənlə...

Alınmaz ki el, oba –
Qaçıb, gedib, itənlə!

“İlan tutmaq” yad əllə,
Vərdiş olub əməllə.
Kim kimə düşmən olub,
Riyakar, dahi, “kəllə”??.

## BƏXTİMİN

Vətən mənim röyalarda qismətim –
Usun çəkdi, ilğımlandı həsrətim...
Daş sükutlu, daş kilidli rüsxətim,
Sim-simi də yaddan çıxdı bəxtimin.

Bir açılmaz tilsimlərə keçmişəm,
Qəm dağını dərd əlindən aşmışam,
Zülmət gecə, dar cığıra düşmüşəm,
Şimşəyi də yersiz çaxdı bəxtimin.

Arxasızam, köməksizəm Vətənsiz,
Ümidsizəm, diləksizəm Vətənsiz,
Yararsızam, gərəksizəm Vətənsiz –
Məğmun baxtı, məğşuş baxtı bəxtimin.

Bətənsizə Vətən hardan ad olub,
Vətən dərdi çoxlarına yad olub,
Müşgülləşib, ildən-ilə bəd olub,
Tarac oldu qızıl taxtı bəxtimin.

Məhvə gedən bu dünyaya hey baxım,
Düzəlməyə bir güman da heç yoxum...
Tale əydi, daşa dəydi nəhs oxum,
Qara geydi qara baxtı bəxtimin.

Gülər olub Koroöluya həmzələr –
Kim ki cana qəsd eyləyər – düz elər.

Çox çətin ki, əyilənlər düzələr,
Tamam virdi nalə, ahdı bəxtimin...

## DÖZƏ- DÖZƏ

Qürbət mənə cövr eyləyir,
Nifrət coşur, hövl eyləyir,
Vətən dərdi qövr eyləyir –
Dözəcəyəm dözə-dözə.

Belim donqar, ovurd çökük,
Ürək dağlı, qəlbim sökük,
Xiyabanı boynubükük
Gəzəcəyəm dözə-dözə.

Namərd yıxdı, durmaq çətin,
Dağılmışı qurmaq çətin,
Günahkarı sormaq çətin –
Yozacağam dözə-dözə.

Aç sinəmi, gör dağımı,--
Sınıb düşən budağımı.
Gömgöy olmuş dodağımı,
Büzəcəyəm dözə-dözə.

Sızlamaqdan bezimimlə,
Qalib çıxıb ər əzmimlə --
Mən düşməni dözümümlə
Üzəcəyəm dözə-dözə!..

## İZTİRAB

Vətən gedir, keç ürəkdən,
Qəm şərbəti iç ürəkdən,
Qərib gülməz heç ürəkdən --
Qəlbə güvə qürbət sözü.

Yatıb durmaq ömür deyil,
Məclis qurmaq ömür deyil,
Yüz-yüz vurmaq ömür deyil,
Cılızlaşır insan düzü.

Millət bütün yasa batıb,
Aşınıbdı, pasa batıb,
Ümid çıxıb, nəsə batıb,
Darıxdırır ürək bizi.

Uyma yalan, yağlı dilə,
Can alana gülə-gülə.
Qəddarlığı bilə-bilə,
Qul olmusan büküb dizi.

Yastıq qoyub baş altına,
Yağlı vədi diş altına,
Dilimizi daş altına,
Külə tutub gözümüzü.

Ağlar gündə gül, gül deyir,
Göz yaşını sil, sil deyir,
Arxasınca gəl, gəl deyir,
Quyu, tələ yolu izi.

Dağla qoşa duran insan,
Zərbi kərən qıran insan,
Bisütunu yaran insan,
Mütiləşib olub quzu.

Dərdi demə hər nadana,
Çarə olmaz bir qadana,
Quş götürüb, söz udana
Qənim çıxa qeyrət özü...

## OLDUQ

*Səni tanımırdım –tanıdım Vətən!*
*Paşa Qəlbinur.*

Talan olduq, perik düşdük,
Qəribçilik qanan olduq.
Sızlayıb biz için-için,
Korun-korun yanan olduq.

Oğul, qaqrdaş, dost dağından –
Keçdik dözüm sınağından.
Nadanların qınaından
Çilik-çilik sınan olduq.

Pərən-pərən biz nə hayda,
Edə bildik hələ toy da.
Üzəvari bu olayda
Dərdimizi danan olduq.

Çörək tapdıq, birgə yedik,
Həsəd çəkdi neçə düdük.
Allaha təvəkkül dedik,
Ümidlərə qonan olduq.

Üz tutub biz ulu göyə,
Yalvarırıq rəhm eyləyə.
Qərib doğulan körpəyə,
Kənd adını anan* olduq.

Bağlar, dağlar, qayalar da,
Yada düşər, oyalar da.
Özümüzü röyalarda
Kəndimizdə sanan olduq.

*-------------------
*Xatırladan, yada salan*

## VƏTƏN SEVGİSİ –VƏTƏN QÜRURU

Tərkibi eynidir, yoxlasan əgər,
Torpağın, daşın da, həm rəngi eyni.
Doğması, ögeyi – qoxlasan əgər,
Qoxusu eynidir, ahəngi eyni.

Bəs nədən Vətənin torpaq, daşında
Əbədi solmayan təravət yaşar?!.
Kol-koslu çölündə, təpə başında
Göylərə dirənən əzəmət yaşar!..

## YUVAMA

Ya həkk elə daşa məni –
Sən ayaqdan başa məni,
Ya qoş uçan quşa məni,
Çatım, qonum boş yuvama...

Sahib duran aciz oldu –
Vətən yaman ucuz oldu...
Qarı düşmən quduz oldu –
Diş batırdı daş yuvama...

Birdən itdi təpər, qeyrət,
Güvə oldu qəlbə hiddət,
Qan ağladı, qan, bəsirət –
Axıb doldu tuş yuvama.

Büküldü qol, sındı qanad,
Yalan oğlan, ağ yallı at,
Xəcil ömür, qaqçqın həyat –
Ar oldu, qardaş, yuvama...

## İBRƏT GÖTÜR

"Ay havada uçan durna",
Səsin niyə qəmli ötür?..
Bizdən küskün keçən durna,
Geri qayıt, xəbər gətir.

Yerindəmi bizim ellər?--
Şirin canım, gözüm ellər,
Necə yazım, yozum. ellər?--
Bu ayrılıq haçan bitir?

Yoxsa Vətən yönün deyil,
Hıçqırığım ünün deyil,
Əsir qızlar sənin deyil? –
Töhmət, damğa harda itir?

Hökmü verən Vətənə yad,
Xeyir görən Vətənə yad,
Kefin sürən Vətənə yad,
İdrak elə, ibrət götür...

## VƏTƏN, SƏNƏ QOVUŞAN GÜN

Yozdun mənə töhmət suçu,
Çaşdım, mindim qara qoçu,
Ömrüm oldu zülmət içi,
Kimə deyim mən də buyam?

Qəsd elədim sevən cana,
Peşkəş verdim ağayana,
Gənclik vaxtım kaş dayana,
Bir də təkrar sənə qıyam.

Nə yazdınsa yaz apardı,
Bir ovsunlu söz apardı –
Dəymədüşər qız apardı,
Gizli ağrı, aşkar hayam.

Qədirimi bilmədim özüm,
Karıma çatmadi dözüm,
Hədəfə dəymədi sözüm,
Lovğalıqdan bezəm, doyam.

Çox erkən mən dilə düşdüm,
Leysanlara, selə düşdüm,
Bir burulğan gölə düşdüm,
Nə balığam, nə də quyam.

Müsibətdən sovuşan gün,
Igidlərə yovuşan gün,
Vətən, sənə qovuşan gqn
Çal-çağırlı düyün, toyam.

## OXQAY DEYƏK

Vətən dərdi, torpaq dərdi
Iflic edib neçə mərdi.
Bu torpağa yad adamlar,
Yad millətə ad adamlar
Sahib çıxıb hər sərvətə,
Olub zəli, dönüb itə.
Qansorandır, acgöz, quduz –
Gah çalağan, gah da qunduz,
Harınlaşmış qana həris,
Qurd xislətli, cana həris,
Başda durub baş kəsdirir,
Üzə gülür, xoş kəsdirir.
Qisas günü deyil uzaq,
Əvvəl qəbri kimə qazaq?
Adı bizdən, qansorana?
Nəslən düşmən murdar “yana”?
Murdar “yan” lar! Nifrət ona! –
Dayısı “yan” olan “yan”a,
Hansı cəza kəsdirək biz?
Sakit vursun ürəyimiz.
Dizi bükək, beli əyək,
Torpaq öpək, oxqay deyək.

# YOXDUR

Qabaq-qənşər küsgün dağlar,
Sizi məndən soran yoxdur.
Səbrim tükdən asılıbdı,
Tarım qalıb, qıran yoxdur.

Quruyubdu matım-qutum,
Kimsəsizəm yesir, yetim.
Ulamır da tənha itim,
Yaylaq yoxdur, aran yoxdur.

Yadırğanıb doğma cığır,--
Yol azmışı sən ha çağır,
Ayaq qabar, ğözlər yağır,--
Nişangahlar quran yoxdur.

Uçan qəbri ayırd elə,
Hansı kimin, gətir dilə,
Kor-koranə, elə-belə
Öz yerində duran ypxdur.

Murdarlanıb doğma yurdum,
Torpaq qaçdı, harda durdum...
İrinləyib Vətən dərdim,
Neştər tapıb, yaran yoxdur.

Üzür, sıxır acı təşviş,
Çoxdan ölən, itən vərdiş,
Doğma yurdda qərib gərdiş, --
Haran vardı, haran yoxdur.

Ev xaraba, çöl xaraba,
Çal-çağırlı el xaraba,
Ömrü kəsən il xaraba,
Qərinən yox, eran yoxdur.

*03.03.2001.*
*Sumqayıt*

# HARDAN BAŞLANIR VƏTƏN?

Hardan başlanırVətən? –
Qəriblərin
yuxusundan,
Əminəm
çoxusundan...
Hardan başlanır Vətən? –
Övliyaların,
ulularin
qəbrindən!
Babamın
"Allaha təvəkkül"
səbrindən!
Əmimin
ilan boğazından çıxmış kimi,
ütülmüş,
zoğal yabasından,
solğucu ələyatımlı,
iti dəhrəsindən,
Arxası balıq belli,
təbcəkli,
fındıq saplı belindən,
beşbarmaqlı
dəmir şanasından,
gecəli-gündüzlü
zəhmətimdən, çabasından,
düyün-düyün
qabarlı əlindən...

Nənəmin
tağalaqlı cəhrəsindən,
palaz, gəbə --
xalı, xalça hanasından,

Bibimin
ahəngdar yellənən

bərəkətli nehrəsindən...
Atamın
41-45-ci illərin
alovundan, vahiməsindən –
ölüm-dirimdən yaranmış
təmkinindən,
dost itgisindən,
torpağa məhəbbətindən,
düşmənə kinindən,
yarım əsrlik
sənətindən, peşəsindən –
balanslama, hesablama
çötgəsindən...

Anamın
dilindən süzülən
müqəddəs laylasından,
taxta beşikdən asılmış
bölək bağından,
Bir də
ürəyində qövr edən
şəhid
oğul, qardaş dağından.
Hardan başlanır Vətən? –
Axşam, səhər
gəlinlərin, qızların
bulaq başında
atmacasından, gülüşündən,
Gözaltılarının
dalınca gəlişindən...

Hardan başlanır Vətən? –
Dumanlı, çiskinli,
ağappaq çalmalı
dağ zirvəsindən,
Ətəyində
kəkotunun, qantəpərin, boyçıçəyinin
içində
yanını yerə vermiş

çobanın
tütək səsindən,
qoyun-quzu mələşməsindən...
Cavanların
papaqaldıqaçından,
güləşməsindən...
Hardanbaşlanır Vətən?--
Alatoran
sübh çağında
xoruz banından,
Bacalardan qalxan
Tüstü burulğanından...

Hardan başlanır Vətən? –
İnsanın
doğum diyarından,
bir də
qəbirlərin
sükut uyarından...

Hardan başlanır Vətən? –
Başlanğıcı itirdik
kürsü hərisli rəhbərlərin
qeyrət süqutunda –
Sonu
axtaraq
böyük həqiqətlərin
böyük sükutunda –
D ə r b ə d ə r l ə r i n

## İNTİZAR

O dağlar –
Bizim dağlar!
Zirvəsində qar,
Qıy çəkən qartallarıynan,
ətəyi yam-yaşıl,
bar-bəhrəli,

gül-çiçəkli,
meyvəli, çiyələkli,
nübarlarıynan
dayanıb məğrur,
səssiz,
kimsəsiz...
Bu dəniz –
bizim dəniz! –
Uğultulu,
vahiməli,
şahə qalxmış,
ağ yallı dalğalarıynan...
...Onda –
o dağlarda
qurmaq,
yaratmaq həvəsi,
ucalmaq
qübarı,
müdrikliklə qocalmaq
əsrarı,
yaşamaq qüdrəti..
Bunda –
bu dənizdə
uçurmaq,
dağıtmaq,
vurub sədləri qoparmaq,
aparmaq
hiddəti –
Bizə olmazın müsibət,
didişmək vəhşəti –
dibinin sərvəti...
Budur,
durmuşam
qarşıbaxarında,
qəfəsə salınmış
acıqlı şir kimi
qəzəbli dalğaların.
Bürüyüb vücudumu,
sarıb

nəm-çisəkli
vahimə hay-harayı...
Cismimdən savayı,
bütün varlığım
qoşulub ruhuma
idrakımla
uçur
ağappaq həsrət dumanına bürünüb,
doluxsunmuş, dolmuş,
gözləri
yollarda qalmış
ağ çalmalı
bizim dağlara sarı –
Çataydı barı...

## AZƏRBAYCAN ƏSGƏRİ HAQQINDA BALLADA

1

Gəlirdim
çöl yoluynan,
qonşu kənddən xeyli uzaq.
Hət tərəf qar-qiyamat,
əsirdi sazaq.
Keçmiş
bir döyüşçü
əynində
sürtülüb sozalmış,
köhnə
əskər paltarı,
Aparırdı
belində
kör-kötük şələsi,
dayanmadan bir hovur,
Sol qılçası
qobur,
Tək sağ qoluna dolayıb,

yapışmışdı çatıdan.
Sanki
duymurdu
yazıqlığını,
fağırlığını.
Bir də
şələsindən ağır
ölmüş arzularının
qubar ağırlığını.
Bir gileyi də
yoxuydu
asilikdən uzaq dilində,
Möhkəm tutmuşdu
şələyə sarınmış çatını,
mina aparmış
solunu da
əvəz edən
sağ əlində...
Aparırdı
işıqsız,
hərarətsiz,
“konfort”suz*,
“uyut”suz**
uçuq-sökük,
heç heyvana da
yaraşmayan,
yağan yağış dayanıb
kəsəndə göydən,
ev olmağı bir yana,
çöl də olmayan
ev bilib,
ev dediyi
tappatap
damcı döyüşünə
məruz qalmış,
“abad” olmuş
---------------
*Rahatsız;
**Səliqəsiz

xsnəsini “yarındırsın,”
Üç uşaq, bir arvad
külfətini “barındırsın”.
Gedirdi
bir zaman
qeyrəti
hünərindən böyük,
dağ təmkinli, çarəsiz əskər,
Gedirdi
keçmiş
könüllü əskər,
əlsiz, ayaqsız,
yararsız əskər –
əlil əskər,
belində şələ,
başında vəlvələ --
kontuziya”
qələbəyə sarı...
Ey, ulu Tanrı!
Bizi özümüzdən qoru!
Yeganəlikdən qoru!
Biganəlikdən qoru!

2

Baxdım,
yer yarılsa
yerə girərdim xəcalətimdən,
Utandım
əli yerində,
ayağı yerində,
gözü yerində
durumumdan, halətimdən.
Fəqət,
kim eşitdi,
kim duydu
içimdən qopan
fəryadımı,

hayımı.
Tapdayardım
bir anda
azadlıq payımı, --
müstəqillik payımı, --
Verilmiş olsaydı,
Özümdə qalsaydı...

## VƏTƏN FƏDAİSİ RƏNGİNDƏ

Girir yuxuma
hər gecə
bir rəngdə
kəndimiz –
Yaşıl!
Qara!
Sarı!
Eyni rəngin
burulğanında
boğuluram,
baxıram hara.
Kiçilir dünya gözlərimdə,
olub bir darı.
Artır
narahat ürəyimin
döyüntüsü, qubarı...
Ötən gecə də
qaraydı hər yan.
Hər yan görünürdü
necə vardısa elə
başdan, binadan.
Hündürdən baxmaq üçün
çıxıramsa hara,
Görünür hər yerdən
hər şey
qapqara:
ev-eşik,
həyət-baca,
bağ-bostan,

dirrik-bağça –
nə görmüşəmsə keçəmlərdə,
dilsiz,cansız
dərələr, dağlar,
qaynamalar,*
*-------------------
*Balaca bulaqlar*
çağlar
bulaqlar da,
doğma,yaxın insanlar,
on il qabaq
mülayim, xoş sifətlər,
qəhqəhələr, gülüşlər,
təbəssümlü dodaqlar da
qaradır –
Qaradan qaqra!
Lüzum yoxdur
axtaram çara...
Kölgəm də
qara,
Göydə,
Günəş də qara –
Ruhum çarmıxa çəkilir,
varlığım dara...
Beləcə
ötür
bir gecə,
qovuşur sabaha.
Gündüzüm daha
dəhşət:
tapıb fürsət
baş çəkirəm
şəhidlər arasında
yatan oğluma, --
vaxtsız ölümə
şərik dostlara.
İgid,
ölümə meydan sulayan,
cəsur,

çevik dostlara.
Qürur duyuram, --
Təki
Vətən sağ olsun! –
Çox! Çox!
Tam, bütöv! –
Yarımçıq, yarıcan
yox!
Dolaşıram
Xiyaban boyu.
Axı, bunların
olmalıydı
hamısının
bir ildə toyu.
Bəs,
qolsuz,
ayaqsız,
gözsüz cavanlar? –
Ağır yük olub
doğmaların
boynundan asılmış,
sükutu
itirdiyindən ağır
sözsüz cavanlar?!!
Hamısı bir rəngdədir –
İstər şəhid olub
haqqa qovuşan,
Istərsə əlil olub
yazıqlığıyla barışan...
Hamısı
qara qüvvələr cəngində,
Hamısı
Vətən fədaisi
r ə n g i n d ə!!!

02.03.2001.

## OCAĞIM SÖNDÜ

Ocağım söndü,
dilim-dilim alovlanan
kösövlər qaraldı,
Hərarət paylayan,
təmənnasız
işıq yayan
ocağınsa
acı tüstüsü qaldı.
Elə
ürəyim də söndü
ocağımla,
Nə sevgisi qaldı,
nə istisi oldu.
Bax, beləcə
dünyam gözlərimdə
daraldı,
Dəyişib rəngini
sapsarı saraldı,
Nə çiçək açdı,
nə də bar aldı...

## BİZƏ

Elim, köçkün çağın ağlar,
Çalın-çarpaz dağın ağlar,
Gələr bir gün yağın ağlar,--
Möhlət verə Tanrım bizə.

Nələr etdi neçə casus,
Vətən çökdü --qula məxsus.
Qantarğalı zaman, əfsus! –
Heyrət verə Tanrım bizə.

Üz qarası üzdə duran –
Halal atıb, haram soran...

Ümid verib, dözüm yoran
Cüət verə Tanrım bizə

Yurd həsrəti üzüb bizi,
Bürüb-büküb, büzüb bizi,
İşimizdən əzib bizi –
Hiddət vərəTanrım bizə.

Hamı dərdli, hamı qəmli,
Bir qəlibli, bir görkəmli,
Kimi coşan, səbri kəmli,
Müddət verə Tanrım bizə.

Heç nə sorma, lal olmuşam,
Harınlara yal olmuşam,
Yalandıqca bal olmuşam,
Zillət verə Tanrım bizə.

Qürur, hünər itən yerdə,
Satqın, yaltaq bitən yerdə,
Qarı düşmən ötən yerdə,
Töhmət verə Tanrım bizə.

Kimik, kimə tayıq altda,
Tapdanırıq oyaq, altda, --
Namus, şərəf ayaq altda,
Qeyrət vərəTanrım bizə.

Niyə susub, niyə millət?
Bundan artıq hanı zillət? –
Köləlikmi? Bu nə illlət?
Qüdrət verə Tanrım bizə.

Elim, köçkün çağın ağlar,
Çalın-çarpaz dağın ğlar,
Bir gün gələr yağın ağlar—
Fürsət verə Tanrım bizə...

***

Vüsalın gül ətri – çəkiyə gəlməz,
Həsrətin dünyamdan ağırdır, Vətən!!!

*** (şəkil)

## VƏTƏN

Təkəbbür, lovğalıq –İblisdən qaqlıb,
Şöhrətə, şəhvətə hərisdən qalıb.
Hər biri insanı səhvə aparır –
Əvvəli, axırı məhvə aparır.
Nə gözəl, nə şirin pəh-pəh, sadəlik,
İlkinlik, əzəllik, paklıq, adilik.
Səbir də yaraşır torpaq oğluna,
Qəbir də yaraşır torpaq oğluna.
Əl kiri bilibdi babam dövləti,
Aqili, adili elin qüdrəti.
Yaranan fanidir, rəhmət əbədi,
Varlığın əşrəfi – insan hər nədi.
Yaşasın, yaşasın, bir də yaşasın,
Doğulan, böyüyən yerdə yaşasın.

## BİL Kİ GƏLMƏDİM

Sevən qəlbin ya sevinci, ya vayı,
Məhəbbətsiz ömür-gün də havayı,
Simsarım yox mənim səndən savayı,
Qayıt, gülüm, qayıt gəı.
Əli-Ağa Aslan.

Əlvida demirəm, bəlkə qayıtdım,
Bəlkə həsrətinə dözə bilmədim,
Mürgülü yolları bəlkə ayıtdım,
Özüm də ayılsam, bil ki gəlmədim...
H. Ə. Hacı Bədəlli.

# GƏLMƏDİN Kİ, GƏLMƏDİN SƏN

Gözlə dedin, yolda qaldım,
Gəlmədin ki gəlmədin Sən!..
Dünya durdu çiynim üstə,
Gəlmədin ki gəlmədin Sən!

Qubarımı çox gizlədim,
Səksəkəli yol gözlədim,
İçin-için hey sızladım,
Gəlmədin ki gəlmədin Sən!

Sıxdı məni güman, şübhə,
Diri cıxdı gecəm sübhə,
Xoş çağları daldım seyrə,
Gəlmədin ki gəlmədin Sən!

Bülbül qanlı kol içində,
Həsrət qaynar dil içində,
Qrək yanar "gəl" içində,
Gəlmədib ki gəlməgin Sən!

Harda durum, hara gedim,
Bilmədim ki nələr edim,
Gəıən günə qurban dedim –
Gəlmədin ki gəlmədin Sən!

Niyə belə etdin, niyə?
Vəd almadım döyə-döyə,
Ruha dönüb, qalxdın göyə,
Gəlmədin ki gəlmədib Sən!!!

Mart,1969

## RƏHM ELƏ MƏN YETİMƏ

Nur saçıb nurlanmısan,
Dür saçıb dürlənmisən,
Sirr saçıb sirlənmisən –
Məftunam heyrətimə.

Təzə-tər bir qönçəsən,
İncələrdən incəsən,
Mənbəsən sevincə Sən,
Ovsunsan hiddətimə.

Can aldın –oynadasan,
Od yaxdın – qaynadasan,
Gözümdə -- aynadasan,
Şahidsən möhnətimə.

Kəpənəksən sanırsan –
Hər çiçəyə qonursan.
Əhdi, vədi danırsan,
Sədd çəkib qismətimə.

Çarə yoxdu heç nədə --
Yalvarmaq, ya bir hədə.
Sığınıb tək ümidə,
Dözürəm həsrətimə.

Şıltaqsan, çox dəcəlsən –
Bir qəfləti əcəlsən,
Yaşamağa macalsan,
Rəhm elə mən yetimə...

*Mart.1969.*

## MƏN

Yüküm ağır, nasaz ürək –
Hər gün üstə qoyur fələk.
Neyıəyəcək bilməm, görək
Yaxasından tutunca mən.

Məhəbbətin qulu oldum,
İmkanımdan qalı oldum.
Cox mətləbdən halı oldum,
Öz-özümdə itincə mən.

Ölər, qalar sayaqdayam,
Yetərincə qınaqdayam...
Yar yanında sınaqdayam,
Gor evində yatınca mən.

Heyrətləndi mələklər də,
Cövlan edən küləklər də,
Donmuş, bumbuz ürəklərdə
Rişəıənib bitincə mən.

Günahlara çox batmışam,
Mən Kəbəyə üz tutmuşam,
Kor şeytana daş atmışam,
Savablara yetincə mən.

*Məkkə, 08.04.1998.*

## MƏNİM

Ömür keçdi xoş deyə,
Alışdım haya, küyə,
Günümü göy əskiyə,
Bükdü yaman yar mənim.

Yar zülmətə büründü,
Daha nurlu göründü,
Tut məqamı, gör indi,
Böylə halım var nənim.

Allah bizə göz verib,
Dilləşməyə söz verib,
Nə veribsə, düz düz verib,
Tərs bəxtimi gör mənim.

Bağlanmışam Allaha,
Ümid verib sabaha...
Arzu olub bir daha
Ürəyimə gir mənim.

Doyub, kama çatmışam,
Şeytana daş atmışam,
Mən Kəbədə yatmışam,
Həyat mənim, gor mənim.

Halal damdı damağa,
Haram dadma, ay qağa!
Günahları yumağa
Tövbə mənim,Tur mənim.

## NƏ DEYİM

İlk dəfə görən gündən,
Dolanıb gendən-gendən,
Qoparıb məni nəndən
alan yara nə deyim!?.

Gülərüzdü yadlara,
Xoşqılıqdı bədlərə,
Gorun-gorun odlara
salan yara nə detim?!

Alıb sehri aləmi,
Ofsun –sevinci, qəmi.
Küsəyən uşaq kimi
dolan yara nə deyim?!

Çox iyəşdik –"yarışdıq",
Zilə çıxdıq–barışdıq.
Röyalarda görüşdük –
"Yalan" yara nə deyim?!

Qədirbilməz bir nadan,
Ara vursa, heç nədən,
Ölüb getsəm dünyadan,
qalan yara nə deyim?!!

## HEY

Həsrət mənə məhşər günü – qiyamət!
Sınamağın, nazlanmağın qəbahət.
Səbr etməyim, tablaşmağım – dəyanət,
Qopar məni, apar məndən, məndən hey.

Eşqin seli qanadına alıbdı,
Atıb-tutub, burulğana salıbdı.
Öz istəyim öz qəsdimə dolubdu,
Dar ayaqda xilas səndən, səndən hey.

Heç bilməzəm bol olan nə, kasad nə?
Varım-yoxum bircə ürək–həsəd nə?
Mən saildən can umarsan – məqsəd nə?
Al canımı, gülmə gendən, gendən hey

## İTƏNƏM

Nahaq yerdən cığallığa çəkmə gəı,
Sevən könlü uçurma gəl, sökmə gəl,
Dolan gözsən, sıxıb-sıxıb tökmə gəl,
Bir damclnın gur selində itənəm.

Bu eşqin nübarı ahdı, nalədi,
Tanrı rəvac verdi, bəndə dilədi,
Həsrətdə keçinən örür belədi,
Dərdin, qəmin dildilində*itənəm.

---

*Oyun havasının ağızda-dildə
çalınması

Çiçəklənən bu dərdinən öyündüm,
Cücərməyən ümidimə söyündüm,
Öz-özümə suç axtarıb deyindim,
Bədxahların nəhs dilində itənəm.

Səni mənə xəyanətmi veriblər?!
Bu qisməti cinayətmi veriblər?
Məni sənə əmanətmi veriblər?!--
Tutiyatək tut əlində, itənəm...

## MƏNİ

Sən eşqimdən agah oldun,
Zühur oldun – bargah*oldun,
Mənə qismət, ürcah oldun,
Etdin xoşbəxt bəndə məni.

Sığınasan lal sükuta,
Pak məqamda Allah tuta,
Öz-özündə itə-itə,
Axtarasan gündə məni.

Mən özümdən qaçar olsam,
Dərd əlindən naçar olsam,
Bu dünyadan köçər olsam,
Dəfn elə Sən səndə məni.

Zülmətlərə olub çıraq,
O dünyadan alsan soraq,
Özün getsən məndən qabaq,
Əmanət qoy məndə məni...

## NƏ OLAR

Danışdın, səsində mən həvəs duydum,
Qəlbimi isidən ün, nəfəs duydum,

Gənclik harayından hənir, səs duydum,
Çağır məni, çağır, gülüm, nə olar?!

Tutub, qalıb bu dübyanı kim axı?
İtib-batıb öz içində bir çoxu.
Dərd əlindən susma, quzum, çal, oxu,
Çağır məni, deyim, gülüm, nə olar?!

Dərdin mənim xoş günümə zinətdi,
Sənsiz keçən ömür deyil–minnətdi.
Yatıb qalsam qucağında–cənnətdi.
Çağır məni, həzzi bilim, nə olar?!

Səsin mənim ofsunumdu, yuxumdu,
Vəslin üçün güman yeri yoxumdu,
Ümidlərim cücərməyən toxumdu,
Çağır məni, həsrət ilim, nə olar?!

Çiçəklənən sevgi dərdim qazancdı,
Qanadlanıb ucalmağa yol açdı...
Mən istədim, dilim çaşdı, dolaşdı,
Çağır məni, rəvan dilim, nə olar?!

Mart.196.*Dəmirçilər.*

## BİLMƏDİM

Kor oldu gözlərim gənclik çağında,
Mən səni seçmədim, görə bilmədim.
Ətirli gülmüşsən ömrün bağında,
Qoxlaya bilmədim, dərə bilmədim

...Uğursuz istəyin abı-havası,
Açılmaz düyünə saldı qovğası,
Sərgərdan eşqimin dərman-davası,
Töküldü, dağıldı hara, bilmədim.

Allahın bəlası düşdü canıma,
Şöhrət mürgənəsi hopdu qanıma,

Vuruldum gözucu baxan xanıma,
Salındım çıxılmaz tora, bilmədim...

...Gileyli gözlərin qınayıb məni,
Rəftarın naz çəkib, sınayıb məni,
Qəlbin gizli-gizli hey anıb məni,
Çəkib varlığını dara, bilmədim.

Qarşıma çıxdın sən, səmtin haradır?
Üzünə baxmadım, üzüm qaradır.
Sandım ki, ölmüşəm, yönüm goradır,
Onunçün dayanıb dura bilmədim...

Mart.1967. Dəmirçilər.

## MƏN

Sıx əlimi, təmasından odlanım,
Havalanım, söz dəlisi adlanım,
Segah olum, neyə sinim, udlanhım –
Pərdə-pərdə öz nəğməmi yazım mən.

Məlhəm cana sözlərinin ovsunu,
Şirin dilin, sözlərinin ofsunu.
Bərələrdə qovduqaçın ov sonu –
Tilsimliyin nişangahı özüm mən.

Çoxlar düşdü ala gözün sehrinə,
Qılıqlandı rəftarına, mehrinə.
Mən dəliyə istəyin nə, meylin nə --
Bilməm necə bu röyamı yozum mən.

Dilbilməzə mail olmaq, nə lazım!?
Söz sehrinə zail olmaq, nə lazım?!
Yesir olub, sail olmaq, nə lazım?!
Səməndərtək yana-yana dözüm mən.

Riyakara, bədxahlara qoşulma,
Qədirbilməz namərdlərə tuş olma,
Məni əyib, sındırmağa xoş olma,
Başıuca, alnıaçıq gəzim mən.

## KEÇ GÖRÜM

Dəli könlüm asudəlik sevəndi,
Bu həvəsdə qüruruna güvəndi,
Tutdu məni yar çidarı, kəməndi,
Hünərin var, açıl görüm, qaç görüm.

Göz ofsunu varlığıma yeridi,
Həsrət qəmi yıxdı məni, sürüdü,
Ümidsizlik qaranlığa bürüdü,
Şəfəqlənib zülmətlərə saç görüm.

Həsəd çəkər, namərd məni dağ anıb,
Oxa tutar yar gözündən – ov sanıb...
Nə vaxtdandı əlim, qolum bağlanıb,
Bu düyünü, bu kilidi aç görüm.

Oynaqlığı, şıltaqlığı güldürür,
Yar özünü hər məqamda bildirir,
Vüsalı da, həsrəti də öldürür,
Zəhər nədi, dərman nədi, seç görüm.

Qədirbilməz bir gün səni atacaq,
İlan olub lal pusquya yatacaq,
Mələk olsan yenə günah tutacaq,
Bəndə olub qıl körpüdən keç görüm.

## VERİBDİ

Dilimdən dil çalıbdı –
Sevinib əl çalıbdı,
Yar yaman “ucalıbdı”,
Rəqibə sirr veribdi.

Vurulub çox özünə,
Ağ su gəlib gözünə.

Saxta ləl əvəzinə,
Aldanıb dürr veribdi.

Düşüb nadan toruna,
Ağlı çatmır qoruna,
Rəhmi gəlmir yarına,
Öldürüb, gor veribdi.

Əlac qalıb Allaha,
Dərdə dözüm yox daha,
Gedib çıxsam sabaha,
Yaradan nər veribdi.

## SƏNDƏ

Sevgi heyrət demək, heyrət – təlatüm,
Sevgi möhnət demək, möhnətsə yetim,
Özümdə dolaşım, özümdə itim,
Açılım, tapılım yar səndə, səndə.

Bələnə ruhuma zərif duyğular,
Bənövşə ətirli ilğım uyğular,
Yaddan çıxa həyat, cılız qayğılar,
Duyğum, uyğum, qayğım var səndə, səndə.

Yenidən doğulma çıxarmı yaddan?
Doğuldum Günəşdən, boy aldım addan!
Məndəki alovdan, məndəki oddan
Nolaydı, olaydı qor səndə, səndə...

## YANAŞDIM

Günlərin bir günü jurnalist dostlarım – Mehdi və Xanəmirlə Bakıda Nizami kinoteatrının tinində söhbət edirdik.Birdən Xanəmir həyacanla: --Pəh, Paşa müəllim- dedi. Onlar Paşa Qəlbinura yanaşıb görüşdülər. Sonra hər ikisi məni də çağırıb dünya şöhrətli oftalmoloq, professor və adı böyük hərflərlə yazılası zərif, ufaq duygular şairi Paşa Qəlbinutla tanış etdilər. Çoxdan görüşünü arzuladığım

bir insanla tanış olmağım münasibətilə bədahətən aşağıdakı misralar dodağımdan süzüldü.

Bu, alın yazısı, Allah rüsxəti,
Yuxunun çinliyi, arzu qisməti,
Təsadüf, zərurət – ömrün fürsəti,
Nurlu qəlbin nur dağına yanaşdim,
Elə bildim Tur dağına yanaşdım.

## SƏNİ

Dəniz köpüyündən, quş iliyindən,
Səhra təndirindən, səhər mehindən,
Bir də ki, göylərin maviliyindən
Yaradıb yaradan, yaradan səni.
Paşa Qəlbinur.

Yaratsın saf eşqin həsrət payından,
Pay versin xoş günün qismət payından,
Həyanın, abırın ismət payından,
Yaradır yaratsın yaradan səni.

Bir ömür bəxş etsin, hamıya örnək,
Duyğusu zəriflik, dözümü kövrək
Yalvaraq Allaha qorusun gərək,
Ürəkdə qör edən yaradan səni.

Tuş etməsin Allah kədərli ünə,
Bir bəzək olasan toya, düyünə,
Qənşərin saflığa, yönün ağ gübə,
Qorusun yaradan qaradan səni.

Istəyir yaratsın az tapılandan,
Istəyir yaratsın yüz tapılandan,

Halal ana südü–düz tapılandan,
Yaratsın ən ülvü duadan səni...

## YARISIN

Dinmə, gülüm, təbəssümün bəs elər,
Süzmə, gülüm, ala gözlər qəsd elər,
Bədnəzərdən yayın,vallah, nəhs elər,
Tanrı səni hər bəladan qorusun!

Məni gördü, gözlər üzdə gül açdi,
Xoş təbəssüm nəğmə dedi, dil açdı,
Həsrətindən vüsalına yol açdı,
Sevənləri yana-yaba qarısın...

Gündüz cöbrün, gecə röyam çaşdırar,
Gah zülmətə, gah işığa qoşdurar...
Ürək yanar, ağlım qınar --xoşdular!
Aşiq gərək hər məqamda yarısın.

## MƏN

Məni məndən sən qopardın, sən aldın,
Yollarıma çökən duman, çən oldun,
Düşüb qəlbə, hopub qana, mən  oldun,
Axtarıram hey özümdə səni mən...

Öyünürəm–eşqin adlı sərvətəm,
Qəbrə kimi qorumağa qeyrətəm!
Əsirinəm --söyləməyə qüdrətəm!
Yaşadıram hər  sözümdə səni mən...

Daş deyiləm, lazım olam hörgüyə,
Qıyma qəlbim qan ağlaya, hönkürə,
Yarmalaya zaman adlı kirkirə,
Hiss edirəm hər əzmimdə səni mən.

## QALARSAN

Sənə bağlandığım tək sənə bəlli,
Yuxuma gəlmirsən tapam təsəlli.
Dəliyəm, sərsməm, düzü, əməlli,
Ellərə car olar, naçar qalarsan

Ağlaya bilmirəm, kaş ki ağlayam!
Səni göz yaşımla ütəm, dağlayam,
Ocağam, kösövəm –atəş oğluyam,
Qəlbə xoş yanğıdan qaçar qalarsan.

Məndən uzaq  dolan, qarsıb yanarsan
Külün də bilinməz, küsüb.sınarsan,
İtərsən özündə, tapsan qınarsan,
Qaranlıq dünyaya düçar qalarsan.

*Mart.1969*

## ETİRAF

Sevmisən sən necə--özün bilirsən,
Heyif, sevilmədin dəyərin qədər!..
Bəlkə buna görə qeyzə gəlirsən?
Məni göz yaşınla edib mükəddər.

Sən özün həssassan həddindən artıq,
Bəs mənə biganə olmağın nədir?..
Bu, rəsmi davranış səddindən artıq,
Özünə qapanıb qalmağın nədir?..

Sildim göz yaşını, ruhum titrədi,
Yayıldı od kimi sinəm boyunca...
Ürək dayanardı, ömür bitərdi,
Əlindən öpməsəm; öpdüm doyunca.

## İTSİN

Qarşına çıxacam bir gün,
Tanınmaz baxacam bir gün,
Yandırıb yaxacam bir gün,
Ümidin, gümanın itsin.

Bilirəm peşmansan, peşman,
Özünə düşmabsan, düşman,
Utanıb yaşmansan, yaşman,
Qəlb adlı zindanın itsin.

Bəxtini sən daşa çaldın,
Necə qıydın, haşa çaldın,
Mənimkiynən qoşa çaldın,
Qıyanın, umanın itsin.

Gözünə kədər hopacaq,
Qəlbin acılar tapacaq,
Yolunda sazaq qopacaq,
Çiskinin, dumanın itsin.

Çağırsan gələ bilərəm,
Gəlməsəm, belə bilərəm,
Sınaqdı elə bilərəm,
Tərsliyin, yamanın itsin.

Hara qalxsan enıcəlsən,
Nəğmə olub dinəcəksən,
Bir gün mənə dönəcəksən –
Tərsliyin, umanın itsin...

## YUXUMA GƏLMİŞDİN

Yuxuma gəlmişdin sən ötən gecə,
Bəmbəyaz, bəzəkli libasda idin.
Bilmirdim sevinim, şadlanım necə,
Mənimlə çox yaxın təmasda idin...

Ölüm ayağında can verir həya,
Çarmıxa çəkilmiş gənclik isməti.
Bir lətif xoşluğu sən duya-duya,
Itirdi biryolluq Tanrı qisməti.

Üzündə həyacan, gözündə sevinc,
Allaşan yanaqlar közərib yanır.
Davakar qızcığaz –o çılğın, nadinc
Özünü yetəri bir qadın sanır...

Bir də tapmayacaq itirdiyini,
Analıq hissinə sinib uyacaq.
Eşq ilə becərib bitirdiyini,
Bağrından qoparıb mənə qıyacaq.

Əyilib səcdəyə, ayağın altda,
Tanrı rəhmətinə layiq olaydım.
Ucalıb göylərə -- yeddinci qatda
Həqiqət nuruna faiq olaydım.

## BÜLBÜL YUVASINA ENƏRMİSƏNMİ?

Bu Çinar, bu Palıd, bu duyan İnsan,
Hansı əzəmətli, hansı sevdalı?!.
Şimşəklə süzülən baharda leysan,
Paklığın rəmzidir, “Şükür”nidalı.

Ey əzəli İnsan– riyadan uzaq,
Möhnətli yollarda nələr qazandın?
Həfsinlə bərabər yarandı duzaq,
Mərdliklə gödəldin, kinlə uzandın.

Yüksəlib Tanrıya çatan da sənsən,
İblisin qoynunda yatan da sənsən,
Halalı harama qatan da sənsən,
Adəmə, Həvvaya dönərmisənmi?...

Bu, vəzir tədbirin, şah hiddətinlə,
Bu, köşək duyumun, nər müddətinlə,
Canavar xislətin, şir qüdrətinlə,
Bir quzu mehrinə sinərmisənmi?..

Dayısı quzğunu saldıran qartal,
Zəncirli kotanı qaldıran qartal,
Özünü İnsana güldürən qartal,
Bülbül yuvasına enərmisənmi?

## SEVƏN DOYMAZ, NAŞI BİLMƏZ

Bürüyüb sən suça məni,
Endirmə, gəl, heşə məni,
Sayma, gülüm, neçə məni,
Belə getsə, bir də qalmaz.

Qorxma namərd tənəsindən,
Çıxan oxun dönəsindən,
Ucalanın enəsindən
Tufan qopar, xata gəlməz.

Əl qoymasan əlim üstə,
Tüstü hardan sevən kəsdə?..
Sozalaram, olub xəstə,
Üzüldükcə üzüm gülməz.

Can verənə can demə sən,
Kül olmuşa yan demə sən
Canbirqəlbi tən bölməsən,
Girər gora, fəqət ölməz.

Hamı heyran, sevən mənəm,
Mənə tapın, güvən –Mənəm!
Hara uçsan, yuvan mənəm,
Məndən yaxın, yavuq olmaz!

Bu əsrarda məna dərin,
Bu, sevdadır, yox zəbərin,
Acısı da baldan şirin,
Sevən doymaz, naşı bilməz

Mart.1968

## DÜŞDÜN

*Bir gözəl qocalığa necə güldüsə,*
*Az qaldı duyğularım özümdən küsə.*
*Sabir Şəfiyev.*

Gözəllik zinətin, şıltaqlıq işin,
Cırnatmaq, incitmək özəl vərdişin,
Yuxuma girməyin bir şux bəxşişin,
Nazlandın, sevindin, xoş çağa düşdün.

Gizli təbəssümlə dindirdin məni,
Ətrini duymağa qandırdın məni,
Titrək nəfəsinlə yandırdın məni –
Solumdan başladın, sən sağa düşdün.

Pərişan ömrümə yaraşıq verdin,
Zülmətli yoluma nur, işıq verdin,
Gündüzlər öcəşib, qarğaşa verdin,
Gecələr şeh olub yastığa düşdün.

Yox tale alçısı xar dəyən gülün,
Açılmaz qönçəsi xar dəyən gülün,
Bəzənməz xonçası xar dəyən gülün,
Bədnəzər kəsdiyi növrağa düşdün.

Bir səhər Günəşlə haylanacaqsan,
Əsrin o tayından boylanacaqsan,

Tarix girdabına quylanacaqsan,
Yarıtmaz yar oldun, torpağa düşdün.

## BƏSİMDİ

Röyalara sığındım,
Xəyalınla ovundum,
Qismətimə sevindim,
Bu dünyalıq bəsimi.

Canın qəhri candadı,
Dürüst fəhmin – sondadı.
Sivri nədir? –Qındadı,
Öz ünümdü, səsimdi.

Tapınmışam həsrətə,
Haqqa təlqin qismətə,
Şükür olsun rüsxətə,
Könlüm əsim-əsimdi.

Xeyri şəri atmağım,
Səndə itib-batmağım.
Əllərindən tutmağım,
Vüsalımdı, busəmdi.

Hara gəldi yoz məni,
Ipə, sapa düz məni,
Azca sına, qız, məni,
Sənin falın tərsimdi.

## ÖZ- ÖXÜNƏ YAD OLSAN

Ala gözlər düz anladı,
Lal baxışdan söz anladı,
Ürək gəzdi tikan üstə,
Hər ağrıya döz, anladı.

Odlanasan od alasan,
Öz canına yad olasan,
Yar üstünə od yağdira,
Namərdlikdi daldalansan.

Kor-koranə getdim,gülüm,
Öz içimdə itdim, gülüm,
Gözlərinə əsir oldum,
Xoş məqama yetdim, gülüm.

Çox danışdım, dinləmədin,
Harayladım, ünləmədin,
Bəyan etdin məndə məni,
Inanmadın, anlamadın.

Gözlərindən od almışam,
Sözlərindən dad almışam,
Virim-virdim sən, sən oldun,
Öz-özümə yad olmuşam.

## YALAN

Hökmünə müntəzir, demə, qulmuşam,
Həsrətin yükünə hambal olmuşam,
Nə qədər ürəkdə qabar almışam,
Az da desəm yalan, xeylı də yalan.

O gün ki, qəlbimi sənə vermişəm,
Narahat, sərgərdan ömür sürmüşəm,
Səni də özümdən betər görmüşəm,
Məcnun da yalanmış, Leyli də yalan.

Eşqim cuşa ğəldi, coşdu qanımda,
Ikinci bir varlıq duydum canımda,
Kölğətək ızləndim, durdun yanımda,
Məqsədli də yalan, səyli də yalan.

Sevənlər özündən qaça bilməyir,
Yaxşını yamandan seçə bilməyir,
Ömür sınağından keçə bilməyir,
Istəyi də yalan, meyli də yalan.

## ÖZGƏ YUVA İSİTMƏZ.

İlmə, düyün acırsan
Buxovundan qaçırsan,
Özğə yuva isitməz.
Öz yuvandan uçursan.

Yüz dərənin bir tapı,
Dəhnə uçdu, yox qobu.
Yadırğadı yar məni.
Tənə etdi hər o, bu.

## DUALARIM ÇATMAZ OLDU

Uzaq dolan, uzaqda ğəz,
Isti, ilıq bucaqda ğəz,
Özün sevə bilmədinsə,
Sevği dolu qucaqda ğəz.

Tanrı səni boş yaratdı,
Dillə uçan quş yaratdı,
Duyan ürək vermədisə,
Sinən dolu daş yaratdı.

Üzdə qara ğül açıbdı,
Gül tək qıvrım tel açıbdı.
Al yanaqda mixək xalın
Gülə--ğülə dil açıbdı.

Səni yaza, ğülə qoşdum,
Nəğmə deyən dilə qoşdum.
Canda duydum, iraq ğördüm,
Həsrətimə, ilə qoşdum.

Səsim, ünüm yetməz oldu,
Sinəm dağı ğetməz oldu.
Haqq qapısı bağlı qaldı,
Dualarım çatmaz oldu.

## AXTAR

Əllərin qoynunda bükülüb qalsa,
Nəfəsin içinə çəkilib qalsa,
Xatirə yollara tökülüb qalsa,
Oxşarı, xəyalı ğözündə axtar.

Həsrətin oduna yanıb küsmə sən,
Namərd tənəsindən sınıb küsmə sən,
Keçən xoş ğünləri anıb küsmə sən,
Ərköyün, bədqılıq nazında axtar.

Gəncliyin sovuşub ğəlsə qocalıq,
Uzaqdan halına ğülsə qocalıq,
Nə axtardığını bilsə qocalıq,
Ömrün qış yaşında –yüzündə axtar.

Xoş röya içində yatıb ğələrsən,
Taqəti, dözümü atıb ğələrsən,
Gedirəm, izimi tutub ğələrsən,
Tapmasan, sən məni özündə axtar.

## SƏNİ AXTARIRAM...

***...Hər zaman haqq söyləyən dillə mayalanmışam,***
***Məni yoxdan xəlq edən Xaliqə inanmışam,***
***Özümü pay qoymuşam –qəlblərə paylanmışam,***
***Bircə bunun xətrinə toxunmayın şəstimə!***
***Mir Məhəmməd Ağa NUR***

Səni axtarıram, səni ğəzirəm,
Itən səbrim oldun, dağılan huşum...
Siğınıb ruhuna hələ dözürəm,
Bilmirəm heç nələr çəkəcək başım.

## YOL AYRICINDA

Gecıkmiş bu eşqi çoxmu gözlədik?
Düşüb arxasınca giryan izlədik.
Sevdik, sevgimizi nahaq gizlədik,
Qalmışıq yolların yolayrıcında.

Ümidsiz bu eşqə yasmı tutaq biz?
Bəxtin aynasını tərsmi tutaq biz?
Dil açan gözləri nəhsmi tutaq biz?
Qalmışıq yolların yolayrıcında.

Dilə gətirməyək – dilimiz yanar,
Ayımız od yüklü – ilimiz yanar,
Içimiz çaxnaşar, çölümüz yanar,
Qalmışıq yolların yolayrıcında.

Həsrətin düyünü iləmi düşdü?
Qarğışı, bədvası*diləmi düşdü?
Bəduğur püşkümüz beləmi düşdü?
Qalmışıq yolların yolayrıcında.

---

**Bəd duası*

## YANAĞA

Xına yaxıb əllərinə,
Gül düzürsən tellərinə,
Jalə bahar güllərinə,
Çox yaraşar xal yanağa.

Ilk görüşdə biri çaşar,
Heyrətindən həddi aşar,
Gözlər dolar, dil dolaşar
Sığal çəksə əl yanağa.

Qəfil öpsən, çılğın nəzər,
Cod baxışlar canı üzər,
Yaşa dönüb ismət süzər,
Ləkə salar al yanağa.

Belə əsər, belə dönər,
Saçın olar tələ, dönər,
Üzdə əsmər gülə dönər,
Düşsə qıvrım tel yanağa.

## DE, ŞÜKÜR, ALLAH!

Xəyaldan, niyyətdən süzüb gəlmişəm,
Bayramda qapılar gəzib gəlmişəm,
Bir badyaça suda üzüb gəlmişəm,
Bəxtinə sevin sən, de, şükür, Allah!

Qismətin düz yolu kəsə, hamardı,
Tay-tuşun hamısı bunu umardı.
Demə məhəbbətə, demə qumardı
Bəxtinə sevin sən, de, şükür, Allah!

Çoxuna rəftarın həsəd, qibtədi,
Ilk baxış sevgisi sanma müftədi,

Ömürdən bahadı, ovdu, siftədi –
Bəxtinə sevin sən, de, şükür, Allah!

Fələyin qurduğu tələ qabaqda,
Oğul, qız qayğısı – şələ, qabaqda,
Ömrün sərt sınağı hələ qabaqda,
Bəxtinə sevin sən, de, şükür, Allah!

Anlağı, güzəşti çətindən çətin,
Qovuşmaz xoş günə olsa da mətin.
Qədrini uca tut ilk məhəbbətin,
Bəxtinə sevin sən, de, şükür, Allah!

1999

## ƏLƏ- ƏLƏ TUTAQ

Dedim, gəl bölüşək qəlbin yükünü,
Bərabər aparaq ölçü, çəkini.
Ömür yollarinin eniş, dikini
Qoşa addımlayaq, ələ-ələ tutaq.

Mənsiz sızıldama, mənsiz gülmə sən,
Tənha yaşamağı asan bilmə sən.
Məndən qabaq gedib, sonra gəlmə sən,
Qoşa addımlayaq, ələ-ələ tutaq.

Toxumu vaxtında əkənlər udar,
Yuvanı müştərək tikənlər udar,
Dərdi də müştərək çəkənlər udar,
Qoşa addımlayaq, ələ-ələ tutaq.

Qisməti tapdayıb çıxdın üstünə,
Günahı atma sən baxtın üstünə --
Bədqılıq zamanın, vaxtın üstünə,
Qoşa addımlayaq, ələ-ələ tutaq.

Dolaşıq düyünlə höcət taparam,
Sənlə hər müşkülə hacət taparam,

Yıxılsam söykənib nicat taparam,
Qoşa addımlayaq, ələ-ələ tutaq.

1987
Dəmirçilər

## TƏRƏDDÜD

Bir qərib ümidin dalınca düşüb,
Gedirəm yollara töküb özümü.
Çarpaz cığırlarda bir-bir ilişib,
Apara bilmirəm çəkib özümü.

Suala bürünür hər nikbin nidam,
Niyəsi cavabsız qalır könlümün.
Elə bil özüm də özümə yadam,
Açmamış qönçəsi solur könlümün.

Soyuq biganəlik üşüdür məni,
Gözümə baxmağa yoxdur cürətin.
Sözsüz də ürəyin eşidir məni,
Etiraf etməyə çatmır qüdrətin.

Nə qədər doğmadır əllərin mənə,
Yanan ürəyimə sərinlik verir.
Nə ola bir gün də gözlərin dinə,
Gözlərin işini əllərin görür.

Dilin də yatmadı uyarlı sözə,
Yatımın, yanımın olmadı, axı!
Yayın bədnəzərdən, gələrsən gözə,
Bir istək üstündə qalmadın, axı!

Qətrə duyumunda ilk məhəbbətin,
Tufanlı dəryası dalğalanarmış.
Çathaçat vüsaldan doğan həsrətin,
Uyumaz mayası, çalxalanarmış.
1969

## GECİKMİŞ

Çağırdım, eşitdin, dönüb baxmadın,
Şahanə taxtından enib baxmadın,
Yandın için-için, sönüb baxmadın,
Neylərsən baxanda olsan gecikmiş?

İstəyin bəxtinə yazından böyük,
Gedirsən qürurun özündən böyük,
Özünə vurğunluq nazından böyük,
Ömrümə bəduğur ilsən, gecikmiş.

Addımlar düz getmir, yolum titrəyir,
Əlindən tuturam, əlim titrəyir,
Çaşır, topuq vurur, dilim titrəyir,
Qışımda açılmış gülsən, gecikmiş.

Bir üskük meyində ilk məhəbbətin,
Bir dərya tufanı qopar həsrətin,
Bir qüdrət payısan bəlkə qismətin,
Qorumu püləyən yelsən, gecikmiş.

Tapınsam sükuta, sirrə sığınsam,
Üz tutub dərgaha, səbrə sığınsam,
Daş olub, daşlaşıb qəbrə sığınsam,
Çatmazsan havıma, gəlsən, gecikmiş.

*1968*

## SEVƏCƏYƏM

Meh də əsmir gül tərpənə,
Taqət çatmır əl tərpənə,
Nitqim yoxdu dil tərpənə,
Lal-kar, bihal sevəcəyəm.

Düçar olsam fitnə-felə,
Ömrü tamam versəm yelə,

Öz içimdə itsəm belə,
Gülsə mahal, sevəcəyəm.

Ensəm, çöksəm duracağam,
Azsam, yollar yoracağam,
Zülmətləri yaracağam,
Aydın camal sevəcəyəm.

Hər möhnətə gətirdim tab –
Bəlkə günah, bəlkə savab,
Gizli istək, sözsüz cavab, –
Olub sual, sevəcəyəm.

Daş sükutda, ündə gülsən,
Yaxında gül, gendə gülsən.
El güləndə sən də gülsən,
Qəlbi məlal sevəcəyəm.

## ÜMİD QOYDUM DİL ALTINA

Daş oldun, gərəyim oldun,
Əyildim, dirəyim oldun,
Səyriyən ürəyim oldun,
Ümid qoydum dil altına.

Daş atdın, topuğa dəydi,
Ürəkdə çapığa dəydi,
Urvatım lopuğa dəydi,
Odum düşdü kül altına.

Göydə vurdum, yerdə tutdum,
Dayaz üzdüm, dərin batdım,
Cəhd elədim, çarıq yırtdım,
Səni gəzdim əl altinnan.

Oynaq, şıltaq, nadinc oldum,
Gözlərində sevinc oldum,

Gəzdim, azdım, girinc oldum,
Qəfil mindim yel atına.

Şirin vüsal dedikləri,
Qoşa gəzdik gədikləri,
Açıb tökdün hörükləri,
Tora düşdüm – tel altına.

## KAŞ QAYTARA BU NEY SƏNİ

Yaz nəfəsi duyan simsar,
Lal uyğuya uyan simsar,
Bu nə qəflət, oyan, simsar!
Diksindirər haray səni.

Sən könlümün incə gülü,
Sevdim mən də bunca gülü,
Bildim ömrün qönçə gülü
Hər gün səni, hər ay səni.

Için aydın, çölün aydın,
Dibi dərin gölün aydın,
"Tərsə" deyən dilin aydın
Kimə tutum bəs tay səni?

Göz nurundan sovdun, tutdum,
Söz nurunda ovdun, tutdum,
Haqq dalınca qovdun, tutdum,
Aldım haqdan xoş pay səni.

Gördüm səni kim apardı,
Tilsimli sim-sim apardı,
Mizrab aldı, sim apardı,
Kaş qaytara bu ney səni.
1969

## ÇƏK SƏN

Açma ürəyini, demə kimsəyə,
Birinə, beşinə -- kəmə, kimsəyə,
Sadəlövh olma sən kimə, kimsəyə,
Vüsala həsrəti özündə çək sən.

Ələmə eşqini söz ələyində,
Büküb saxla, gülüm, "döz" bələyində
Məhəbbətin gücü gizliliyində,
Intizar qəmini gözündə çək sən.

Səbr elə, darıxma, bəhsə düşərsən,
Salarsan acığa, tərsə düçərsən
Danışma, bəd gələr, nəhsə düşərsən,
Gözündə oxunan sözündə çək sən.

Vuruldum, car çəkib özüm açıldım,
Yayıldı ellərə sözüm, açıldım,
İtdi, qeybə çıxdı dözüm, açıldım,
Tablaş, topla taqət, əzmində şək sən.

Vüqarın, qürurun mərd – yıxar səni,
Namərd quyu qazar, sərt yıxar səni,
Qorxma ki, dərd üzər, dərd yıxar səni,
Dərdin təntənəsi, bəzmində çək sən.

1968.Dəmirçilər.

## MƏN

"Bizi qoyub qaçan durna",
Qaçma ğəlim dalınca mən.
Haqq qapısı açan durna,
Haqqa bağlı ölüncə mən.

Qapım bağlı, yar açmadı,
Fəhmi kordur, kor açmadı,
Canda illət var, açmadı,
Qalar illət ğəlincə mən.

Için zülmət, çölün duman,
Andın yalan, əhdin ğüman,
Addım- addım, zaman- zaman,
Səndən qaçdım bilincə mən.

Qapım bağlı, açan ğəlsin.
Fərəhimlə uçan ğəlsin,
Şəfqətini saçan ğəlsin,
Şəfalanıb qalınca mən.

1967

## ƏRİDİM MƏN GİLƏ-GİLƏ

Rəftarın çox soyuq, dondurdu məni,
O qaynar ğözlərin səmti yan hələ,
Bu səhər tuş oldu odlu baxışlar,
Yandırdı, əridim mən  ğilə-ğilə.

Yamanca sevindim qəfil fürsətə,
Incidən, küsdürən dəcəl qismətə!
Sığındım vüsala çəkən həsrətə,
Uzatdın yolları sən bilə-bilə.

Ovsunun uzandı bir ömür boyu,
Ovutdun, çatmadı vüsalın payı,
Sarsındı sevdanın harayı,hayı,
Içimdə sızladım, üz ğülə-ğülə.

Şirindir, nə qədər olsa da acı,
Ürəkdə qövr edən ğörüş möhtacı,
Təbəssüm ğöndərsən bir az ğözucu,
Namərdəm, çox umub ğətirsəm dilə.

Səhərim xoş ğələ, ğecəm xoş ğedə,
Biri bahar boylu, biri qış, ğedə,
Gah tərəddüd edə, əliboş gedə,
Gah ola tamarzı, ta haqdan gələ.

1967. Dəmirçilər.

## HEÇ OLMASA

Tərs anladım, incik düşdüm sözündən,
Gizli çəkdim, gen dolandım izindən,
Bulandı da bulağımız gözündən,
Günahkarıq!--Bütöv mənəm, yarı sən,
Süzül görüm, durul görüm, barı sən.

Dilə düşdük, yalan, gerçək söz olduq,
Hamı sevdi, alabaydaq biz olduq.
Yerli-yersiz suçumuza göz olduq,
Günahkarıq!--Bütöv mənəm, yarı sən,
Çalış gülüm, yu günahı barı sən.

Tapıb səni, mən özümdə itmişəm,
Kölgən olub, yollarında bitmişəm,
Tapdanmışam, toza dönüb getmişəm,
Günahkarıq!--Bütöv mənəm,yarı sən,
Yastıq çevir, gör yuxuda yarı sən...

Sən “get” dedin,”dön”-deməyə üzün yox,
İşıq gələn pəncərəmdə gözün yox,
Görüş yeri ormanlaşıb, izin yox,
Günahkarıq! Yarı mənəm, yarı sən,
Dilim gəlmir, deyəm: mənsiz yarı sən!..

1967.
Dəmirçilər.

## MƏNİ

Özün gəldin, özün getdin,
Nəğmə kimi tez də bitdin,
Niyə məni məyus eydin,
Salarsanmı yada məni?

Necə varam, elə qallam,
Bulud olub sənsiz dollam,
Bir gün gələr lazım ollam,
Vermə, gülüm, bada məni.

Təbəssümsən üzümdə sən,
Bir dünyasan gözümdə sən,
Dilimdə sən, sözümdə sən,
Bil gözündə didə məni.

Uyma şirin-şəkər sözə,--
Yalan, böhtan əkər sözə,
Günahlara çəkər sözə,
Qıyma, tutar qada məni.

Məruz qalıb müşkül işə,
Dqşər olsan dilə-dişə,
Üzsə səni çox əndişə,
Çağır, çatım dada məni.

Umduğu çox, az apardı,
Təkəbbürlü naz apardı,
Bir yelbeyin qız apardı,
Bəyəmmədi o da məni...

1967.
Dəmirçilər.

## MƏLƏK, YOXSA İBLİS?

Dedim gəl ayrılaq, demədin niyə,
Adını nə qoyaq soruşmadın da.
Sən çoxdan bu işə hazırdın deyə,
Dinmədin, susaraq qarışmadın da.

Bəs indi necəsən, necədir halın?
Darıxıb yuxular görürsənmi heç?
Özündən özünə varmı sualın?
Özünə hesabat verirsənmi heç?

Bilsəm ki, tutmusan rahat bir qərar,
Sevinib gülmərəm, üzülmərəm də.
Insanda qəribə təbəddülat var,
Ruhumla inciyib, əzilmərəm də.

Demirəm səninlə varlığım gedib,
Həyatın gərdişi sıxıb çoxunu.
Düşüb güvə kimi qəlbləri didib,
Itkilər həmişə yıxıb çoxunu.

Demirəm çarəsən dərdi-sərimə,
Onsuz da çarəsiz dərdimiz bizim.
Kim də olsa, inan, mənim yerimə,
Allah verməliydi ona bir dözüm.

Çıxılmaz hallara qatlaşıb qalsan,
Kiməsə açmağın çətin olacaq,
Bir kimsə tapmasan, ümidsiz olsan,
Tablaşan iradən mətin olacaq.

Mənim də halımı bilmək istəsən,
Hər kəsin öz dərdi özünə bəsdi.
Nə qədər "iblisi" söyüb pisləsən,
Sanma ki, söyüşün doğru – dürüstdü.

Bu sirri heç zaman kimsə biləməz,
Bu yükün altından çıxmağın çətin.
Iblislik, fitnəlik burda olamaz,
Bir zaman bilinər yeri qeybətin.

Insana dar gündə arxa olan kəs,
Öz vicdan borcunu verirsə əgər,
Xoş gündə iblisə dönməyi əbəs,
Bir anlıq şəhvətə olarmı nökər?

Sanma ki, yoxundur suçun, günahın,
Özündə qalacaq hər kəsin payı.
Hər şeydən xəbəri vardır Allahın,
Ona ki agahdır kim kimin tayı.

Dilin necə döndü iblis deməyə?
Kiminsə adından olsa da belə.
Layiqli payını Allah hərəyə,
Verəcək, verəcək, verməyib hələ.

## HAÇAN ?

Gedişinlə məni üzdün,
Bilməm özün necə dözdün?
Ayrılığı hara yozdun?
Yönün bizə dönər haçan?

Küskün getdin, giley-güzar
Isinişən halı pozar,
Yön azdırar, yolu azar,
Sevgi, qayğı dinər haçan?

Sənsiz yaman darıxıram,
Gəl, görməyə qarıxıram*,
Tökər yazda qar, qorxuram,
Qorxu, hürkü sınar haçan?

Gedib əldən səbrü-qərar,
Həsrət sənsiz qəsdə durar,
Yolun üstə boynun burar,
Gəlişini anar haçan?

Dolanırsan sərin-sərin,
Bu girdabın sirri dərin,
Əməlindən yox xəbərin,
Adam suçun qanar haçan?

Gözəllikdə çox ucasan,
Demə, Ərşad, get, qocasan,
Yüz də itib, sən qaçasan,
Qayıdarsan yenə haçan?

1967

---

*Tələsirəm.

## NƏTƏRMİŞƏM

Quş idinmi, uçub getdin,
Niyə hürkdün, qaçıb getdin,
Nur ulduzu!--Saçıb getdin,
Öz payımı götürmüşəm.

Səni səndən aldım o gün,
Məmnun, xoşhal qaldım o gün,
Necə bihuş olgum o gün,
Ayıldım ki, itirmişəm.

İtik gəzmək can üzəndi,
İman min bir yer gəzəndi,
Şübhə,güman-- şər düzəndi,
Tərəddüdlər ötürmüşəm.

Tanrı verə rəvac, rüsxət,
Tapam, alam macal, fürsət,
Kaş ki gələ bir də qismət,
Biləm, görəm nətərmişəm.

## MƏNİ

Olma dəli, quzu ceyran,
Gizli eşqi eylə bəyan,
Dörd yanındır sənə həyan –
Həyanına bildir məni.

Lal olan dil dinəsidir,
Sanma qəlbim dönəsidir.
Çağır, göydən enəsidir –
Zülfün kəmənd – aldır məni.

Ölüm-itim xof arası,
Haray, həşir qoparası,
Xəyal, ilğım aparası,
Səslə nəni, saldır məni.

Al geyinib, ağa bürün,
Dan sökülən çağa bürün,
Yaz nəfəsli bağa bürün,
Al təbəssüm, güldür məni.

Incik qaş-göz atdı mənə,
Giley, tənə etdi mənə,
Bu gün səsi çatdı mənə,
Çağırırmış bildir məni.

Mart.1967. Dəmirçilər.

## GETMƏ DEDİM ÇOX QABAĞA

Getmə dedim çox qabağa –
Ləlin gözdən yağa-yağa...
Tufan, çovğun, qar o dağa,
Səmum yeli bu dağadı.

İtsən gözdən ilim-ilim,
Bağrım olar dilim-dilim,
Qurban gedən ayım, ilim,
Gülüm, sənə sadağadı.

Kirpiyinin qaldırımı,
Məhəbbətin sıldırımı,
Gözlərinin ildırımı,
Gözlərimdən qəm sığadı.

Tufan qopdu, sındı ağac,
Simşək çaxdı, yandı ağac,
Gövdə ütük, kötük qaxac,
Alovlanma budağadı.

Xançalımın gümüşü yox,
Bir tərlanam – gəmişi yox...
Bostan əkdim, yemişi yox,
Şamaması qadağadı.

Boğuluram, hava bürkü,
Narın yetik, sinən sərgi,
Heç bilmədim qorxu, hürkü,
Uçuqlama dodağadı...
Mart.1967.

## DƏRD İÇİNDƏN SEÇ DƏRDİMİ

Dərd içindən seç dərdimi,
Şərbət bilib, iç dətdimi,
Gizli qalıb, aç dərdimi,
Açılmasa üzülərəm.

Özüm açsam, dilim yanar,
Yazıb versəm, əlim yanar,
Tab etməyə halım tanar,
Əriyərəm, nazilərəm.

Dərdim xoşdur, qanan olsa,
Bir halıma yanan olsa,
Yar əhdini danan olsa,
Tapdanaram, əzilərəm.

Keçib həsrət qayğısından,
Uçub möhnət ağrısından,
İçib heyrət duyğusundan,
Durularam, süzülərəm.

Al geyindin gül əyninə,
Heç gəlmədim bir eyninə,
Asılmağa yar boynuna
Ipə, sapa düzülərən.
Mart 1967.Dəmirçilər.

## DÜŞDÜ

Bu sevgi yarandı qaçdı-qovunan,
Elə bil alışdı çaxmaq qovunan,
Nə qədər dilə tut, deyil ovunan –
Oxudu, nəğməsi dillərə düşdü.

Gözəldir gülüşün yerişin qədər,
Yerişin can alır duruşun qədər,
Küsüşmək şirindir barışın qədər--
Qəhərin şəbnəmi illərə düşdü.

Çiçəklər içində bənövşə sevdi,
Rahatlıq yan keçdi, əndişə sevdi,
Yamanca alışdı təşbişə, sevdi –
Ofsunlu gözləri güllərə düşdü...

## NƏ

Borc alıb mən səndən tabı, dözümü,
Axtarıb tapacam itən özümü,
Çəkib yollarından umsuq gözümü,
Susacam,dinməyin hekayəti nə?

İncidir qəlbimi oğrun baxışlar,
Usanmış, tükənmiş yorğun baxışlar,
Açıqca qoparır qırğın baxışlar,
Gözlərin qəsdi nə, şikayəti nə?

Tökəcəm bəxtinə hicran yağışı,
Ümidsiz, inamsız güman yağışı,
Tənha məzarımı zaman yağışı
Yuyacaq, yoxluğun fəlakəti nə?

Qoy yusun rəddimi yolundan qədər,
Dodağın odunu telindən qədər,

Əlimin izini əlindən qədər,
Ölən eşqimizin bəkarəti nə?

## SEVMƏYİ QAÇATIMBASDI

Vuruldu, sevməyi qaçatımbasdı,
O biri sevgiyə tövbə çatınca.
Yelbeyin, a qızlar, nə basabasdı,
Dayanın, gözləyin növbə çatınca.

“Açılan” bəxtiniz gəlhagəldədir,
Xətriniz “urvatlı”tutulsun gərək,
Adınız əzbərdir – eldə, dildədir,
Əvvəlki “sevilən”atılsın gərək...

## SEVGI BUTASI

Buludlar çaxnaşıb
toqquşan ğecə
zülmət qaranlıqda –
Yerlə Göyün qeylü --qalında,
“Arx altı”*, dəyirman yolunda
ğizlicə
qapdım Səni şimşəklərin əlindən,
sıxdım bağrıma,
döndün
təmiz, seyrək,
bumbuz dağ havasına
axdın sinəm dolusu
islanmış canıma,
yayıldın vücudum boyu,
hopdun qanıma...
Böyləcə
ötdü ğecə.
Günəş çıxdı
bir çatı boyu
qalxdı üfüqdən.
Bu yaz səhəri
laləli, çiçəkli--

ətirli, mehli,
al- əlvan muncuqlu--
şəbnəmli- şehli
çölün düzündə
saldım əlimdən
itirdim Səni.
Axtardım --
havalanmış, dəli kimi,
seçib ayıra bilmədim
Səni çiçəklərdən,
çiçəkləri Səndən.
Qaldım
mat- məəttəl,
ğülməli kimi...
Sənsə nazlanıb
elə bil qəsdən
ğizləndin, ğizləndin məndən.
Gələn yaza qədər
aramsız, narahat,
çöysü, dinclik bilmədən
axtaracam-
mütləq ğəzəcəm,
Tapmasam,
ömürüm boyu
fəraqına dözəcəm...
Yenə yəqin
buludlar ğözlərini sıxacaq,
həsrətinnən
nəmli- nəmli,
qəmli- qəmli
baxacaq,
qatı qaranlıq yaz ğecələrində--
sükut vahiməsində,
qaibanə Anadil səsində
Səni soraqlayacağam,
Səni ğəzəcəyəm...
Yenə bir yaz səhəri
çölün düzündə,
rəng-rəng çiçəklərin arasında--

al qırmızı, ağappaq, ya sarısında,
ya da zülmətlərin içində belə,
şimşəklərin gözüynən
axtarıb yoxlayacağam,
Mütləq üzəcəyəm,
Üzüb birillik möhnətin
dağladığı ürəyə
məlhəm edib yaxacağam,
Yenidən itirmək qorxusuynan,
yenidən tapmaq sevinciynən
sinəmə sıxacağam.
Bu
aşkarlıq
ya yuxu
İnanmayacaq çoxu--
And içirəm
                    yerə, ğöyə--
Desən hər nəyə,
Elə o vaxtdan--
o yağışlı, şimşəkli
yaz gecələrindən,
ətirli, şehli yaz səhərindən,
dolaşıq salsam da
mən
Günəşi, Ayı,
Tapıb
mütləq
tutub beş əlli
qoruyacağam.
mütləq saxlayacağam
tutiya kimi--
ömrüm boyu
Mövlam verən
bu payı...

## KAŞ

Bu gecə
yuxuda gördüm səni:

kətan üzərində rəsmini-
belində gümüşdən kəmər,
əynində al xara,
al qumaşlar,
başında qızıldan tac,
barmaqlarında bərq vururdu
hər birində bir rəng çalan
almazlar, daşqaşlar,
Hədəqəsindən çıxmış,
qapqara gözlərin ac,
Çiyinlərin bir az qısılmış,
Dilinə keşən qarmaqdan
asılmış...
Gözlərim böyüdü
heyrətdən...
İnsan əli, ya qüdrətdən
belə canlı yaradılmış
mələk görürdüm ilk dəfə --
şirin, ülvü məhəbbətlə,
öldürücü nifrətlə
alınmışdı hədəfə...
Kaş belə olaydı həmişə,
tərəddüdsüz, filansız,
çəkmədən bir əndişə,
asaydılar dilindən
"sevirəm"- sözünü
boğazdan yuxarı, ürəksiz detəni,
Gözəl qəddi-qamətli
ağıldan fərsizlərə
sürüşkənliklə söyləyəni...

## HƏYAT DAVAM EDİR

Bu dəniz...
Bu sahil...
Fəqət,
yoxsan sən.
Yaşantı köhnə --

Elə həmən...
Doğma sahildə
durur
əvvəlki şəstində
özəl kətil daşımız...
Fəqət,
üstündə oturmuş
iki sevgili,
Gözlərində yanan ümid –
Gələcəyə dikili!..

## BİR PARÇ SUYUN SORAĞINDA

Dünyanın
kələfi dolaşıq,
baş-ayaq,
qarmaqarışıq
işindən xəbərsiz,
qayğılardan uzaq,
öz evində qonaq
bir durumda,
Əhlikefcəsinə,
etmədən şam,
Yatağa girdim bir axşam...
Çox asan, çox rahat
yuxuya getdim –
Gecəm qəri*
Yuxuda
gecənin bir şəri
gördüm ki, sən –
qonşunun dəcəl qızı –
gözləri ala,
bəstəboy,
əsmər üzlü,
yanaqları qan qırmızı
hardasa gizlicə pusquda durub
qəflətən
bir parç su atdın üstümə,
Oyandım

bağrımın odundan qalxıb
məni boğan tüstümə –
qan-tər içində,
Bilmədim
          harda durmuşdun
qaranlıqda itər içində,
Dəniz sahilində,
ya doğma Dəmirçilərdə –
"Mağal bulağ"ın başında,
yoxsa
məhləmizdə
bizim evlə üzbəüz –
bir ün çatımında,
düz
qarşıbaxarında,
ləm axan,
aramızda bulanıq Araza dönmüş
arxın qırağında,
Gəncliyin dəliqanlı,
vurölüm çağında...
Elə o vaxtdan
dolaşıram insanlar arasında
itiyini gəzənlər kimi,
Axtarıram gözübağlı,
dili lal,
səsi batmış,
Gözləri kəhkəşanda –
saman yolunda
üzü Kəbəyə doğru gedib
yola ümid düzənlər kimi –
Gedirəm ömür yolunu,
üstümə səpilib,
məni yandıran
bir parç suyun
sorağında...

---

*Qarı, qəddar, kinli

# SABAHA ŞATANA KİMİ

Gəlirsən
                gəl,
yuxuma gecə,
İstəsən necə –
Ağ duman içində
al geyimdə sən,
yanımdan səssizcə
keçməyin nədi?..
Bürünüb nazı-qəmzəyə
                göz vurub,
uçmağın nədi?
Yuxuma gəlməyin
ayıb ki deyil...
Bir damcı, bir qətrə
sevincdən göz yaşı
hayıf ki deyil...
Gül üzünə yaraşıq,
hürkəcək,
gizli təbəssümlə
gülməyin nədi?
Ümid işartısı
saçıb qəlbimə,
Qeyb olub bir anda
özünü gözümdən
silməyin nədi?...
Gəlməyin
                ürəyimcə,
Qalmağın –
uzanaydı anlar
ta mənzilə –
kamı tamaha
qatana kimi...
Axşamdan sabaha
çatana kimi...

## OLA

Sevmək nədi, qınamaq nə?
Inam nədi, sınamaq nə?
Həsrət nədi, sanamaq nə? –
Bir gün ola, ya il ola.

Daşdan keçər, şəksiz, sözün,
Qəti, çəkəçəksiz sözün,
Saf, tərtəmiz, çirksiz sözün –
Deyən qələm, ya dil ola.

Yaxın durub, gen süzürsən,
Döz deyirsən, can üzürsən,
Yerli-yersiz suç gəzirsən –
Get deyirsən, kaş, qal ola.

Ayaq yalın, yolun qanqal,
Mənzil uzaq, izim – yan, qal,
Sinəm üstə çatan tonqal –
Kaş göz ola, ya əl ola.

Eh! Həsrətin qarlı qışdı,
Can üzücü bir təlaşdı,
Dolansa boynuma, xoşdu,
Ya hörüklər, ya qol ola.

## GƏLDİM

Seçdim, sevdim yüzdən kimi –
Sındı şüş -- sirr tilsimi,
Üç almanın biri kimi,
Nağıl dedim, bizə gəldin.

Yatdın bihuş, div yuxulu,
Kim dedi ki, sev yuxulu?
Həyat-baca, ev yuxulu –
Düşdün köhnə izə gəldin.

Nağıldımı, dastandımı?
Gerçəkdimi, qəsdəndimi?
Şamamalı bostandımı? –
Gəldin, üz-üzə gəldin.

Anan taxan öz muncuğun, –
Talismanın, gözmuncuğun, –
Harda düşdü, qız, muncuğun?
Bədnəzərli gözə gəldin.

## FÜRSƏTƏ BAX, FÜRSƏTƏ

Tərəddüddən keçmişəm,
Səndə səni seçmişəm,
Cazibənə düşmüşəm –
Rüsxətə bax, rüsxətə.

Sən! – Gülə bax! Tərdimi?
Heç sənsiz bitərdimi?
Bir ömrə yetərdimi? –
Həsrətə bax, həsrətə.

Tökmə zülfü üzünə,
Baxa bilməm gözünə,
Pörtən yanaq özü nə? –
Ismətə bax, ismətə.

Döymə, qapım açılmaz,
Zəmim vağam, biçilməz,
Quyum şordu, içilməz –
Qismətə bax, qismətə.

Gəlinmisən, qarısan? –
Od, alovsan yarı sən,
Yarı quzey qarısan –
Xislətə bax, xislətə.

Günəş doğur, üfüq qan,
Zülmət qaçır, qovur dan,
Oyan! Qalx, bir hovurdan –
Fürsətə bax, fürsətə.

Mart. 1967.

## VERMƏZ

Bir də görsəm səni heyrət duymaram,
Təzəd\ən doğulsan, sənə uymaram,
Mən sevən, səni mən sənə qıymaram –
Mövlam butasını hər kəsə verməz.

Butalı röyamı nazında gördüm,
Sevgili çöhrəndə, üzündə gördüm,
”Sevirəm”sözünü gözündə gördüm,
Gözlərin saflığı hər nəsə verməz.

Gördüyüm doğrudur, yalan yozmuram,
Yox yerdən canımı belə üzmürəm,
Sənsiz günlərimi ömrə yazmıram,
Insan qürurunu hər hissə v erməz.

Bu sevgi damarda qanıma keçib,
Hopub varlığıma, sanıma keçib,
Yazılıb adıma,şanıma keçib,
Xəcalət gətirməz, vəsvəsə verməz.

1968

## DÖNƏ

Öhdəsindən gələ biləm,
Xəyalımdan silə biləm,
Sənli gündə ölə biləm,
O illərim daşa dönə.

Yaddaş itə, yaddan çıxa,
Külə dönə, oddan çıxa,

Mən çağıran addan çıxa,
Uça gedə, quşa dönə.

Tanımayam, kimsən?- deyəm,
Şirin, acı tamsan- deyəm,
Ağlı başda kəmsən- deyəm,
Gedən ağlı başa dönə.

Unutmağa gücüm çata,
Almamağa vecim çata,
Qəzəbimə acım çata,
Nifrət süzə, yaşa dönə.

## MƏHƏBBƏT

Məhəbbət qibtədir, səcdədir demə,
Məhəbbət heyrətdir, heyranlıqdı da.
Bilir bunu ancaq qismətdir kimə,
Özündə itmədir, giryanlıqdı da.

Bir idrak hökmüdür, açılmaz düstur,
Haqqa aparan yol, sirr barigahı...
Ömürlük var olan sevimli dostdur,
Zamanı, məkanı Allah dərgahı.

Yatmağı xoşlamır, bihuş həmişə,
Dünya gözlərində bir çürük çeviz.
Möhnətı bülənddir göylərə, ərşə,
Ruhu bir mələkdir, cövhəri təmiz.

Xilqəti əzəldən nuri təcəlla,
Günəş tək qüdrəti tükənən deyil.
Yaracaq zülməti bircə macalla,
Ölüb qəhr olsa da çəkinən deyil.

Məhəbbət təslimdir – özün özünə,
Tapınsan özünə, özündə itsən...

Məhəbbət təsdiqdir – düş haqq izinə,
Kəramət əhlisən məqama yetsən.

## YERİNƏ

Gəl, çat dedim,dala qaldın,
"Ya qismət"li ilə qaldın,
Yoxsa bilə- bilə qaldın
Qəsd elədin naz yerinə.

Möhnətinlə üzüb yordun,
Qürurumu əzib qırdın,
Sığal çəkib, bəzək vurdum,
Astar  geydin üz yerinə.

Bir yğursuz yönə gəldin,
Nə sırıqdı mənə gəldin
Itib batdın, yenə gəldin,
Kimi qoydun öz yerinə?

Qəhət oldu söz başına –
Dilin bəla öz başına,
Heş vurdunmu, qlz,başına?
Qış istədin yaz yerinə.
Gözəl olan sözlüolar,
Şirin dilli, duzlu olar,
Bibər səpməz duz yerinə.

## NƏ YAXŞI Kİ  SEVDİN  MƏNİ

Nə taxşı ki gördün m\əni
Nə yaxşı ki sevdin məni,
Görmək azdır, duydun məni,
Nə yaxşı ki sevdin məni.

Atılmışı kim sevərdi,
Olsa belə, kəm sevərdi.
Ömrə məhkum qəm sevərdi –
Nə yaxşı ki sevdin məni.

Ərköyünü nazladın da,
Nazladıqca sızladın da,
Sızıltını duzladın da –
Nə yaxşı ki sevdin məni.

## SEVƏ BİLMƏK SƏADƏTİ
*(Xan Qazan oğlu Turala)*

Sevəcəksən,
bir gün,
Od düşəcək
ürəyinin başına.
Yanacaqsan
Için-için,
korun-korun –
Nə tüstün çıxacaq,
nə alovun dilimlənəcək,
Nə külün qalacaq,
nə qorun...
Elə hey
möhtaclıq duyacaqsan
blr xoş təbəssümün,
şirin sözün
məlhəm umarlığına,
Özünü
qıymağa şad olacaqsan
canından artığına –
odlu, oğrun,
lal baxışların
şıdırğı qubarlığına –
mübhəm duyarlığına...
Sevəcəksən
kol dibiniVətən bilib
qarda, sazaqda
boynubsükük bənövşənin
görünmək
eşqini

duya bilsən...
Sevəcəksən,
Aylı gecələrdə,
qəribAnadil səsində
unudub özünü,
sevdiyinin xofu dolaşan
buıaq başında,
saman yolu boyunca
ulduzları
saya bilsən...

II

Sevə bilsən,
duyacaqsan
gözlərin aydınlığında,
büllur ayazlığında,
baxışların saflığında,
ümidlərin
görüntü dayazlığında
sevginin
məşəqqət şirinliyi,
etirafsız məhəbbətin
dibsiz dərinliyi
kövrək qanadına
aldırar səni,
Yerdən
uzaq kəhkəşan yollarına
qaldırar səni.
Xan Qazanın
Sevgiyə layiq yaranmış
təkcə,
bircə,
madar oğlu,
İsa Məsih kimi
Tanrı nurundan
Süzülmüş
qəzavü-qədər oğlu,
Sevə bilmək səadəti
qismət olmur hər kəsə:

nə torpaqdan yaranmış
hər Adəm oğlu Adəmə,
nə də oddan yaranmış
hət İblis oğlu İblisə...

## GÖR ÖZÜNÜ, ÇAT HAVIMA

Hayla məni,haya çatım,
Gecəni gündüzə qatım...
Ürəyimə güzgü tutum,
Gör özünü, çat habıma.

Dağdan endir düzə məni,
Apar, çıxar yaza məni,
Qıyma, həsrət üzə məni –
Gör özünü,çat havıma.

Canım məndə əmanətin,
Yoxla, çatar hidayətin.
Axtar, tapar kəramətin –
Gör özünü, çat habıma.

Həsrət yeli əsər,dinməz,
Can canından küsər,sınmaz,
Göz yollarda susar, dönməz –
Gör özünü, çat havıma.

Qəlbin daşdı, hissi yoxdu,
Öpdüm daşı, suyu çıxdı,
Yanağını oda yaxdı –
Gör özünü, çat havıma.

## GÖZLƏRİNDİR

Meydan sənin – can almağa,
Baş piyləyən gözlərindir.

Yenilməzdim qul olmağa,
Ram eyləyən gözlərindir.

Bənd-bərəni kəsib duran,
Fürsət tapıb tələ quran,
Illət verib, taqət yoran,
Döz!—söyləyən gözlərindir.

Dərdin canda sirimsəyib,--
Bəd halıma gülümsəyib,
Iradəmi mənimsəyib,
Vaxt əyləyən gözlərindir.

Bəxt düyünü açılarmı?
Haqq qədəri – qaçılarmı?
Məğryr, fağır seçilərmi? –
Qürur əyən gözlərindir.

## KİMİ

Balsan, qarsan – xarlanmısan,
Sevgi sərvət!--Varlanmısan,
Necə şirin barlanmısan –
Arzulara qonan kimi...

Qaynayırsan, bulaqsanmı?!
Dolaşırsan, soraqsanmı?
Öz-özünə iraqsanmı?--
Şam özgəyə yanan kimi.

Dərya içi gövhərsənmi?!!
Yetər-yetik bəhərsənmi?!
Zülmət qovan səhərsənmi?!!--
Haqqa müştaq zaman kimi.

Qız, belini kim qurşadı?
Naşı tutdu, xam qurşadı –

Bu əndazə quruşadı,
Təki ol sən anan kimi.
*2002.*

## YETMİR

Ağ dumana bürünürsən,
Al qırmızı görünürsən,
Kimə axı yarınırsan, --
Əlim çatmır, ünüm yetmir,
Ömrə dayaq günüm yetmir.

Dağdan aşdın, qürubsanmı?
Yoxsa qəsdə durubsanmı?
Özgə büsat qurubsanmı? –
Əlim çatmır, ünüm yetmir,
Ömrə dayaq günüm yetmir.

Gecəm diri, dan sökülür,
Dünya boyda nur tökülür,
Ulduzlar bir-bir əkilir –
Əlim çatmır, ünüm yetmir,
Ömrə dayaq günüm yetmir.

## ÖZÜNDƏN ÖZÜNƏ GİLEY

Dedim:
--Qanadlanıb uçaram,
Geniş meydan açaram –
Gedərəm dünyanın o başına –
Gündoğandan günbatana
arzuya, kama çatana kimi
Mən səninlə qoşa –
                    verib qəlbimi
şəksiz, tərəddüdsüz...
Sürünərəm
                    yollar boyu

usanmadan, doyunca,
Hər addımin, hər mənzilin
boyunca,
Məzara getsən belə --
Yaraşmadığımı bilə-bilə
yetkinliyə, yaşa –
Təhriksiz, minnətsiz...
Bir kəlmə:
--Mən də-- demək əvəzinə,
Sənsə
Soyuqqanlı, heyrətsiz,
eşqinlə alışan
gözlərimə baxmadan –
Alov püskürən qaynarlığa
Sən özünü yaxmadan,
sakitcə
mənə alxış eylədin –
Bilməzlikdən, ya qəsdən
sarsıdıb sən məni
“qarğış” eylədin:
-- Çox sağ ol –dedin.
Sanki
yanar ocaq üstə qoyub,
salıb dar bir tavaya:
--Əri, sən dağ ol – dedin,
təzə nehrə yağıtək...
Elə bildim
ruhumu çarmıxa çəkərək
etinasız, yad bir adam üçün
təşəkkürə
--Qonaq ol- dedin,
--Çox sağ ol – dedin.

Könül yıxan suç eləsəm,
Varı, qalı heç eləsəm,
Bu dünyadan köç eləsəm,
Yüz ömürlük qəmim qalar...

(Şəkil) Tahirə və mən

## YENI DOĞULMUŞ UŞAQLARA

Böyü, mənim çocuq balam!
Atası, babası
giryan olmuş,
ehtiyac ucbatından
viran olmuş
öz elindən, elatından—
yad ellərə
didərgin düşmüş.
Onun üçün də
az doğulmuş, azacıq balam!
Böyü, mənim çocuq balam!
Əsir düşən, şəhid olan
torpaqların
daş sükutlu kilidi
pas atsa belə,
bu əsrdən gələn əsrə
naləsi, fəryadı
qalıb çatsa belə,
qeyrətlə böyü,
düşmənə hiddət, nifrətlə böyü,
mənim çocuq balam!
Böyü,
qisas yerdə qalmasın,
əsir olan,
yesir olan

Əliyarlar,
Nadirlər Vətəni
darda qalmasın.
Bu günkü başıpozuq,
Harınlaşan, zənginləşən
Mənən yoxsul, yazıq,
çəkəçək salan
siyasətbazlara
nifrət damğası,
qəzəb, hiddət damğası,
lənət damğası
bas!
Böyü, ucal!
Qalmasın qiyamətə qisas,
Öc al!

## İSTƏRİK

Qismət alan, qismət yazan gileyli,
Yuxu görən, yuxu yozan gileyli,
Rəhmət uman, qəbir qazan gileyli,
Bəs dünyanı nədən belə istərik?

Həsirət odu hər yanğıdan betərdi,
Ürəyimcə, doyuncadı, yetərdi,
Başqa yara sağalardı, itərdi,
Bu sevgidə yara hələ istərik.

Yaman düşdük dolaşığa, düyünə
Rüsvay eşqin çalğısı nə, neyi nə,
Kəfən biçdik alovlardan əyinə,
Bürünmədik çitə, tülə-- istərik.

Əzəl torpaq, axır torpaq—zəruri,
Əzəl çılpaq, axır çılpaq—zəruri.
Adəm- Həvva- nəfsi sarpmaq—zəruri
Zərurəti bilə- bilə istərik.

## KİMƏ SÖZÜ NƏ ?

Halallığı haram görə, tərs deyə,
Haqq qapısı açıq vaxtı nəhs deyə,
Belə yazıq yaranışa, xəstəyə
Qənim ola öz əməli özünə.

Şər deyəni şərə düşə, dad çəkə,
Rəbb üstünə kül ələyə, od tökə,
Xoşnəzərdən hifz eyləyə, sədd çəkə,
Haqdan enə, ağ su gələ gözünə.

Cahillərdir bu dünyanın ləkəsi,
Haram olub udulmayan tikəsi.
Hatəm kimi sınıq könlü tikəsi,-
Haqq yolunun yoxuşu nə, düzü nə.

Xoşbəxt o kəs—mürşidindən pay ala,
Öz vaxtında tam qəflətdən ayıla,
Doğru yolda yaxşılardan sayıla,
Düşən ola arxasınca izinə.

Paxıllıq insanı kafir eyləyər,
Vurub çıxar üzə, kifir eyləyər,
Xalqdan uzaq zalar, səfil eyləyər,
Günahkar özüdür, kimə sözü nə?

## DAŞ YAĞIŞLARI

“Pəncərədən daş gəlir”,
Dəyir başa, xoş gəlir.
Gözlərimə qan damır,
Elə bilir yaş gəlir.

Gülə-- gülə daş atır,
Gözübağlı tuş atır...
Gah can alır, öldürür,
Gah dirildir, yaşadır.

Bu pəncərə gen ola
Hər tərəfdə min ola.
Daş yağışlar tökülə
Yar sevinə, şən ola.

## ÇOXMU QALACAQ?

Ürəkdə söz yanğısı,
Bükülən diz yanğısı,
Fələkdə biz yanğısı
Hələ çoxmu qalacaq?!

Umanlar küsüb gedir,
Qananlar susub gedir,
Döyüşə kasıb gedir,
Belə çoxmu qalacaq?!

Bəd gəlib, yaman çöküb,
Ümidsiz güman çöküb,
Şər başa duman çöküb,
Yelə çoxmu qalacaq?!

Namərdlər seçən yolda.
Dost dostdan qaçan yolda,
Kişilər keçən yolda
Tələ çoxmu qalacaq?!

Can dedik, naz anladıq,
Yalvardıq, "döz" anladıq,
Biz dedik, biz anladıq,
Nalə çoxmu qalacaq?

## ÇƏKMİŞƏM

Qismətə bax, gümanlara inandım,
Zalımlarda  amanlara inandım,
Haqq gələsi zamanlara inandım,
Hər çaşanda peşmançılıq çəkmişəm.

Öz yolunu çaşır naşı, düz gedir,
Avand olmur, kamal əhli yüz gedir...
Barışığa tikə çörək, duz gedir,
Hədd aşanda peşmançılıq çəkmişəm.

Ağlı olan bəhsə çəkməz nadanı,
Tədbir ilə sovuşdurar qadanı.
Görəndə mən ağır təhqir udanı,
Qan coşanda peşmançılıq çəkmişəm.

And içmişəm çox  səbirli dolanım,
Dözəsiyəm, lap odlara qalanım.
Qəsdə durur  canı candan alanım,
Daşlaşanda peşmançılıq çəkmişəm.

Xəlvət, aşkar çox qol- boyun gəzmişəm,
Ulduz üzüb saçlarına düzmüşəm,
Cavanlıqda hər  nazına dözmüşəm,
Yaşlaşanda peşmançılıq çəkmişəm.

## ÖMÜR GƏLƏ, GÜN KECƏ

Çağırmısan, dinmişəm,
Ucalıqdan enmişəm,
Səbr atına minmişəm --
Mənzil uzaq, yol haça.

Qismət payı tabaqda,
Aparırlar qabaqda,

Naşı tale soraqda –
Nə araya, nə seçə.

Solaxayı daş atdı,
Daş bağrımı qanatdı.
Mən piyada, o atlı –
Kim yeriyə, kim qaça.

Günah guya daşdadı,
Atan atdı, tuşdadı,
Buta alan huşdadı –
Kim ayılda, kim içə.

Müjdə umdum--sən gəldin
Iç dünyama tən gəldin,
Qaibanə ün gəldin –
Kim eşidə, kim seçə?

Dağdan endir düzə sən,
Saxla məni yaza sən,
Tanrı, təzdən yazasan,
Ömür gələ, gün keçə.

## MƏNİ

Qurtarıbdı sözüm- sovum,
Çıxdı əldən hürkək ovum,
Sürəkləyim yüz də qovum,
Çaş- baş saldı bərə məni.

Çox dolandım dağı, daşı,
Töyşümədim addımbaşı,
Dolaylarda oldum naşı,
Qəfil uddu dərə məni.

Yaz ömrümə əsdi sazaq,
Fidanları kəsdi sazaq,
Uğur məndən oldu uzaq,
Fərsiz saydı hərə məni.

Bu dünyaya düzən tapın,
Gor evini qazan  tapın,
Bu yuxunu yozan  tapın,
Verməyin siz  girə məni.

Dilin yansın, yazıq demə,
Ağlı, başı pozuq demə,
Bir çürükcə qozuq, demə--
Çıxartma  sən kirə məni.

Alsa məndən  qalmalını,
Batil etsə  qılmalını,
Qeybə  çəksə olmalını,
Daş-divara hörə məni.

Inlər, sızlar  gizli bir səs,
Sənsiz  qalmaz ömrə həvəs,
Gülər mənə nadan, nakəs
Vurma, gülüm, yerə məni.

Səndə  tapdım mən özümü,
Il həsrətə  bir dözümü.
Qıyma sına  sən  əzmimi,
Bürümə  gəl  terə* məni.

*.04. 2020*

---

**böyük xurcun*

## XƏBƏRSİZ  BƏXTİMİZDƏN

Qalx  dedik, yola çıxdıq,
Sağ dedik, sola çıxdıq.
Nə ola—ola, çıxdıq
Xəbərsiz  bəxtimizdən.

Daş düşdü, başa dəydi,
Tək gəldi, qoşa dəydi,
Nə dəydi huşa dəydi,
Xəbərsiz bəxtimizdən.

Qar yağdı, qopdu boran,
Diz çökdü haqqı soran,
Nə çoxdu bizi vuran,
Xəbərsiz bəxtimizdən.

Quşu gəl quşunan tut,
Dərk edən başınan tut,
Him-cimlə, xoşunan tut,
Xəbərsiz bəxtimizdən.

## QALAR

Buxarlanıb çəkilərəm,
Dolu olub tökülərəm,
Buğda kimi əkilərəm,
Biçilmərəm, zəmim qalar.

Könül yıxan suç eləsəm,
Varı, qalı heç eləsəm,
Bu dünyadan köç eləsəm,
Yüz ömürlük qəmim qalar.

Çözüldükcə çözülmüşəm,
Süzüldükcə süzülmüşəm,
Haqq yoluna düzəlmişəm,
Məndən uzaq kimim qalar.

Dağ əridən kinim olan,
Söz eşidən minim olan,
Düşmənimə qənim olan,
Zilim yansa bəmim qalar.

Arzum, yuxum çin olası,
Bir ömrə tay gün olası,

Qalaqlanıb min olası
Yenə köküm, himim qalar.

Ərşad yaşar illər gəzib,
El arxalı ellər gəzib,
Nəsil-nəsil dillər gəzib,
Bir şərəfli dəmim qalar.

*28.04.2000*

## EL İÇİNDƏ

Babal yudun, şeytan, yenə,
Xiffət oldu adım sənə,
Xatircəm ol dönə- dönə.
Üzüm ağdır el içində.

Nəpək qarı girıb dona,
Qara yaxdı ona buna...
Ağzı yava hər nadana
Fikir vermə, gül içində.

Ufaq eşqi möhkəm qoru,
Təşviş etmə sən xuduru.
Aydan arı, sudan duru
Görünürəm əl içində.

Qubar tutar axşam, səhər,
Səbrim itər, möhnət üzər,
Can acısı- zəqqum, zəhər,
Ruh durumu bal içində.

Bülbül oxur, yazdı, nədi?
Qışı yaza yozdu, nədi?
Eşq atəşi sözdü, nədi?
Yan da, sön də, qal içində.

Üzdə nurdu qəlbin odu,
Zövqi-səfa eşqin dadı...

Gözəllərin təmiz adı
Gül qoxuyar gül içində.

*16.05.2000*

## BİLMƏDİM

Açılmaz ürəyin daş vərəqləri,
Oxunmaz yazılan xoş vərəqləri,
Dağılmış yollara huş vərəqləri
Itirdim özümü harda bilmədim.

Doğulan arzular sözümdə qaldı,
Əsrarlı, pərvazlı gözümdə qaldı,
Səpildi ömrümə, izimdə daldı
Bəlkə də çin olan var da, bilmədim.

Bağlanan qapımı sim- sim açmadı,
Göz vurdum, dil tökdüm, him-cim açmadı,
Yalvardım, and içdim heç kim açmadı,
Halıma qımışıb yar da, bilmədim.

## DÖNÜB

Tanrı bizdən üz döndərib,
Dönüb yaman, haşa dönüb.
Kimə deyək dərdimizi?
Dərd anlayan daşa dönüb.

Görən gözlər kor olubdu,
Qulaqları kar olubdu,
Ürəkləri dar olubdu,
Dostlar ağlı çaşa dönüb.

Kimsə baxmır üzümüzə,
Diqqət vermir sözümüzə,
Yalan soxur gözümüzə
Qeyri- kafi beşə dönüb.

Yanma, onsuz sönəcəksən,
Qalxma, bir  gün enəcəksən,
Keçmişinə dönəcəksən,
Dönsən deyək: quşa dönüb.

## DÖRDLÜKLƏR

Daşı daşa basdılar,
Qısnadılar, qısdılar.
Çoxu dedi:-- Yalandı,
Öz qövmüdü, dostdular.

Şər atıb sən üstümə,
Yaman dəydin şəstimə,
Qarğımağa qıymıram,
Boğuluram  tüstümə.

Ocaq  daşı ürəyim,
Palıd taxta kürəyim,
Mənə inam  itəndən,
Uçdu damım, dirəyim.

Yoxdu qanad uçmağa,
Dar ağacı-- qucmağa.
Hakim, məhkum özüməm,
Lüzum yoxdu  qaçmağa.

Çəltik quşdan xəbərsiz,
Ağıl huşdan xəbərsiz,
Kölgə olub sürünür,
Ürək yaşdan  xəbərsiz.

Güney düşdü qovğaya,
Kəklik  qondu davlaya*,
Nişan aldı, qıymadı,

Gözəlliyi  ovlaya.
--------------------------
**Kəklik ovunda ovçuların istifadə etdiyi*
*al-əlvan rəngli quramalardan düzəlmiş parça*

* * *

Haray, özü yolda qalan,
Gedən, izi yolda qalan,
Bilsə də ki, dönməyəcək,
Yenə gözü yolda qalan.

Qara çökdü ağ üstünə,
Dağ çəkildi dağ üstünə,
Dərdi gömdü, fəryad bitdi,
Şivən saldı sağ üstünə.

Güldü bizə həsəd çəkən.
Bizi güdən, pəsənd çəkən.
Alxış umduq, qara tökdü,
Yolumuza nəhs sədd çəkən.

Yarımasın yara deyən,
Ağ üzünə  qara  deyən.
Ağlı varsa inanmasın,
Cəhənnəmə, gora deyən.

Bitən zəmim biçilmədi,
Suçum azdı, keçilmədi.
Yağ da, şor da bir sayıldı
Yaxşı pisdən seçilmədi.

Mərdim, səni kim apardı?
Mizrab dəydi, sim apardı.
Harınlaşdı, həris oldu,
Çox içində kəm apardı.

Qızılgülü dərmə hələ,
Tərdi, dərsən, sərmə hələ,
Tərsə yozub tər sözünü,

Tərs üzünü görmə hələ.

Yıxdı, yazıq, səni tamah,
Aldı səndən məni tamah,
Tamahlandın, artdı iştah,
Tamah üstə günü tamah.

Çalış yara yardan demə,
Xəstə gülə xardan demə,
Mərdi mərddən  seçmək üçün,
Yoxdan istə, vardan demə.

Küp qarısı küpə girdi,
Düzəngahı təpə gördü,
Haqq deyəni haqq yolunda,
Əyri durdu, çəlpə gördü.

## KİM AĞLAYA, KİM DƏ SUSA

Hardan doldu pak qəlbinə,
Hardan sənin bu vəsvəsə?
Qaldın necə yaman günə,
Nökər oldun sən iblisə.

Heç tükənməz məkrin, kinin,
Heç bilinməz qiblən, dinin.
Imdadına yetməz sənin
Molla, keşiş, məscid, kilsə.

Için- icin üzülərsən,
Ipə- sapa düzülərsən,
Ayaqlanar, əzilərsən,
Tapdaq olub nəhsə, pisə.

Kimsə sənə deməz yazıq,

Dolanarsan başıpozuq.
Gorun hazır, qəbrin qazıq,
Kim ağlaya, kim də susa.

## YALTAQ HAQQINDA"ELEGİYA"

Rəis ürəyindən keçən istəyi,
Dodağa çatmamış sözdən almısan.
Oyaqlıq, duyuqluq keçib qanına,
Yüz hiylə işlədib qazdan almısan.

Alıcı tərlansan müdir yanında,
Vur desə, yumruğun kərən sındırar.
Yarınmaq bəslənir yağlı canında,
Iblissən, şeytansan mələk donunda.

Töhmətsən, ləkəsən insan adına,
Əcdadın meymundan irsən qalıbdı.
Bu mərəz keçməyə qohum, yadına –
Əndişə canımı yaman alıbdı.

Xəbislik canında iylənib yaman,
Ətrafın burnunu tutub yaşayır.
Qalınlıq kök atıb, piylənib yaman,
Namusu, qeyrəti atıb, yaşayır.

Sənə meydan verən insana yazıq!
Tarixin qarğışı tutacaq bir gun...
Hayıf ki, meyl edib hər başı pozuq,
Nəsillik günaha batacaq bir gün.

Kaş uca tutula şərəf, ləyaqət,
Bütün yer üzündə bəşər olana.
Qəlbində məhəbbət, işdə sədaqət
Insanlıq ömrünü yaşar olana...

## INŞALLAH

Türkün hünəri – türkün gümanı,
Türkün qüdrəti – türkün imanı,
Türkün dövranı, türkün zamanı
Yenə görsənir,gələr, inşallah!

Tapın özünə, qayıt özünə,
Sapla nizəni düşmən gözünə.
Vurub üzbəüz, düzü-düzünə,
Məkri, hiyləni bilər, inşallah!

Batı birliyi – hiylə yuvası,
Işdə qisasdır sivil davası,
Dönüb zəhərə abı – havası,
Nəmli gözünü silər, inşallah!

## BƏŞƏRİN DƏRDİ

Hardandır ögeylik, doğmalıq hardan?
Hardandır yabanlıq, qəriblik hardan?
Hardandır quldurluq, yağmalıq hardan?
Hardandır xainlik, səliblik hardan?

Niyə qənim olub, qan tökən olub,
Adəm övladları biri-birinə?
Xəbislik, məkrlik, kin əkən olub,
Məhəbbət yerinə, sevgi yerinə...

Əzəldən bəşərə bəla gətirdi,
Şeytanın əməli, Adəmin nəfsi.
Insanda ən böyük qüdrət itirdi,
Idraka güc gələn bir dəmin nəfsi...

04.02.2001

## XOŞ AN ÜÇÜN

Ey An!
Dayan!
Həzz almaq istəyirəm mən,
Səninlə xoşbəxtliyimdən.
Höte

Dağı yaradan apar, yan!
Ağı qaradan qopar, qan!
Tabı çarədən tapar can –
Əl açmışam xoş An üçün.

Böhtan işə əl basmaram,
Qoltuqlara baş qısmaram,
Ölüb qalsam – mən susmaram –
Dil açmışam xoş An üçün.

Kül altında qor olmuşam,
Ölən eşqə gor olmuşam,
Yoxdan gəlib var olmuşam –
Yol açmışam xoş An üçün.

Çox vurğunam ala, ağa,
Boz çalmalı yaşıl dağa,
Rövnəq verib bağça-bağa
Gül açmışam xoş An üçün.

Saytal, sağlam, sağ günləri –
Al ömürdən yığ günləri,
Tor-top elə ağ günləri –
Il seçmişəm xoş An üçün.

## OLMUŞAM

Çıxma yolum  üstünə,
Bəxtim durar qəsdinə...
Qəlbimdəki büstünə,
Öyrəncəli olmuşam.

Nə məkan gəz, nə radə,
Yoxdur məndə iradə.
Sirr sözünü nəbadə,
Söyləncəli olmuşam.

Dəymə mətə daşıma,
Xələl gələr huşuma.
Tor- top olun başıma
əyləncəli olmuşam.

Yad olmuşam, ta yadam,
Ta alınmır bir qadam.
Sual olub hər nidam,
Bilməcəli olmuşam.

1969

## DUYĞU TƏRANƏLƏRI

Yaş tökdün gilə- gilə,
Can aldın gülə- gülə.
Yollara qurban olum,
Aparsın yarım gilə.

Ay qalxdı aya döndü,
Həkətə, haya döndü.
Ağladım qərib eldə,
Göz yaşım çaya döndü.

Dindirdin elə-belə,
Dərdimi bilə-bilə,
Çaşdırır səni şöhrət,
Bəsirət kordu hələ.

Xan oldum, xan demədin,

Çoruma can demədin.
Çül əkib, gül becərdik,
Bülbül ol, qon,-- demədin.

Nə gəldi saxta yazdın,
Yol  azdın, baxta yazdın,
Tapındın kor şeytana,
Zamana, vaxta yazdın.

Çağırdım, hay vermədin,
Uçurdum, huy vermədin.
Əl açdım, çox yalvardım,
Diləndim, pay vermədin.

Hər təzə yaza qaldı,
Geymədik təzə qaldı,
El yaddır öz dərdinə,
Kor olmaq bizə qaldı.

Tək uçduq, qoşa qonduq,
Demə ki, haşa qonduq.
Sən mənə dövlət quşu,
Mən sənə--başa qonduq.

Bədnəzər göz apardı,
Tərs baxdı, düz apardı.
Ağlımı başdan alıb,
Ovsunlu söz apardı.

Yorğunu yol incidər,
Bülbülü gül incidər.
Şairi dara çəkər,
Hərzə söz, dil incidər.

Gör məni Haça yalda*,
Qurban kəs  qoçu yolda.
Qənimdir bəxtim mənə,

Qorxuram uça yol da.

Bəxt quşu bəndə düşdü,
Fürsəti fəndə düşdü.

---

**yer adıdır.*

Kələyi şeytan qurdu,
Tələyə bəndə düşdü.

Bəxt quşu bəndə düşdü,
Fürsəti fəndə düşdü.
Kələyi şeytan qurdu,
Tələyə bəndə düşdü.

Səsin batıb, dilin laldır,
Yoxsa ağlın hələ kaldır?
Nə çağırır, nə qovursan,
Bu nə ofsun, bu nə faldır?

Yol gedirik, uzun ola,
Xoş rəftarın,, sözün ola.
Oda düşən qəlbə məlhəm,
Kaş üstümdə gözün ola.

Nazlanırsan, naz da yaxşı,
Həddi aşma, az da yaxşı.
Hər nə görsən röyalarda
Mənli, mənsiz yoz da yaxşı.

Arxalan sən el gücünə,
Murad gəzmə dil gücünə.
Söz yükünü duz yükü tək,
Çəkmək olmur bel gücünə.

Bax, şişəyim daşda bitib,
Gecikibdi, qışda bitib.
Rişələnib nəmli gözdə,

Sebgi gülüm yaçda bitib.

Gəlmir dilə ilkin sevgi,
Sonu ağlar gülgün sebgi.
Gah güldürər, gah ağladar,
Ömür boyu hər gün sevgi.

Yüz yeyən xoş, bir deyəndən,
Kərəm umma hər deyəndən.
Gülə-gülə can alan var,
Xata gəlməz çor deyəndən.

Ov gözləmə sən bərəsiz,
Düşər ovun gen ,bərəsiz.
Dağın gabı – ova uğur,
Olsa duman, çən, bərəsiz.

Kitab açıb, fala baxma,
Sağı tutub, sola baxma.
Haqqı çğır, haqq yola düş,
Ta nə ola-ola, baxma.

Damğa çəkdim, zaman yandı,
İnam öldü, güman yandı.
Namərd dostdan imdad umdum,
Kar aşmadı, aman yandı.

Tamah saldın, umsuq oldun,
Sırtıq dedim, sümsük oldun.
Qəflət yuxu tutdu məni,
Gözləmədin, dümsük oldun.

Aldın, apar, qoru, gulüm!
Tyt urvatlı, barı, gülüm!
Tapmaq olmur yaxşı dostu,
Canbirqəlbdə yarı, gülüm!

Yatmamışam, oyağam mən,
Büdrəyənə dayağam mən,

Əzabkeşə mürgü, yuxu,
Yorulana ayağam mən.

Cığır açdıq, haça qaldı,
Dünya fani, heçə qaldı.
Ha topladıq, ha yığdıqsa,
Çılın- çılpaq köçə qaldı.

Demə qismət hara getsin,
Yaz dərdini yara getsin.
Can qurtarsın birdəfəlik,
Qoy öldürsün, gora getsin.

Zinət vurma başdaşına
Gəlmək üçün el xoşuna.
Ər namını çəkən gəlin,
Ərə getməz qardaşına.

Uçdu komam, söndü ocaq,
Oba dərdim qucaq- qucaq.
Qoy bərq vursun dünya malı,
Kim qapsıyıb, kim tutacaq?

Mərdi qovdun, namərd oldu,
Bu da mərdə bir dərd oldu.
Asi düşdü, qorxu çəkdi
Göz böyüdü, göz dörd oldu.

Buxovları açın qoldan,
Vətən darda, xilas "quldan".
Millət bezib, can boğazda,
Didişmədən, qeylü- qaldan.

Fənd toxuyub, fənd biçən kəs,
Tükü tükdən tək seçən kəs,
Bu milləti hara çəkdin?
Mən! Mən! –deyib, and içən kəs.

Demirsənmi ölmək də var,
Haqq divanı gəlmək də var.
Murdarlanar sür- sümüyün—
Yer üzündən silmək də var.

Atsan itə, it də yeməz,
Güvə dəyməz, bit də yeməz.
Harda itdi namus, qeyrət,
Ürək yeyən dərd də yeməz.

Qeyrətsizlik haracanmış?
Məqsəd, məram oracanmış...
Sənə uyduq, qənim oldun,
Günahımız buracanmış.

Nəfsın odu vurdu səni,
Pörşələdi, sardı səni.
Yükün ağır qeyrət yükü.
Çəkəmmədin, yordu səni.

Qartal mənəm, sərçə mənəm,
Zəif mənəm, nərçə mənəm.
Dəmirçilər boyda sənin,
Gözlərində bircə mənəm.

Sən mənə bax, tək məni gör,
Elə, gülüm, dərk, məni gör.
Kətan gətir, fırça götür,
Yarat məni, çək, məni gör.

Sanma belə qalacaqsan,
Qızılgülsən, solacaqsan.
Ruhun qoşa mələklərlə,
əla, əhsən alacaqsan.

Sorsan məni, qəsdən soruş,
Zildə axtar, pəstdən soruş.
Hər yetənə uyub sorma,

Mərd rəqibdən, dostdan soruş.

Anadil tək hərdən ötdün,
Qeybə çıxdın, qəfil itdin.
Aylı gecə, hər yan sükut,
Mahnı kimi tezcə bitdin.

Allah özü can atmışdır,
Səni gözəl yaratmışdır.
Sonra uyub camalına
Ağıl verməkk unutmuşdur.

## QƏLBİMƏ DOLAN DUYĞULAR

Aldıq düzü əyridən,
Yarımadıq qeyridən.
Həqiqəti dərk etdik,
Haqq yolunda bir sehirdən.

Gəl halımı sor mənim,
Keşiyimdə dur mənim.
Doğma dolan, doğma gəz,
Bəd zəndini qır mənim.

Ağlı başda qocasan,
Tay-tuşundan ucasan.
Haqqa tapın, haqqı gəz,
Yaşamazsan bica sən.

Adəm mələkdən uca,
Mələk fələkdən uca.
Qanad çalan bir sərçə
Neçə tüləkdən uca.

Xumar gözlü çox olar,
Bircəsini yaxalar.
Bəhsə düşər neçəsi,

Yalan, gerçək çoxalar.

Bilmə həmdərd nadanı,
Alsa minbir qadanı.
Hər yetənə sirr versən,
Onda doğma, yad hanı?..

Dil ötdü dişə düşdü,
Qaydasız  işə düşdü.
Göz gördü, ağıl kəsdı,
Bəs niyə haşa düşdü?..

Qurda bax, iy axtarır,
Zurnaçı züy  axtarır.
“Keçi can qayğısında,
Qəssab da piy axtarır”.

Odu qoy kül  altında,
Bülbülü gül  altında,\
Hərcayı gözəl  sevdim,
Zəhəri dil  altında.

Sən məni gəl az qına,
Qalmışam yana—yana
Dost namərd, düşmən qarı.
Baxıram ona, buna.

Hər çiçəyə gül demə.
Can verənə öl demə.
Çürüsən də  dərdindən,
Özü getsə, gəl demə.

Əlimiz  daraqlandı,
Qəlbimiz  çıraqlandı.
Həsrətlə cənnət umduq,
Ruhumuz  Buraqlandı*.

əkməlini yazda  ək,
dağa çıxma, düzdə ək,

haram toxum  cücərməz,
yüz də şumla, yüz də ək.

Sən dəryadan dərinsən,
Gülüm, necə şirinsən.
-------------------------------------
*Məhəmməd(s.ə.s.)peyğəmbərin meraca
gedərkən onu aparan atın  rəmzi adı.*

Gözlərindən od  yağır,
Nədən belə sərinsən?..

Canımı cana qıydım,
Hər şeyi ona qıydım.
Özümü gölə  atdım,
Olmadım  sona, qıydım.

## XOŞDU BİZƏ

Incitsə də ürək çatı,
Gəl açmayaq gizli qatı,
Biz qoruyaq xoş ovqatı,
Ruzi təzə, dilək təzə.

Mənə qarşı kinin hardan?
Alaməzhəb dinin hardan?
Murdar, nacins genin hardan?
Güvəsənmi  qəlbimizə?

Tumurcuqlu budaq gülür,
Qabarılmış torpaq gülür,
Təbəssümlü dodaq gülür,
Uçsun, qonsun üzdən üzə.

Yaranışdan insan əli,

Bekardırsa--demək ölü.
Hər fəsildə zəhmət gülü,
Ətir saçar, xoşdu bizə.

## BƏNÖVŞƏ

*Həkim qizım Nərgiz Bakıdan bir dəstə köklü-köməcli bənövşə alıb gətirmişdi...*

I

Boyhubükük bənövşə!
Qəlbi sökük bənövşə!

Kol dibindən çıxmısan,
Qərib – qərib baxmısan,
Qismətinə qəm düşüb!
"Bizdən sizə kim düşüb?"

Necə tərsən, təzəsən,
Qərib evi bəzə sən.
Gödək, qısa ömürünlə,
Batmış yasa ömrünlə,
Qismətinə qəm düşüb!
"Bizdən sizə kim düşüb?"

Çiçəklərin gözəli,
Göyçəklərin gözəli,
Ləçəklərin zərifdi,
Kim duyubdu, görübdü.
Qismətinə qəm düşüb!
"Bizdən sizə kim düşüb?"

Vürğun olub şeh sənə,
Incə, xəfif meh sənə,
Çiçəkmisən, gülmüsən?
Haçan deyib – gülmüsən?
Qismətinə q1əm düşüb!
"Bizdən sizə kim düşüb?"

Gəzdin, gəldin haranı?
Necə tapdın buranı?
“Arpa yeri”*bilmisən?
“Şay bağı”ndan gəlmisən?
“Qəyə dibi” ağlayır,
“Qəri bağı” dağlayır.
“Qiblə dibi” soraqda,
“Molla bağı” fəraqda –
Gözlərinə nəm düşüb,
Ta yadına kım düşüb?

II

Yuxusuna qar yağan,
Köksünə od , qor yağan,
Öz içindən allanan,
Ətirlənən, güllənən,
Bənövşəni görmüşəm,
Diz çökmüşəm, dərmişəm...

III

Xiffət etdim, qınadım,
Handan – hana tanıdım:
Bizim bağın deyil kı!
“Kosa dağ”ın deyil ki!
Bilməz idik çiçək də,
Bitər, açar dibçəkdə.
Toparlanıb tutular,
Ehtiyaca satılar...
Sardı məni əndişə:
- Bəndə düşüb bənövşə!
Bəndə düşüb bənövşə!

07.03.2001

## Xoşbəxtlik

Xoşbəxtlik nə çiçək, nə də gül deyil,

Qoxlayıb ətrində ömür yapasan.
Xoşbəxtlik nə dəniz, nə də göl deyil,
Baş vurub dərində gövhər tapasan.

Insanı təmizlər səmimi tövbə,
Öz böyüklüyünü biləndən sonra.
Xoşbəxtliyə qalmır zərrəcə şübhə,
Yaşayırsa insan öləndən sonra.
09.03.2001

---

***Dırnaq içində yazılanlar Qubadlı rayonunun Dəmirçilər kəndində ən çox bənövşə bitirən yer adlarıdır**

## SƏPİLƏRƏM

Uçub qaynaq qoru kimi,
Bağrın üstə səpilərəm.
Müşkül sual, yox cavab tək,
Qayğın üstə səpilərəm.

Qış itirsən yazda ara,
Bənövşənin saçın dara,
Qoyma nalə, şivən qura,
Sayğın üstə səpilərəm.

Gülmə mənə ahıl sində,
Demə, azıb yazıq bəndə,
Məlhəm olub yaman gündə,
Ağrın üstə səpilərəm.

Can verməyə heyrət qıya,
Əzmin çata, ürək duya,
Gündüz ilğım, gecə röya,
Duyğun üstə səpilərəm.

## HEYRƏT

Dünyanın sehrinə, sirrinə bir bax,
Üzmə dayazlıqda, dərinə gir, bax.
Bəsirət gözüynən hər şeyi gör, bax,
İnsan tamam möcüzədir, möcüzə.

H.Ə.Hacı Bədəlli.

Çox qəribə bir məxluqdur bu insan,
Həm təklikdir, həm çoxluqdur bu insan.

Gah şir olub, meydan açır varlığa,
Gah bayquşdur, məhkum olur korluğa.

Yetim quzu – mələr qalır yiyəsiz,
Köhlən atdır, boğulmamış, yüyənsiz.

Gövhər alan, tütün satan – satıcı,
Raket tutan, sapand atan – atıcı.

Gah olur ki, susur, bezir zülmətdən,
Gah da olur asi düşür xilqətdən.

Fəza yarır, planetlərə yol açır,
Dağ başında qar üstündə gül açır.

Varlandıqca əzgin, üzgün yaşayır,
Talan olur, doğru, düzgün yaşayır.

Torpaq oğlu yüksək durur mələkdən,
Gah da yazıq – yoluq, zılğa tüləkdən.

Əyildikcə hər yetənə əl açır,
Ucaldıqca məğrurluqdan dil açır.

Həm kölədir, həm azaddır bu insan,
Həm əsrardır, həm təzaddır bu insan...

Qürurluyam, mən Adəmin oğluyam,
Həm tamaham, nəhs bir dəmin oğluyam...

Allah! Allah! Dərgahına gələrəm!
Vətən! Vətən! Gorgahıma gələrəm!

*10.04.2001*

## AĞACI

İçim  duman, çölüm zülmət,
Beşbetərdir məndən millət,

Çoxmu çəkə pozğun halət?
Qurulmamış dar ağacı.

Qurd balası qurddur elə,
Dişı qanlı, nəfsi tələ,
Qurd olmamış, ənik hələ,
Al çomağı, vur ağacı.

Qoysa başa qızıl tacı,
Quduz, qızmış olsa qoçu,
Gizlədərsə ağır suçu
Axtar, ara, sor ağacı.

Ağac var ki, it üçündür,
Qanmaz, nadan, küt üçündür,
Doğramağa ət üçündür,
Çiv düzəldib yar ağaçı.

Ağaç da var əsa, çəlik,
Qızmar vaxtı sıx kölgəlik,
Pir, müqəddəs, xəlifəlik,
Niyyət yeri, yar ağacı.

Barsızdırsa salxım söyüd,
Onu əkib becər, böyüt,
Babalardan qalıb öyüd:
 - Qırma yersiz bir ağacı!

14.04.2001

## HEÇ

Əfsidikcə tozun  çıxdı,
Arsız üzə bozun çıxdı,
Çox suçundan azın çıxdı,
Dünya səni tutarmı heç?
Oxşarını atarmı heç?

Sən əllərdə əyləncəsən,
Sirrin yoxdu, söyləncəsən,
Haqq gözündə teyləncəsən,
Dünya səni tutarmı heç?
Oxşarını atarmı heç?

Için duman, çölün çiskin,
Tüstülüdür yaman əskin.
Gah mütisən, gah da kəskin,
Dünya səni tutarmı heç?
Oxşarını atarmı heç?

Yalan, gerçək – açılası,
Yaxşı pisdən seçiləsi,
Əfv olunsan, keçiləsi,
Dünya səni tutarmı heç?
Oxşarını atarmı heç?

Sən özünsən – teyxasanmı?
Kövrək, yumşaq, yuxasanmı?
Bir gün üzə çıxasanmı?
Dünya  səni tutarmı heç?
Oxşarını  atarmı heç?

15.04.2001

## SƏN

Dahilikdən cahilliyə bir addım,-
Düşüncəsiz, səhv atılan hər addım,
Qüdrətə bax, nələr edir, gör, addım,
Yana – yana köç dünyadan gora sən.

Gözdən olar üzə durub sirtərən,
Günahkarsan, yüz də desən hətərən,
Olmayacaq səni səndən qurtaran,
Hara uçsan, hara qaçsan, hara sən.

Inam itsə, iman getsə qayıtmaz,
Haqdan gələn təmannasız pay itməz.
Paxıl yanar, nifrət, qəzəb soyutmaz,
Ayağından asılsan da dara sən.

Saymayana hünərini bildir sən.
Yetim olub ağlayanı güldür sən,
Kömək durub yıxılanı qaldır sən
Yarıyanda yararlıya yarı sən.

Ömrü kəsər şişman olmaq sonradan,
Baş töhməti, düşman olmaq sonradan,
Fayda verməz peşman olmaq sonradan,
Vur özünü oda, közə, qora sən.

## BU MƏN, BU DA SƏN

Bu daş, bu tərəzi,
bu mən, bu da sən
Yazıq, at mərəzi,
düşmə oda sən...

## BƏRİ BAX

Oynama sözünlə sən,
Güzgüdə özünlə sən.
Danışma, yüz eşitsən,
Görməsən gözünlə sən.

Sənə çox heyrət çəkən
Yaxana düymə tikən,
Urvatsız, ucuz tutan,

Yalvarıb zəhlə tökən.

Baxma ki, az acısan,
Nur saçan, nur tacısan.
Nəğməkar qızı elin,
Al səhər turacısan.

Qız, səni doğan öysün,
Sahibin, ağan öysün.
Böyüsün, igid olsun,
Qoynunda çağan öysün.

Qıyarsan, nə duyarsan?
Nə bilib, nə sayarsan?
Uyuxub kor şeytana,
Haqsıza haqq deyərsən.

## Millət

Açıqdı millətin xəcil qapısı,
Hər şərtə hazırdır bütün yapısı,
Özünü yandırır piltə, lopası –
Düşməni axtarır özündə millət.

Həmişə qalibdi hissi ağlına,
Yolunda əngəldir hirsi ağlına,
Nədəndir güc gəlir tərsi ağlına
Vurandı, tutandı sözündə millət.

Qabağa kim getsə ayaqdan çəkər,
Tutulan, söykənən dayaqdan çəkər,
Çəkər qana – qana, ayıqdan çəkər,
Qazıyar, iz qoymaz izində millət.

Qoçaqdır, igiddir – köməkdir yada,

Yamanca əsirdir şöhrətə, ada.
Odur ki, əksilmir başından qada,
Yıxılır, sürünür düzündə millət.

Sabaha – tarixə ya qismət – deyir,
Yarıdan yarıya nə fürsət – deyir,
Yoxdusa nağdısı, yox rüsxət – deyir,
Gəzdirir tamahı gözündə millət

Acları tox gəzir, toxları acdı,
Yığdıqca harınlar vara möhtacdı –
Nəfsi – xəzinəsi boş başa tacdı,
Itirib taqəti dizində millət.

20.05.2001

## DƏHŞƏT

Həsrətin qəlbimi dağlar içimdə,
Çəkdikcə daha çox çağlar içimdə,
Kimsəsiz tifildir, ağlar içimdə,
Zərrəsi ümmandır, ümmanı dəhşət.

Dilim aciz oldu, tara sığındım,
Pərişan zülfündə tora sığındım,
Ocaq əsirgəndi, qora sığındım,
İtən ümidlərin gümanı dəhşət.

Haqqın dərgahında çoxdu günahım,
Gözümə tuşlanan oxdu günahım,
Yandırdı, səni də yaxdı günahım,
Cəzası bir ömür, amanı dəhşət.

Dünya başdan – başa faldır, aldadır,
Tufanlı dəryada saldır, aldadır,
Cavandır, qocadır, çaldır, aldadır-
Gözəldir! Fürsətsiz zamanı dəhşət.

Çoxlara nəhsdən nəhs, aza alçıdır,
Hiyləgər mələkdir, mahir falçıdır,

Hayçı, harayçıdır, qalmaqalçıdır,
Dostları iblisdir, düşmanı dəhşət.

Həsrətin qəlbimi dağlar içimdə,
Yerdən göyəcəndir, ağlar içimdə,
Çəkdikcə daha çox çağlar içimdə,
Zərrəsi ümmandır, ümmanı dəhşət.

## YUXU İDİ YAXŞI Kİ !

Yuxuda gördüm:
kişi olmusan –
istəyin, arzun belə,
amma kişi olmamışdan hələ
Göründün
saqqallı, bığlı
koppuş əlli, şişman əndamlı,
yağlı...
Neynək...
Qadınlığı yarıtdın,
Gedər – gəlməzə atdın...
Lazım deyilsən
sən artıq heç kimə
qadın kimi.
Nə zəng gəlir qulaqlarına,
nə yalvarış,
nə  də gözləmirsən kimsəni, kimi...
Kim deyər ki,
bu gününə acıma,
ya bu gününlə barış...
Amma  çəkirəm  ürəkdən
bu sualın  xiffətin:
sənə  xala deyənlərin,
sənə bibi deyənlərin,
görürəm göz böyüdən heyrətini.
Nə deyim mən
analıq  ülviyyətinə,
analıq  qüdsiyyətinə

belə  asan, ucuz qıyanlara?..
Bəs nə  deyim
səni lap  yaxından
                    tanıyanlara?..
At   bala, at!
Analığa  ləkə
Bu  yersiz  gümanlarını,
Kişi  olmaq olmur axı,
qəbul  etməklə -
transplantasiyalı
kişi  hormonlarını...

## QORUYUN MƏNİ

Qoruyun məni –
Nə  çəpər çəkin,
nə gözətçi qoyun!
Qoruyun!
Bütləşdirməyin,
kiçiltməyin –
Qəlbimə  toxunub
ruhumu   incitməyin.
  Axı,  lazımam  sizə -
Ölünüzə, dirinizə -
hər  birinizə --
  Hava,  su  kimi,
  atəş  kimi,
Zülmətlərin  qənimi,
təmənnasız  Günəş  kimi
Qoruyun məni –
Haramim, halalım,
Sevincim, məlalım...
Qoruyun  məni –
Hələ mən sizə gərəyəm,
Ümüdəm, arxayam,
bərəkətəm,  çörəyəm...

Qoruyun məni –
nə qədər gec deyil,
Qoruyun,
Doğrusu
bu, o qədər güc deyil.
Qoruyun məni,
qohumum, yadım!..
Qoruyun,
balım, bəlalım! --
təsdiqim, inkarım, sualım!
Qoruyun məni,
umanım, küsənim! –
Qoruyun,
mənə burun- damaq eyləyən,
qədrimi bilməyən,
hər ağrıma can deyən
ərköyünüm – bacım –
şirinim, acım,
üstümdə yarpaq kimi
əsənim!
Qoruyun məni –
sonra
özünüz özünüzə düşman olarsız,
Vallah, peşman olarsız!..
Qoruyun!...
Qoruyun!...
Qoruyun!..

## GÜMAN

Güman!-
Gerçəklə yalan arasında
monolit yox,
sınıq-salxaq körpü,
Gah gerçək,gah yalan
qabarıqlarını,dür-düyünlərini
yonan, cilalayan
mahir usta əlində
rəndə,törpü...

Oğul Yusif haqqında
ata Yaqubun
intizarı,həsrəti,
muştuluq möhnəti...
Məlikməmmədin
quyunun dibinə qədər sallanmış
kəsilən ipi, sicmi,
Qaranlıq dünyadan
çıxmaq ümidi,
təpəri,gücəmi-
yaşamaq tələbi
inanmaq səbəbi...
Şər, böhtan
ayaq açıb yeriyəndə
namusun,qeyrətın
güvəsi,
İnsan qəlbində partlaya biləcək
anın nüvəsi...
Hamletin
Ölümlə olum arasındakı
iztirabı,-
Ataya oğul borcu,hesabı,
Analıq qüdrəti qarşısinda
dözümü,tabı...
Bir üzündə
olacağın
bizdən uzaq
işartısı,
Bir üzündə
itən ümidin
məhzun
yaşantısı!-
Mənim Qarabağım!-
Mənim doğma yurd dərdim!..
Ömrümü
gümanlara verdim,
Verməsəm
nə edərdim ???

# İNAM

İnsanın
özündə özünü –
qödrətini təsdiq,
Zülmətlər içində
olmayan işığı
          tədqiq...
yoxluqda
varlığı dərk –
faktdan əvvəlki məntiq...
Karın içində səslənən
nitq!
Bethovenin iç dünyası...
Almanın başa düşməsi –
Nyutonun
Axtar, seç dünyası,
Ağ işığın linzadan keçməsi –
Göy qurşağı mənzərəsi –
Yağışı Günəşin içməsi,
Acının
      Şirin tamı,
Cordano Bruno,
Nəsimi məqamı...
Dühanın yeddinci qatda
gəldiyi qənaət,
Füzulidə mütləq məhəbbət...
Məkkənin fəthi üçün
gedənlərin
yerişi,ədası ,
“La ilahə illəllah,
Muhəmmədən Rəsulullah”
                    nidası.
Mürşidlərə imanım
               cövhəri,mayası,
Qurani-Kərimin
hər surəsi,hər ayəsi...

# ABŞ DEMOKRATİYASI

Bir zaman
qırıb çatdı hinduları,
özü gəlmə ola-ola...
Qul kimi aldı,
satdı hinduları,
uddu hinduları –
elə bil qızmış nər dəvə
udurmuş navala.
Saldı didərgin
Allahın bəxş etdiyi
doğma yurdundan, ocağından.
Hirsini, hikkəsini
soyutmaq üçün
körpə hindu balasını
yanar, al-qırmızı gülləyə
tuş etdi,
ya da diri-diri
atdı tonqala,
alıb anasının qucağından.
İndi də
utanmadan,
həyasız-həyasız
insan haqlarından danışır.
Guya
insanlığa
havadar,
xilaskar olub,
Bəşərə sinib
sinişmir,
gün gələr
tiranlarda
mərhəmət yaradar.
907-
Ayıq, qanan dünya önündə
açdı
iç üzünü,

Məkrli, hiyləgər,
bic üzünü.
Dünyanı
bir tükdən asıb,
qanlı barmağını
düymə üstə qısıb,
basaram deyir,
qıraram asılan tükü,
Dünya boyda yükü
oynadaram məhvərindən,
Yağdıraram
hidrogen yağışı,
Nazlasın
gərək hamı,
Açılsın buna
dünyanın
isti, mehriban ağuşu,
Bu da
öz qoynunda gəzdirsin
quyruğu tapdanmış
demi gürzəsi,
Olsun bəşərə
ana laylası
hər hədəsi, hərzəsi.
Qan-qan deyir ölkələrə,
Birinin başına sığal çəkir,
qısqırır başqasına.
Birinin başına od tökür,
qusdurur başqasını.
Fironluq edib
gücünü göstərir,
özünü öyür ölkələrə.
Qəsbkar erməniyə
dil verir,
Yerini tanıtmır,
üstəlik pul verir.
Bizi bilir
məğlub, yesir,
Sümürür neftimizi

acgözcəsinə,
Hər nə var
udmağa  tələsir...
Nə  demosdur, nə  xartiya.
Qıcayıb
canavar  dişlərini
dünyaya,
Adını da  qoyub
demokratiya.

## NƏ?

Belə yaxın yandırırsan,
Belə uzaq  donmağın nə?
Dönüb şahlıq quşuna,
Özgə başa  qonmağın nə?

Dağ-daş yanar bu həsrətə,
Məmnun qalar xoş  qismətə,

Bürünmüsən  ar, ismətə,
Üzəvari  danmağın nə?

Gedən karvan  dayanmaz ki! –
Qəflət içrə, oyanmaz ki! –
Nura qərqdir, boyanmaz ki! –
Inkarın  nə, qanmağın nə?

Bu  yol  haqqın öz yoludur,
Haqq  kəlamı, söz yoludur,
Dərdə  sipər, döz  yoludur,
Dünya  fani sanmağın nə?

Haqq yolunun  haqqı itməz,
Qədir-qiymət bada ğetməz,
Namərd  əkər, biri bitməz –
Niyə? Nəyçün?- anmağın nə?

Bilmir, axı, heç kəs nədi,
Gəlhagəlin gethagedi?
Hər məqamda saxla həddi,
Təkəbbürün, sınmağın nə?

Kim sevdirər bizi haqqa?
Ərk edərmi özü haqqa?
Xoş gedərmi sözü haqqa? –
Təsdiqin nə, qınağın nə?

## AĞLAYIR

Bu əsrarın adı sükut,
Çalçağırı məğlub, süqut,
Nə dəlil gəz, nə də sübut,
İgidlərim qan ağlayır.
Çəlp oturdun, çəlpə düşdün,
Düz yolunu sərpə düşdün,
Bəd – yuvası – qəlbə düşdün
Gizli çəkən can ağlayır.

Mərcə girib küylənənlər,
Uddu sənlə əylənənlər,
Doğru çıxdı deyilənlər,
Qürur, şöhrət, şan ağlayır.

Yaman batdın, bil, töhmətə,
Xəcil ömrə, il töhmətə,
Heç uyuşmur dil töhmətə,
Aylar, günlər, an ağlayır.

Yaz nəfəsə səmum əsdi,
Qönçə yandı, bülbül küsdü,
Bu nə gündü, bu nə nəhsdi?

Sazaq, şaxta, don  ağlayır.

Gecəm  oyaq, diri  qalıb,
Zülmət  çöküb, yeri qalıb,
Ulduzlardan  biri  qalıb,
Sübhüm  qəmli, dan  ağlayır...

## AĞLAYIR

Bu  əsrarın  adı  sükut,
Çalçağırı  məğlub, süqut,
Nə  dəlil gəz, nə də sübut,
Igidlərim  qan  ağlayır.

Çəlp  oturdun, çəlpə  düşdün,
Düz  yolunu  sərpə düşdün,
Bəd  yuvası – qəlbə  düşdün,
Gizli  çəkən  can   ağlayır.

Mərcə  girib  küylənənlər,
Uddu  sənlə  əylənənlər,
Doğru  çıxdı deyilənlər,
Qürur,  şöhrət, şan ağlayır.

Yaman batdın, bil, töhmətə,
Xəcil ömrə, il töhmətə,

Heç uyuşmur dil töhmətə,
Aylar,günlər, an ağlayır.

Yaz  nəfəsə səmum əsdi,
Qönçə yandı, bülbül küsdü,
Bu nə gündü, bu nə nəhsdi? –
Sazaq, şaxta, don ağlayır.

Gecəm oyaq, diri qalıb,
Zülmət çöküb, yeri qalıb,
Ulduzlardan biri qalıb –
Sübhüm  qəmli, dan ağlayır.

## OLAYDI

Yolçu oldun yola baxma,
Sola, sağa, dala baxma,
Get, nə ola –ola, baxma,
Təki yolun yol olaydı.

Çərtmə qurdum, quş apardı,
Bürcüm uçdu, huş apardı,
Qəhər tutdu, yaş apardı,
Toxta deyən dil olaydı.

Təmkin səbir  bizdən uzaq,
Ümid yeri gözdən uzaq,
Yolum yoxuş düzdən uzaq –
Ömrə möhlət il olaydı.

Quş yarandım, qanadım yox,
Dağ çapıram, inadım yox,
Türk oğluyam, öz adım yox –
Get, təzədən gəl olaydı.

Təravətli ləçəkdimi?
Açılmamış çiçəkdimi?
Fürsət bulan gerçəkdimi? –
Xara uymaz gül olaydı...

## HEÇ NƏ

Bu ovqat – kədərin, qəmin ovqatı,
Günahlı, savablı dəmin ovqatı,
"segah"ın, "Zabul"un – simin ovqatı,
Aqilə həyatdır,cahilə heç nə.

Məcraya sığmayan hiddətə bir bax,
Hayqıran, ağyallı qüdrətə  bir bax,

Ləms düşüb, ləhləyən müddətə bir bax –
Dənizə dalğadır, sahilə heç nə.

Qəfləti heyrətdən nalə çəkdirən,
Qəlbləri ram edən, ruhu çökdürən,
Yaşadan, uçuran, gah da tikdirən –
Cavana sevgidi, ahıla heç nə.

Buludlar gözünü vüsalda sıxar,
Çaxnaşar, sevincdən şimşəklər çaxar,
Pərvanə özünü atəşə yaxar,
Mərdə yaşamaqdır, paxıla heç nə.

Dərd çəkən – ahında dağlar təmkini,
Qüririnda  girov saxlar təmkini,
Haqqa, təvəkkülə bağlar təmkini,
Inamı, ixlası sıxıla – heç nə!!!

## DEMƏ

Bütöv ol sən,para ol sən,
İstər ağ ol,qara ol sən,
Məna tutub,görə bilsən,
Hər bütövə sən tam demə.

Naşı bilməz sevgi nədi,
Haqq butası,vergi nədi,
Qoruq nədi,sərgi nədi,
Sevən kəsə nakam demə.

Sevən gözlər nura qərqdir,-
Gecə,gündüz,-de, nə fərqdir.
Yanar,sizlar,edər təqdir-
Səcdəgaha ehkam demə.

## SƏNİN

Başına daş düşsün qul doğan ana,
Öləydin, sönəydi şəhvətin sənin.
Gözlərin kor oldu, uydun meymuna,
Hanı boz qurd adlı qeyrətin sənin?

## SƏN ELƏ GÜLSƏN Kİ

Sən elə gülsən ki, ömrün bağında,
Yazda da, qışda da qoxlaram səni.
Yaşımın bu vaxtı, ahıl çağımda
Müqəddəs tutya tək saxlaram səni.

## DEMƏ

Iz düşməmiş hər meşəni sevirəm,
Şehli- şehli tər gülşəni sevirəm,
Üzülməmiş bənövşəni sevirəm –
Əldən ələ keçən gülə gül demə.

Qəlbimə toxundun, küsdüm - içimdə,
Qovğalı, üsyankar susdum – içimdə,
Özümü abrıma qısdım – içimdə,
Get dedin, gedirəm, bir də gəl demə.

## OLMUŞAM
(qəzəl)

Gecəm aylı, İsaq- Musaq təki haylı bidar olmuşam,
Üz qoyub üzünə, xəyalınla vüsal badar olmuşam.

Sidq ilə zənd etdim, mən aləmə sənin gözünlə baxdım,
Kimsə görmədim özümdən qeyri, böylə qərar olmuşam.

Baxdım özümə, tək səni gördüm, bürünmüşdün içimə,
Dolaşıb sorağında  biqərar, sirri – qübar olmuşam

Yandım  gecə - gündüz  necə, Allah, fərağın oduna mən,
Gör necə həzzə mübtəlayam ki, kəm ixtiyar olmuşam.

Açıb zülfünü tökübsən üzə, sübhü nihan etmisən,
Qalmışam zülmət içində solğun, bihuş dücar olmuşam.

Adını çəkmək belə qadağa, yolunda can sadağa,
Ömrün bağı – gülüstanə dönüb, şirin nübar olmuşam.

Çəkdikcə qəhrini, pəh – pəh, gülüm, artar qədrin, inşallah,
Kəsdim aləmdən gözümü bütün, çin tox rəftar olmuşam.

Ərşadam, dolannam başına, yar, gizli, röya içində,
Boyanıb nura, eşqə sığındım, həm giriftar olmuşam.

## TAPACAQ

Saldın məni həsrətinin cənginə,
Möhnətinin dibəyinə, dinginə,
Düşdüm yaman hərcayının dənginə,
Ürək ağrı, qulaq karlıq tapacaq.

Ot yoldurur, ot da olub çayırlıq,
Bu həvəsdə qıt da olub çayırlıq,
Haldan düşüb bat da olub çayırlıq, --
Haqqı gəzən göz də korluq tapacaq.

Insan oğlu harınlığın qəsdində,
Dolansa da şah oğlunun şəstində,
Otursa da qızıl sandıq  üstündə
Bir ğün ğələr ağır korluq  tapacaq.

Qismət minib bədöv atın tərkinə,
Bizdən küsmək, bizdən qaçmaq tərginə.
Dahilərin hər cahanı dərki nə? –
Gen dünyada baş da darlıq tapacaq.

## BU DÜNYADAN KÖÇƏSİ VAR

Dartınırsan ucaldıqca,
Ucalıqdan güc aldıqca,
Enəcəksən gec aldıqca –
Hər gündüzün gecəsi var.

Bir gün gələn, bir gün gedər,
Qara torpaq doymaz, udar,
Qızıl baxta vurar çidar –
Ibrət üçün neçəsi var.

Verən verib, ala bilər,–
Taxtı – tacdan sala bilər,
Ancaq rəhmət qala bilər, –
Harda, nə cür, necəsi var.

Alçı dursa bəxtin haqdan,
Olmalıydı, – demə çoxdan,
Heç öyünmə bu ayaqdan,
Bütövlüyün qıçası var.

Böyük, kiçik yolu saxla,
Ehtiyatlan acla, toxla –
Mərdi ara, darda yoxla –
Bəd ayaqda qaçası var.

Dövlət bilmə sən daş – qaşı,
Binə etmə haram daşı –
Ya ev daşı, ya başdaşı,
Dağılası, uçası var.

Kökü üstə bitər bitən,

Halal - haram – yetər  yetən,
Gələn  gələr, itər  itən,
Bu  dünyadan  köçəsi  var.

## GÖRÜNDÜ

Tabımı  gözümdən çaldın  apardın,
Qəlbimə od  saldın, tufan  qopardın,
Bu  mehri, ülfəti  harda  tapardın!? –
Ilahi  ovsuna  sayğım  ğöründü.

Keçdiyin  yolların doğma,  tanışdı,
Boylanıb  baxdıqca  gözüm  dirəşdi.
Yoxluğun  möhnəti  qəlbimi  deşdi,
Ilğımlar  içində  ilğım  göründü.

Bürüyüb  qəlbimi  məzar  sükutu,
Dünyadan,  özündən  bezar sükutu, –
Kim  necə, haraya  yozar  sükutu,
Özümdən  içəri  duyğum  göründü.

Taybatay  qapılar  bağlı  qalıbdı,
Sevgilı  ürəklər  dağlı  qalıbdı,
Ümidlər  qaralı - ağlı  qalıbdı –
Yorulmuş, tükənmiş  qayğım  göründü.

Bu  sirli  düyünü  açan  tapılmaz,
Özündən  qurtarıb  qaçan  tapılmaz,
Ölüm  şərbətini  içən  tapılmaz,
Yoxsa  ki, içmisən, bayğın  göründün.

## QALIBDI

Zirvə  sazağını  etməz  əndişə,
Qarlı  kol dibindən  qalxar  bənövşə,
Duyan  ürəkləri  salar  təşvişə -
Görəsən  bahara  azmı  qalıbdı?

Haqqın zərrəsiyəm, dünyanın tamı,
Yoxluğun inkarı, varlığın kamı,
Eyni cür düşünmür yaranmış hamı,
Hamını yozası sözmü qalıbdı?

Kimisi boz çölü gülüstan görür,
Ya korluqdan görür, ya qəsdən ğörür,
Nəfsin istəyinə həvəsdən ğörür,
Adəmdən bu çöllər bozmu qalıbdı?

Yad olub yadlaşıb sevən könüllər,
Cod olub codlaşıb sevən könüllər,
Xoş sözə bədləşib sevən könüllər,
Ortada zarafat, nazmı qalıbdı?

Sevgisi, andı da qoşa, şərikli,
Guya paltar geyib, torlu köynəkli,
Tamam üryan, gözlər qara eynəkli –
Nurlu, cazibəli gözmü qalıbdı?

Məni də bir gözəl əydi, çaşdıdı,
Ovsunlu gözünü qıydı, çaşdıdı,
Sandım haqq butası,paydı, çaşdıdı,
Utanıb pörtməyə üzmü qalıbdı?

## HANDAN- HANA

Ağ kitabı açdın oxu,
Son ilməni sökdün, toxu,
Ovsununa yatdı çoxu,
Təşviş çəkmə məndən yana.

Ayna sındı qırıq – qırıq,
Hər qırıqda biz də varıq,
Nədi sərgi, nədi qoruq? –
Qada düşər candan – cana.

Nə dedimsə dil günahkar,

Yazdım , verdim - əl günahkar,
Tövbəm yersiz, öl günahkar,
Çatar, çatmaz handan – hana.

Tap itiyi itən yerdə,
Səsi, ünü ötən yerdə,
Qalmaz keçə, çətən yerdə,
Yaylaq girsə dondan – dona.

Yalan demə bilə - bilə,
Qıyma yetən sənə gülə,
Tapınıb sən fitnə - felə,
Söz gəzdirmə bundan ona.

Bu dünyanı yoran gəlsə,
Hər zərbəyə duran gəlsə,
Halal ömrü quran gəlsə,
Haram qatmaz qandan qana.

Haram tamdan qan çürüyər,
Can evində can çürüyər,
Əvvəl itər, son çürüyər,
Carə gəzmə sondan – sona.

## NİYƏ

Nəyi çaldın, nə çağırdın?
Nəyi yapdın, nə yoğurdun?
Yaranışdan sən uğurdun,
Məğmun, məğşuş sonda niyə?

Yumaz günah yüz bir toban*,
Hiylə, yalan hər bir çaban...
Mərd olubdu atan, baban,
Bəs namərdlik səndə niyə?

Ürəkdə kin üzə güldün,

Hər səmimi sözə güldün –
Yanlış yozdun, düzə güldün,
Gəzdin saxta donda niyə?

Qanın harda qarışıbdı?
Cana fitnə daraşıbdı,
Abır fellə barışıbdı –
Durub baxdın yanda niyə?

Kor- koranə uyanda mən, –
Qaynar sevgi duyanda mən
Canı şəksiz qıyanda mən,
Görünmədin məndə niyə?

Sonun, önün iblisədi,
Yolun, yönün iblisədi,
Məzhəb, dinin iblisədi
Bəs Allaha bəndə niyə???
*2002.*

## QORU TANRIM,QORU BİZİ

Bu çiçəyi necə dərdim?!-
Dərdim,sinən üstə sərdim.
Şəhdi canda ömür sürdüm,
Qoru Tanrım,qoru bizi.

Olduq qordan od közərdən,
Həyat aldıq can üzərdən...
Xain,xoflu,bədnəzərdən,
Qoru Tanrım,qoru bizi.

Gün yaşadıq yüzlə qoşa,
Ləzzət alıb biz başbaşa,
Zaya vermə,qıyma haşa,

Qoru Tanrım,qoru bizi.

Neynirəm ki,qızıl teşti,
Qan qusdura bəxtin kəşti...*
Ömür xoşdur – yüzdü, beşdi,
Qoru Tanrım, qoru bizi.

Halal yeyib, halal içdik,
Haqq yolunu doğru seçdik,
Çətinlikdən qoşa keçdik,
Qoru Tanrım, qoru bizi.
-------------------------------
*Kəşti –Hərəkət, gediş, dolanma;

## ÖZÜNƏ TAPINMA

Gecəm keşçib...
Yatmışam,
Gördüm qəribə bir haldayam –
Həm ölü,
Həm diri
　　　　olumdayam...
Gördüm
　　　　boylanıb qəbirdən
baxıram
　　　　　harasa gedən özümə --
Yaraqlanmışam --
qoşalülə tüfəng çiynimdə,
qundağı dəyir dizimə ...
Belimdə kəmər –
üstündə səf-səf, cərgə-cərgə

bir boyda
dolu gilizlər
(Gənclikdə beləydik hərdən bizlər)
Dilimdə bir soru:
-- Harda itirdim yarı?
Bir də təp-təzə, cağlı,
belimə bağlı
ağır balıqçı toru –
köynəyinə beş-on ilməaşırı
düzülmüş,
quruşun kürəciklər.
Gedirəm
ünüm hər yerdən üsülmüş.
dörd yanım su,
ayırd edə bilmirəm,
doğrusu,
səhradayam, ya adada...
Bir yandan da
üfüq qızarır,--
Günəş oyanır,
Səmada nəsə alovlanır, nəsə yanır –
Bürünmüş osa –
Sarıb ruhumu məni yandırmada,
Açıram toru,
atıram dənizə --
tutam balığı,
döndərib kənizə,
hökm edəm ona,
başa düşə məni –
Günəş hələ qalxmamış,
od püskürüb, alov çaxmamış,
azad etsin
yiyəsi ölmüş
şəhid torpağı –
VƏTƏNİ...
Çəkirəm toru,
Torumdan çıxır boz qurd –
Yanında da Sən –
Həsrətiynən yandığım,

Mən sevən...
Aşırıb tüfəngi
vurmaq istədim qurdu,
qaçmaq istədi
qaçmadı, durdu,
kinayəli, qürurlu
süzüb məni.
Sonra qoşub özünə,
bürüyüb
Günəşin qızıl şəfəqli zərrin tellərinə
Apardı Səni –
Ağayana –
salmadan məni saya.
Yeridilər
gülümsəyən ləpələrin üstüncə,
Getdilər,
Geydilər yenidən gətirsinlər
TÜRKÜ dünyaya...
Ayıldım –
Lüzum qalmadı hay-haraya...

## MİN İL DƏ QOCALDI DÜNYA

Ağardı, min il də qocaldı dünya,
Atomdan, nüvədən güc aldı dünya,
Narahat, səksəkə -- qıc oldu dünya –
Nalələr, fəryadlar tutar dünyanı,
Qaranlıq göstərir bu əsrin sonu.

Dağılan ellərin yoxmu sahibi?
Azğının, zalımın çoxmu sahibi?
Acların, lütlərin toxmu sahibi?
Deyəsən yaxındır ərəsət günü,
Qədim Pompeyədir dünyanın yönü.
Bir quş yuvasına dözməyən fələk,
Xaraba ellərə qızmayan fələk,
Qiyamət hökmünü yazmayan fələk,

Yerlə yeksan edər göydələnləri,--
Nahaqqa, harama səy edənləri...
*02.01.2000.*

## MƏNİ
(zarafat)

Gizli sirri açdın özün –
Daç, tikanlı yolun, izin,
Süründürdün  dizin-dizin,
Dizi çapıq etdin məni.

Bir tutub sən yazı, qlşı,
Çit bilirsən al qumaşı...
Daldan atıb çaxmır daşı,
Axsaq topuq etdin məni.

Sonra mənə topal demə,
Hərdən vurub sarı simə.
Öyrədərək him-cimə,
Gözüqıpıq etdin məni.

Sevgi nədi, bilməz naşı,--
Süzən gözü, çatan qaşı.
Sığalladın hər gün başı,
Saçı yapıq etdin məni...

## TƏNHA QARI
(Mənzumə)

Kirpiyindən yaş asılıb,
Damcı deyil, daş asılıb,
İtən yaddaş, huş asılıb –
Tənha qarı, tənha qarı,
Kimsə duymaz bu qubarı!
Sinəndəki oğul dağı,
Ər itgisi – nağıl dağı,

Şər-şəbədə -- çuğul dağı –
Tənha qarı, tənha qarı,
Kimsə duymaz bu qubarı!

Duman çöküb yola, izə,
Ağ su gəlib nurlu gözə,
Gir qalmayıb ayaq gəzə --
Tənha qarı, tənha qarı,
Kimsə duymaz bu qubarı!

Göy damarlı əlin əsir,
Söz deyəmmir, dilin əsir,
Bükülübdü belin əsir –
Tənha qarı, tənha qarı,
Kimsə duymaz bu qubarı!

Bir zamanlar şux gəzərdin,
Yola, izə naz düzərdin,
Igidlərdən can üzərdin –
Tənha qarı, tənha qarı,
Kimsə duymaz bu qubarı!

Ətli sinən taxta olub,
Qaynar qabın laxta olub,
Belə sifət qaxda olub –
Tənha qarı, tənha qarı,
Kimsə duymaz bu qubarı!

Əldə əsa, qol bükülü,
Çənə uzun, diş tökülü,
Gözlərindən nur çəkili –
Tənha qarı, tənha qarı,
Kimsə duymaz bu qubarı

Qanı qaçmış al yanağın,
Göy ləkəsi xal, yanağın,
Solmuş, vağam gül yanağın –
Tənha qarı, tənha qarı,
Kumsə duymaz bu qubarı!

Yağar yağış, daxma danar,
Təzək yanmaz, soyuq cumar,
Kimi görsə,küsər,umar –
Tənha qarı, tənha qarı,
Kimsə duymaz bu qubarı!

Yuxuları naxış-naxış,
Gah qar yağar, gah da yağış,
Düz yolu da dimdik yoxuş –
Tənha qarı, tənha qarı,
Kimsə duymaz bu qubarı!

Nə gələnin, gedənin var,
Nə danlayan, didənin var,
Nə qısqanan, güdənin var –
Tənhq qarı, tənha qarı,
Kimsə duymaz bu qubarı!

Qulac hörük birçək olub –
Bir qarışlıq, bur, çək olub,
Qiyamətin gerçək olub –
Tənha qarı, tənha qarı,
Kimsə duymaz bu qubarı!
Kimsə duymaz bu qubarı!

Bu nə sirdir, bu nə hikmət –
Maşallah!
Bu nə səcdə, bu nə minnət –
Maşallah!
Bu nə qüdsi, bu nə qüdrət –
Maşallah!
Təşnə qəlbim təşnələnsin, Allahım!
Muradımla nəşələnsin, Allahım!

ŞƏKİL

## KƏMALƏ

Tanrının ecaz xilqəti,
Ovsunu, sehri, hikməti.
Qubadlının şan- şöhrəti,
Dovudlu* qızı, Kəmalə!

Mahalın ilkidi, təkdi,
Xoş arzudu, xoş diləkdi,
Göydən enmiş bir möləkdir –
Heyrətdi, düzü, Kəmalə.

O bir çoşqun buz bulaqdı,
Haqdan yanmış nur çıraqdı.
Toya, düyünə soraqdı,
Al bizdən bizi, Kəmalə!

Yaraşıqlı dağ çiçəyi,
Əsmər gülün ağ çiçəyi,
Gözəllərin ən göyçəyi,
Şipşirin sözü – Kəmalə.

Kərəm yanar qucağında ,–
Abbas, Qurban ocağında .
Ərşad deyər gənc çağında,
Ustaddı özü – Kəmalə.

## NƏVƏM FAZİLƏ

Kölgən qalın ucalasan,
Ucalıqdan bac alasan,
Halallıqdan güc alasan,
Yaşayasan yüz il, nəvə!

----------------------------
**Qubadlı rayonunda kənd adı*

Ata, ana – güc qolunda,
Xala, bibi sağ , solunda,
Büdrəməsin haqq yolunda,
Fazil baba, Fazil nəvə!

Allah versin göz dolusu,
Xoş arzulu söz dolusu.
Şıx Mir Sədi – öz ulusu,
Arxa dursun sevə - sevə.

*12.03.1999*

## ŞAİRLƏRDİR ƏZABKEŞİ DÜNYANIN

Şair dostum Əli- Ağa ASLANA

Eşq odunun havasında bişəndi,

Ovsunlanıb öz sehrinə düşəndi,
Iynəyinən ğor da qazdı, üşəndi –
Şairlərdir əzabkeşi dünyanın,
Ağrıları, kəşməkəşi dünyanın.

Külək əsər, ğül üşüyər, – çağlayar,
Yetim görər, ürəyini dağlayar.
Qərib düşər,"Vətən" – deyib ağlayar –
Şairlərdi əzabkeşi dünyanın,
Ağrıları, kəşməkəşi dünyanın.

Halallıqda haram bilsə ət tökər,
Dost dilindən yalan duysa dad çəkər,
Istibdada gözlərindən od tökər –
Şairlərdir əzabkeşi dünyanın,
Ağrıları, kəşməkəşi dünyanın.

Həsəd çəkər azad uçan quşlara,
Şəhid olub, həkk olunar daşlara,
Boyun əyməz işğalçıya, dışlara –
Şairlərdir əzabkeşi dünyanın,
Ağrıları, kəşməkəşi dünyanın.
Düşmənidir pula həris olanlar,
Vətən satıb kürsü, şöhrət alanlar,
Qəlbən kafir, üzdə namaz qılanlar –
Şairlərdir əzabkeşi dünyanın,
Ağrıları, kəşməkəşi dünyanın.

Bu dünyanı ğah dağıdan, tikəndi,
Öz dərdini için -için çəkəndi
Qüruruna, vüqarına söykəndi –
Şairlərdir əzabkeşi dünyanın,
Ağrıları, kəşməkəşi dünyanın.

Haqqın yolu biçilibdi boyuna,
Heç vaxt ğirməz siyasətə, oyuna,
Divanədi qartalların qıyına –
Şairlərdir əzabkeşi dünyanın,
Ağrıları, kəşməkəşi dünyanın.

## HƏR MƏQAMDA, YAŞDA BİTƏR

Sən görən mənim yuxumdu,
Çin olub, salxım-salxımdı...
Cücərməmiş bir toxumdu –
Cücərdimi, daşda bitər.

Səni sevdim isti-isti,
Nə uğurdu, nə həvəsd!!!
Haqq butası – ündü, səsdi –
Hər məqamda, yaşda bitər!

Için-için yanar oddur,
Tüğyan qəlbdə həzli daddır,
İnsanlığa ilkin addır –
Ərsə yetsə, qışda bitər...

Duymaz hər nadan, hər naşı,
Lağ edər hər sözünbaşı,
Olmaz bir sirli sirdaşı –
Məclis qurar, başda bitər.

## ÜZÜNTÜ

Həddihdən artıq həssas adama

Ağladın, halına acıdım yaman,
Süzüldü od kimi göz yaşı qəlbə...
Sandım ki, təsəlli yersizdi, inan!
Dəysə yaralardı söz daşı qəlbə...

Odur ki, oxşayıb öpdüm əlindən,
Ruhuna sakitlik gətirmək üçün.
Ilk dəfə ömrümdə sarpdım yolumdan,
Özümü savaba yetirmək üçün.

Mən ki, haramlığa səni çəkmədim,
Haramlığın dadı ilan ağısı.
Asılıb çənəndən zəhlə tökmədim,

Beləmi tutulur yanım qayğısı?...

## HÜZURDA DUA...

Ulu Mir Məhəmməd Ağa Nura

Bu nə sirdir, bu nə hikmət – Maşallah!
Bu nə səcdə, bu nə minnət – Maşallah!
Bu nə qüdsi, bu nə qüdrət – Maşallah!
Təşnə qəlbim təşnələnsin, Allahım!
Muradımla nəşələnsin, Allahım!

Eşq adında nur varlığa inandım,
Köləlikdə hürr varlığa inandım,
Tanrı hökmü hər varlığa inandım,
Vird eyləyib "Allah" adın dil açdım,
Ali məqam – Ol! Olana yol açdım.

Dərvişliyin çöl varlığı! – Nə gözəl!
Lal sükutun dil varlığı! – Nə gözəl!
Səcdəgahın qul varlığı! – Nə gözəl!
Asilərdən arıt məni, Allahım!
Mütilikdən yarıt məni, Allahım!

Əynimizə eşq libası biçənik,
Cəhalətdə nur şərbəti içənik,
Bir məqamdan bir məqama köçənik,
Qaldır məni, uçur məni, Allahım!
Günahlardan qaçır məni, Allahım!

Nurlu qəlbin nur payını verən var,
Nurlanaraq haqq məqama girən var,
Haqq məqamda eşq nübarı dərən var,
Bu nübarla yarıt məni, Allahım!
Süzdür məni, arıt məni, Allahım!

Gecə - gündüz oldun virdim – anladım,
Ram elədin , sənə vardım – anladım,

Dər etdikcə artdı dərdim – anladım,
Nadanlardan arıt məni, Allahım!
Ixlasımla yarıt məni, Allahım!

03.04.1998
Məkkə

## SEVGİM

Ustadım Mir Məhəmməd Ağa Nura

Qızılgülün ətri, bənövşə iyi,
Təkəbbür ovsunu, ürəyin səyi,
Ram etdi qüdrəti əsrarı, göyü
Ötəri bir həvəs olmayan sevgim.

Itən səbrim oldu, coşan qübarım,
Ilkin ömür yazım, gənclik nübarım,
Mənəvi sərvətim, tükənməz varım,
Cənnət çiçəyi tək solmayan sevgim.

Yolumda məşəldir, gözlərimdə nur,
Insanlıq cövhəri, yenilməz qürur,
Çaşqınlıq anında büdrəməz qürur,
Tərəddüd əzabı bilməyən sevgim.

Xəyala qanaddır, vüsala dözüm,
Öyünən də özüm, öyən də özüm...
Dillərdə dastanım, tarixdə izim,
Sığıb bir ürəkdə qalmayan sevgim.

Saflığa bəzəkdir, paklığa naxış,
Qoruyan, yaşadan insana alqış!...
Axtarsa dünyanı kim qarış- qarış –
Ölçüyə, çəkiyə gəlməyən sevgim.

03.03.2000

## QURBANAM

"Sən heç vaxt məni  başa düşmədin" – deyənə

Cilvələnib  təkəbbürlü  durmusan,
Yan  darayıb  tellərini  burmusan,
Bu  nə  yasdı, bu  nə  toydu  qurmusan?
Yeri, yeri, gəlişinə  qurbanam,
Qəm  içində  gülüşünə  qurbanam.

Gözün  məndə,  danışırsan  yadınan,
Elə  bil  ki,  oynayırsan  odunan,
Axtar  məni  tamam  başqa  adınan,
Yeri, yeri,  gəlişinə  qurbanam,
Qəm  içində  gülüşünə  qurbanam.

Gizli  kədər  gözlərinə  hopubdu,
Zarafata, nazlarına  hopubdu,
Şirin,  duzlu  sözlərinə  hopubdu,
Yeri,  yeri,  gəlişinə  qurbanam,
Qəm  içində  gülüşünə  qurbanam.

## BƏS  NƏDİ?

Dostum  Əbdüləli İmanova

Zərbi  kərəm  sındıran,
Həqiqəti  donduran,
Haqqı  nahaq  qandıran
Fələk  deyil,  bəs  nədi?

Qaş  düzəldib, göz  tökən,
Xeyir  biçib,  şər  əkən,
Yalan  deyib,  söz  çəkən
Kələk  deyil,  bəs  nədi?

Öz  içində  qaxsıyan*,
Bu  dünyanı  qafsıyan,**
Canı  üstə  çafsıyan,***

Hələk deyil, bəs nədi?

---

*Ağırlaşmaq.
**Qəsb edən, acgözlük.
***Çabalayan.

Bir məsləki olmayan,
Məcrasına dolmayan,
Bir tük üstə qalmayan
Külək deyil, bəs nədi?

Mərifətə sin deyən,
Bir yaxşıya min deyən,
Çor deyənə can deyən,
Mələk deyil, bəs nədi?

21.05.2000

## GÜLÜM

Həssas qəlbli, incə duyumlu, ədəbiyyatı tədqiq
və təbliğ edən dostum Əbdüləli müəllimə

Sıx əlimi təmasından odlanım,
Hər əzaba, hər möhnətə qatlanım,
Havalanım, eşq dəlisi adlanım,
Sıx əlimi, sıx, gülüm!

Şübhələrdən donan qəlbim isinsin,
Küsüb səndən, sınan qəlbim isinsin,
Yanıb, yanıb sönən qəlbim isinsin,
Yax atəşə, yax, gülüm!

Dünən ümid, bu gün güman, sabah nə?..
Cəza mənim, fərman sənin, günah nə?..
Qismət verən ulu Tanrı, tamah nə?.. –
Bax gedişə, bax, gülüm!

Gedişinlə dözüm, taqət əridi,
Inam itdi, yalan, böhtan yeridi,
Həsrət məni qaranlığa bürüdü,
Çıx yoluma, çıx, ğülüm!

Görüşməyə fürsət, vaxtım olacaq,
Dürüst fəhmim, iti baxtım olacaq,
Həsrət adlı qızıl taxtım olacaq,
Yıx bu taxtı, yıx, gülüm!

Sevən kəsə qədir- qiymət vermədin,
Bir bağ saldım, oyuq etdin, girmədin,
Səfa çəkib qoşa ömür sürmədin,
Ax, nə deyim, ax, gülüm!

## MƏNİ

TAHİRƏYƏ

Bu eşqin qovğası artar, azalmaz,
Bir az rüsvaylığa dartar, azalmaz,
Həya pərdəsini yırtar, azalmaz,
Ümid qanadında uçurar məni.

Hər işim, hər sözüm nəhsə düşubdü,
Ürəyin istəyi tərsə düşübdü,
Bəxtə bax: sevgim də bəhsə düşübdü,
Qalmaqal sınaqdan keçirər məni.

Düşüb çaşbaşlığa izimdə itsəm,
Bürünüb heçliyə, gözümdə itsəm,

Tapınsam mən səndə, özümdə itsəm,
Kim görər, kim tapar, qaçırar məni.

Həsrətin yamacı, düzü, diki nə?
Girmədim boşuna sevgi yükünə,
Yoruldum, almadı ümid tərkinə,
Şivənlə məzara köürər məni.
1969. Dəmirçilər.

## QÜRUR

Türk dünyası qadınlarının qəhrəman-
lıq sımvolu Həcər xanıma qara yaxan
AKİF SƏMƏDƏ

Dağ qaşında kəl izi var,
Daşlarinda nal izi var,
Sıldirımda yol izi var,
Bu cığırdan Həcər keçib.

At belində açıb savaş,
Qoç Nəbiyə kömək, sirdaş,
Igidlərə gəlin qardaş,
Çal- çağirdan Nəcər keçib.

“Qanlı zəmi”*dan içində,
Düşmən çaşbaş, don içində,
Qürur doğub qan içində,
Bu uğurdan Həcər keçib.

Dikbaşlara dəliqanlı,
Qeyrətsizə əliqanlı,
El içində adlı- sanlı
Düz fağırdan**Həcər keçib.

Şair*** olan böhtan deməz,
Geri alıb sözü yeməz,
Diz çökənə cəza əbəs,
Bu ağrıdan Həcər keçib.

---------------------------------------

*Dan üzü ermənilərin qaçaqlarla döyüşdə çox böyük
Itki verərək məğlub olduqları yer, indiki Ermənistan ərazisinə
Aiddir.Həmin döyüşdə Həcər Xanım yaralanıb
**Nəbidən sonra Həcər Xanəma çox elçi düşən olub
Hamısını qəzəblə rədd edib. Sonradan el ağsaqqallarının
Məsləhəti ilə fağır, doğruçul şair təbli, həmkəndlisi
Həmzətə ərə gedib.
***Drdiyi böhtana görə üzr istəyib, səhvini etiraf edən
Akif Səmədə işarədir

# USTADIM

Mir Məhəmməd Ağa NURA

Uşaqlıqdan qoca oldun,
Kim deyər ki, bica oldun,
Mərifətlə uca oldun,
Haqq məkanda dur, ustadım!

Haqqa uçan diləklərlə,
Bəxtə məruz tüləklərlə,
Küştü* tutub mələklərlə
Meydan açan Nur,ustadım..

Batan ğünəş sönərinlə,
Məhşər günü dönərinlə,

Həzrət Əli hünərinlə,
Zülfüqarı vur, ustadım!

Peyğəmbərlə oldun adaş,
Hər əməldə bağrıbadaş,
Zirvələndin yavaş- yavaş,
Merac öndə, gir, ustadım!

--------------------------------
*Küştü tutmaq – Cəngə girşək

## GÖZLƏRİN

T...yə

Qayğısız gedirdim ömür yolunu,
Ram etdi qəlbimi qara gözlərin.
Itirdim özümü, tapındım sənə,
Istədi apardı hara gözlərin?

Mənə bayram oldu görəndə səni,
Alıb gül nəfəsindən dərəndə səni,
Munis duyğulara verəndə səni
Həsrət zəncirini qıra gözlərin.

Tutub aldım səni şimşək əlindən,
Rəngbərəng, al- əlvan fişəng əlindən,
Sevən ürəyinnən, qəşəng əlinnən

Çəkməsin qoy məni qara ğözlərin.

Çökəndə gözümə qatı dumanlıq,
Çaşanda nur çilər – qaçar qaranlıq,
Alıb qanadına uçar bir anlıq
Yetirər sən adlı yara gözlərin.

Bülbül qələməli gülündən çəkər,
Iblis fitnəsindən, felindən çəkər,
Şairlər nə çəkər, dilindən çəkər,
Uymasın şöhrətə, vara gözlərin.

.

## OĞLUM

Oğlum Loğmana

Dostluq elə nəfsi toxla,
Gendə izlə, darda yoxla,
Ümid üzmə, inam saxla,
Sən bədgüman olma, oğlum!

Namərd dostu heç nə bil sən!
Mərd arxadır seçə bilsən,
Suçu əfv et,keçə bilsən
Heç vecinə alma,oğlum!

Enmək, qalxmaq – ömür yolu,
Qismət verən qadir,ulu,
Kimə qalıb dünya malı? –
Çox nigaran qalma oğlum!

Nəslin tacı – namus, qeyrət, –
Sevən qadın,saf məhəbbət,
Halal çörək,halal zəhmət,
Özgə heç nə bulma, oğlum!

## GÜLÜM, SƏNİ SEVDİYİMİ

LOĞMANA

Sındım çilik- çilik sındım,
Yandım, korun- korun yandım,
Dandım, yazıq- yazıq dandım,
Gülüm, səni sevdiyimi...

Büründün oda, atəşə,
Yandırdın ayaqdan başa...
Pıçıldadım dağa, daşa
Gülüm, səni sevdiyimi...

Sitəmin köçün çəkdim,
Heyrətin suçun çəkdim,
Çəkdim, için- için çəkdim –
Gülüm, səni sevdiyimi...

Cövrün çoxdur, rəhmin azdır,
Insaf adlı fəhmin azdır,
Bizi duyan qövmin azdır,
Açam , səni sevdiyimi.

## GÖZÜNDƏN

Sevimli şagirdim, səmimi dostum
“Mənim düşmənim” hekayəsinin müəl-
lifi Zahid Şahsuvarlıya.

Misalları həll eyləyib düzünə,
Gizlədərdim örtük çəkib yazıma.
Odlu-odlu sən baxanda üzümə,
Sevgi dərsi köçürərdim gözündən.

Nənəm sənsiz inəkləri sağmazdı,
Sənsiz mənə ğöydə Günəş doğmazdı.

Cığallığım yerə , göyə sığmazdı,
Tay-stuşları qaçırardım gözündən.

Qar uçqunu qovğa salar dərəyə,
Hürkən əlik yaxın gəlməz bərəyə,
Oda düşmüş, yanğı tutmuş ürəyə,
Nur selini içirərdim gözündən.

Qonşu qızı , yadındamı o illər?
Son zəngimiz, qəhər dolu könüllər,
Qızılgülü dəstə tutan ağ əllər ,–
Bülbül qonsa uçurardım gözündən.

Misalları həll eləyib düzünə
Gizlədərdim, örtük çəkib yazıma.
Odlu – odlu sən baxanda üzümə,
Sevgi dərsi köçürərdim gözündən.

## USTADIM MİR MƏHƏMMƏD AĞA NUR

Məkkədə qaldığımız 10 gün müddətində hər gün dəfələrlə Kəbəni təvaf (dolanmaq) etməyimizə baxmayaraq heç cürə əlimi Həcərül-Əsvədə toxundura bilmirdim. İnsan nəhri məni alıb axının aparırdı. Son vida təvafında, üçüncü dövrədə özümdən asılı olmayaraq, qeyri- ixtiyari ürəyimdə Mir Mıməhəmməd Ağa Nuru köməyə çağırdım. Həcərül-Əsvədin bərabərliyinə çatanda büdrədim. Yıxılsaydım, Allah bilir, nələr olacaqdı.Qəfildən, qaibanə bir səs: Ərşad!- dedi. Mənə elə gəldi ki, bu səs Mir Məhəmməd Ağa Nurun səsi idi.Özümü düzəldib qalxdım. Sağ əlim düz Həcərül-Əsvədin üstündə idi. Allah! Allah! Təzada bir bax! Sənin qarşında Sənin yaratdığından kömək dilədim... Sənıdəmi xoş gəldi, İlahi? Sənə böyüklüyün qədər şükür, Allahım! Amin!!!s

...illər ötüb  keçir, dönüb  tarixə,
Mürşidlər  fövqünə  qalxan, ustadım!
Kök salıb, yovuşub, sinib tarixə,
Peyğəmbər nuruynan  çalxan, ustadım!

Şəfəqlər içində seçilən Nurum,
Çalkeçir yollarda  aydındır  izin.
Hər iki cahanda fəxrim qürurum,
Ustadlar yanında  öötgündür  sözün...

Arxasan sən mənə çətində, darda,
Hünərim, uğurum  Sənə  bağlıdır.
Yatıram, dururam – oluram  harda,
Deyirlər  bəxtəvər xoşbəxt çağlıdır.

Üstümdə  dolaşır qayğın, nəzərin,
Əlin  kürəyimdə, adın dilimdə.
Kimsədə tapılmaz sayğı bənzərin,
Səninlə  sayırlar məni elimdə.

Sənin  hünərini gördüm Kəbədə,
Dadıma yetişdin Allah evində.
Həcərül-Əsvədə varıb Kəbədə,
Əlimdən yapışdın Allah evində...

10.o4.1998.
Məkkə.

## MƏQAMIN

Ustadımın ustad oğlu, salamlar! –
Qazandığın mübarəkdir məqamın.
Yanrı bizi heç duandan salmasın,
Bizə çoxdan xoş diləkdir məqamın.

Səndən uzaq cənnət ola, neynirəm!
Tüküm  sanı sərvət ola, neynirəm!
Şah tacına minnət ola, neynirəm! –
Hər cahanda çox gərəkdir məqamın.

Əzəl  bizi Allah xoşbəxt yaratdı,
Neyləyək ki, fələk bəxtə tor atdı,
İniltimiz qəlbimizdə zor artdı,
Xilas üçün güc köməkdir məqamın.

Çox da bizi vurub döymə, sən Allah!
Gəldi yeri, datan, söymə, sən Allah!
İtirərsən, vallah, qıyma,sən Allah!
Bizə dataq, ləl dirəkdir məqamın.

Məuşərdi,sınaqdı, billah, ta bəsdi,
Cəzadı, islahdı, billah, ta bəsdi,
Sebgidi, istəkdi, illah, ta bəsdi,
Sərt qayada gül, çiçəkdi məqamın.
20.12.2000.

## UÇURSAN DA BƏXT QUŞU SƏN
S...-ə

Gəlmə dedin, gəlmədim mən,
Niyə dedin, bilmədim mən,
Necə dözdüm, ölmədim mən,
Lal olasan, lal qalasan,
Belə gömgöy, kal qalasan!

Yollarında görünmədim,
Kölgən olub, sürünmədim,
Saxta dona bürünmədim,
Öz vədimdə gerçəyəm mən,
Əhdə sadiq göyçəyəm mən.

Həsrətinnən ilim yanar,
Əlim çatmaz, əlim yanar,
Gileyimdən dilim yanar,
Fəğanımdan od alaram,
Alzışımdan dad alaram.

Bir qulunam – eşq elindən,

Köz almışam od dilindən,
Dad yarımçıq, dad əlindən –
Matım-qutum quruyubdu,
Kim gahgirdən yarıyıbdı???

Peşman olsan son başı sən,
Qədirbilməz, ay naşı sən!
Uçursan da bəxt quşu sən,
Dövrə vurar, başa qonmaz,
Perik düşər, haşa qonmaz...

## ƏSMƏRİM

Tahirəyə

Bu yaşın sevgisi yandırıb yaxar,
Bu yaşın qadası sındırıb sıxar,
Bu yaşın qayğısı qandırıb baxar,
Gizləmə eşqini, danma, əsmərim!

Gizlicə baxırsan, gizli yanırsan,
Deməyə tapmırsan, sözlü yanırsan,
Yolunu çaşırsan, izli yanırsan,
Gizləmə eşqini, danma, əsmərim!

Mənalı gözlərin deyir, hər nə var,
Çırpınan ürəyin sayır, hər nə var,
Onsuz da görənlər duyur, hər nə var,
Gizləmə eşqini, danma, əsmərim!

Zülmət pərdəsini açıb gəlmisən,
Röyadan ayılıb, qaçıb gəlmisən,
Mövlam buta verib, içib gəlmisən,
Bu Allah hökmüdür, danma, əsmərim!
Çaşıb yad yuvaya qonma, əsmərim!

## HAÇAN

Xalq şairi BƏXTİYAR VAHABZADƏYƏ

İncidir qəlbimi el, oba dərdi,
Kəsilmiş tüstülər, kor soba dərdi,
Ağ yalan, xoş vədlər, “and”, “toba” dərdi,
Ədalət divanı qurular haçan?

Alqışlar, tər iflər yarışdırıldı,
Əjdaha mələyə sarmaşdırıldı,
Dünya başdan-başa qarışdırıldı,
Bulanan arzular durular haçan?

Nəfsinə qul olan acgöz zəlillər,
Qeyrətsiz, şərəfsiz, qəlbən əlillər,
Bu xalqın qanını soran zəlilər –
Şişərək partlayar, qırılar haçan?!

Baş altda yastıqdır yağlı yalanlar,
Doymadı yığdıqca həris klanlar,
Atası, anası filan, filanlar –
Zina balasına darılar haçan!?

Müstıbid  qandalı qolda, biləkdə,
Bəsirət qan  qusur kələk-küləkdə,
Kafirə işləyir çərxi-fələk də
Haqqın dərgahına burular haçan?!!

Azadlıq payımız yaraşıq sözə,
“Gülüstan”* dərdimiz muştuluq bizə,
Qanımız fışqırır kip brynimizə, --
Beyinə sızan qan sorular haçan?!!

---------------------------------------------------
*1813-cü  il “Gülüstan” sülh müqaviləsi

## KÖNLÜMÜ

Həddindən  artıq  həssas  adama

Hərdənbir dursaq da nəfəs-nəfəsə
Təkbətək  “düşürük” dəmir qəfəsə,

Utanmaq zinətdir abırlı kəsə,
Bu ismət, yar, sənə bağlar könlümü.

Qoşayıq, aramız yerlə göy qədər,
Söykənən çiynimiz isinər *hədər*,
Titrədir ürəyi umsuq bir kədər,
Çathaçat bu vüsal dağlar könlümü.

Əlindən tutmağım mənə təsılli,
Bir vaxt qovuşası günə təsəlli,
Ovudar qəlbimi yenə təsəlli –
Nə olar kiritsən ağlar könlümü...

## TAHİRƏYƏ

(Zarafat)

Evlənməyimizin otuzilliyi münasibətilə

Nifrət edib əyriyə,
Qoydun məni yüyrüyə.
Yüyrük məni incidər,
Ümid olsan qeyriyə.

Qeyri ola doğma, yad,
Sənsiz sınıq qol, qanad.
Qayğı başdan aşsa da,
Sənsiz zindan bu həyat.

Getmə, gülüm, gözümdən,
Söhbət açma dözümdən.
Dözüm ucuz ölümdən,
Ölüm baha özümdən.

Otuz illik yol keçib,
Dərə, təpə, yal keçib
Şirin tama qovuşduq –
Candan cana bal keçib...

07.02.2001.

## MƏNDƏN KÜSƏNİM

“Sən məni bir dəfə başa düşmədin” –
Söyləyib köksünü ötürdün dərin.
Gözlədim, durduğum yoldan keçmədin,
Bilinmir əsrarın, bilinmir yerin.

Nə deyim, bəlkə də  haqlısan, gülüm,
Ürəkdən ürəyə yollar bağlıdır.
Gözüm gözlərinə, əlinə əlim,
Sevinclə  aşılan qollar bağlıdır.

Sevgini, həsrəti duymağa nə var,
Gözündən  süzülsə ürəyin odu.
Atalar deyib ki, axtaran  tapar,
Özü tək ötəri röyanın  dadı.

Sevgini, nifrəti anlamaq asan,
Anlamaq çətindi fitnəni, feli.
Artıq  başa düşdüm, demək sən busan,
Boğazdan yuxarı danışan dili.

## DAD_BİDAD OLSUN

C.T. üçün

İncilər, gövhərlər dərya dibində,
Namus  da,  qeyrət də qandadır, qanda.
Doğulan  hər uşaq nəslin davamı,
Paxıllıq, xəbislik  candadır canda.

Quyunun  özündə  su olsun  gərək,
Daşıyıb tökməklə  su qalmaz  onda.
İnsana kökündən ad qalsın gərək,
Rəmzi adlardan da ad olmaz onda.

Elə baş qaxıncı, töhmət olan kəs,
Utanıb ölməzmi, elim var desə?!
Udduğu hava da, nəfəs də əbəs,

Haqqı yox kiməsə: dilim var – desə.

Görünməz heç kəsin xeyir, şərində,
Sığınar qoltuğa, qoltuqda gəzər...
Soy-kökü naqisdir, axtar dərində,
Uyumuş mayadır, qıcqırar, azar.

Özübdən razıdır, danışar lovğa,
Dediyi yalana inanar özü,
Tale ümidində -- baxmaz uşağa,
Doğması yanında qınanar özü.

Şər deyər hamıya, şəbədə qoşar,
Istər yaxın olsun, istər yad olsun.
Sıxılmaz usanmaz, həddini aşar,
Uzaq beləsindən, dad-bidad olsun...

# TANRI BİZİ ÖZÜMÜZDIN QORU SƏN

Şaid dosyum Məmməd Aslana

Çox da gəzmə şərik dərdə çarə sən,
Çəkilərsən öz içində dara sən,
Rəzil “bizik”, yoz istəsən hara sən,
Günahkarıq! Yarı “mənəm”, yarı “sən,
Tanrı, bizi özümüzdən qoru sən!

Küstü tutub bizi yıxan özgədi?
Içimizdə özümüzlə birgədi,
Harınlardır, sürü- sürü, cərgədi,
Günahkarıq! Yarı” mənəm”, yarı “sən”,
Tanrı, bizi özümüzdən qoru Sən!

Kimə desən hər nə varsa sayanıq,
Son ümidi hərisə də qıyanıq,

Unutqanıq, şirin sözə uyanıq,
Günahkarıq! Yarı “mənəm,”yarı”sən”,
Tanrı, bizi özümüzdən qoru Sən!

Kişi yıxar, amma kəsməz- xülyası,
Yıxılanın gürzə ilan balası
Olduğunu yaddan silmək bəlası!—
Gunahkarıq! Yarı “mənəm”, yarı “sən”,
Tanrı, bizi özümüzdən qoru Sən!

Şöhrət üçün oda, közə qalannıq,
Başçı olub, qardaş atdan salanıq,
Qatilə dost, dostdan qisas alanıq,
Günahkarıq! Yarı “mənəm”, yarı”sən”,
Tanrı, bizi özümüzdən qoru Sən!

Bu dərd deyil, qəlbə düşən güvədir,
Ruhu əzən kirkirədir, həvədir.
Xərçəngmidir, atommudur, nüvədir?
Bu girdabda yarı görüm, yarı sən,
Tanrı, bizi özümüzdən qoru Sən!

02.04.2001

## ALLAH

T...ə

Böhtan deyib şəbeh qurdu,
Dost qəsdinə dolub durdu,
Beləsində haqqım vardı,
Kaş burnundan gələ, Allah!

Paxıl, xəbis olan kəsdi,
Xain, murdar qalan kəsdi,
Andı, vədi yalan kəsdi,
Eldə rüsvay elə, Allah!

Ürəyində ilan yatıb,
Kin- küdurət kalan yatıb,
Tamahında ölən yatıb,

Gözü diri ölə, Allah!

Allah xofu yoxdu canda,
Şeytan sövqü çoxdu canda,
Insanlığı yaxdı canda,
Qanmır, bilmir hələ, Allah!

Didir səni için- için,
Kinli nifrin, bilməm nəyçün,
Sürüklənər bir gün köçün,--
Qurar layiq tələ Allah!

Adım ağır bir daş oldu,
Düşdü, hədəf ağ baş oldu,
Bilənlərə çox xoş oldu,
Bilməyən də bilə, Allah!

Qənim mənə ana, bala,
Heç bilmirəm nədən ola,
Niyə kafir, müşrik qala,--
Iman kini silə, Allah!

## QURDLU BULAQ

(İddiası özündənböyük uydurmaçıya)

Lehməli, otlu bulaq,
Qurumuş, qurdlu bulaq,
Özündən çox razısan,
Gözü kor, "mutlu" bulaq.

Paxılı gözdən ola,
Taqətdən, dizdən ola.
Gor ola, dərin yata,
Tabutu bizdən ola.

Yer ola barı oban,
Yandırmaz zərrə çaban.
De, bəlkə mürşid olub,
Noxudbaş, keçəl baban.

Uydurub  uyma şair,
Düz  bilib sayma, şair.
Yalan var düzə oxşar,
Oxşamır yayma, şair.

## BƏSTİ XANIM
(Jurnalistin şəxsi albomu üçün)

Qızılgülün əsmərisən,
Yaz mehisən, əs bəri sən,
Uğur elə nəhsləri sən –
Hidayətsən, Bəsti xanım!

Bir görənə  ömür boyu,
Haqq butası, sevgi payı,
Ömrə zinət – sən bal ayı –
Məlahətsən, Bəsti xanım!

Dərya  içi gövhər, dürsən,
Həm küllisən,həm də birsən,

Kim  bilir ki, sən nə sirsən,ım,
Nə  heyrətsən, Bəsti xanım!

Dinər, səni lal da görsə,
Sevər, cavan, çal da görsə,--
Qalxar, ölü halda görsə,
Nə  qüdrətsən, Bəsti xanım!

Qəlbə nəğmə səsin, sözün,
Cana  məlhəm nurlu gözün,
Bilirsənmi heç sən özün? –
Ülviyyətsən,Bəsti xanım!

Səni  billəm  balam, bacım,
Mehribanım, məhrəm tacım,
Vəsvə  çatmır şair gücüm,
Nə  xilqətsən, Bəsti xanım!

25.05.2001.

# FƏDAKARIM

(Ömür gün yoldaşıma)

Çal-çağırlı ad günümə,
Məğmun, məğşuş bəd günümə,
Doğmalara yad günümə --
Fədakarım, fədakarım...

Şərik çıxdın hər qaqyğıma,
Ilk duyğuma, son duyğuma,
Haqqın  çatır pak sayğıma,
Fədakarım, fədakarım...

Hamı məndən keçər olub,
Gen dolanıb, qaçar olub,
Hər dözümə düçar olub,
Fədakarım, fədakarım...

Həyat yolum  sərt olubdu,
Örnək ömrüm mərd olubdu,
Dərdə məlhəm dərd olubdu,
Fədakarım, fədakarım...

Sevgim, eşqim – naz-nemətim,
Tükənməyən bol sərvətim,
Saf xilqətim, şux qeyrətim –
Fədakarım, fədakarım...

# İTƏN ARI GƏZ ŞUŞADA

Vətən oğluna

Şərəf gedib Qarabağla,
Al üstündən qara bağla.
Vətən məğşuş, keç qanından,
Məlhəm elə, çarə bağla.

İtən arı gəz Şuşada,

Hünərini yaz Şuşada.
Cıdır düzü, Xarıbülbül –
Məzar yerin – qaz Şuşada.

Ərimgəldi* sehrəngahın,
Heykəl yerin – barigahın.**
Vətən oğlu, qalx ayağa! –
Qürur yaysın qoy gorgahın.

Tarix keçən qala bürcün –
Sınıb  uçan qala bürcün.
Bayraqlansın üç rəng ilə
Qeyrət saçan qala bürcün.

Ağabəyim***yad düşübdü,
İsmətinə od düşübdü.
Yaddan çıxıb  Qarabağı,
Qismətinə bəd süşübdü...

Pənah xanın**** ahı ağlar,
Perik düşən ruhu ağlar.
Çatlayıbdı goru bütün,
Viran Xanəgahı ağlar.

Xarıbülbül – Əsir olan! –
Yağışla yox, qanla sulan.
Qatışıq qan sənə haram
Cücərtsə də  yalan, yalan!!!

Hər nə əkdik – yalan bitdi,
Qayğı çəkdik – kalan bitsi.
Namus, qeyrət itən yerdə
Dünya boyda filan bitdi...

Bu nə sirdir, açılarmı? –
Qədər, qismət! – Qaçılarmı???
Günahkarı  asammadıq,
Bu günahdan keçilərmi???

# FLORA OXUDU

Bütün təqdimatların, epitetlərin fövqində
duran Flora xanım Kərimovanı 31dekabr
2000-ci ilin son gecəsi "Spase" teleka-
nalında, nəhayət, dinləmək səadətinə qovuşduq...

Oxu!
Darıxmışıq
Nə vaxtdan bəri səsinə,
Qarabağ kimi –
Şuşa,
Laçın,
Kəlbəcər kimi.
Qubadlım –
Dəmirçilər,
Mollu –
Qəhrəmanlıq simvolu
Nəbi kimi,
Həcər kimi...
Oxu!
Sənin səsin
Adi səs deyil, axı!
Xaribülbül ətri,
Cıdır düzünün
torpaq dadı var səsində,
Şuşa havasının saflığı,
İsa bulağının şirinliyi,
Topxana meşəsi –
Yaşıl yarpaq dadı var səsində...
Heyrət,
Əzəmət,
Vüqar ,
Qübar səsinlə,
Xanımlar xanımı
kübar səsinlə
deşib qayaları
Günəşə boylanan

zərif çiçək bildim səni –
Daş üzərində çiçək!!!
Xəcalətdən
üz çevirdi yana,
əydi boş qazan başını,
içindən yana-yana
sənə dəyənək qaldıran
səsini eşitcək...
Bu gün –
Sənə diqqət kəsilmişdi
Eşidən,
Duyan,
Qanan,
Dinləyən
bütün AZƏRBAYCAN!!!
Səsində canlandı
böyük həqiqətin
böyük sükutunda
yatmış HƏYACAN!!!
Bu həyacan –
25 noyabr
Xəzərin dibində mürgüləyən
Qəfləti qəzəb təkanı –
Səsinin əllərində
möhkəm tutulmuş
gördüm
möhtəşəm Elşibəy sükanı...
Səsin
dilindən qapıb Şəhriyarın
"Oyan! Oyan! Qalx! AZƏRBAYCAN"
kəlmələrini
səpirdi
həmrəykik günü
bütün dünyata...
Mat qalmışdım
heyrətdən
ovsunlanmış qəlbimlə,
səsindəki çağırışa –
Havalanmış

hay-hataya ...
31.12.2000.

## İSRAR

Loğmana

Yağışlı
yağmurlu
gecələrin
vahiməli zülmətinə bürünüb
itəcək olsan,
Gözlərinin heç vaxt
görə bilməyəcəyi dibində
dənizin
bitəcək olsan
mirvarilərtək
çaxacağam,
Qvub qaranlıqları
sönməyəcəyəm
ta səni tapanacan...
Özünə inamın
bəsirət gözləriylə
axtarıb, arayıb baxacağam,
Səni
görünməzlikdən,
yenilməzlikdən qapanacan...
heykəl olub duracağam
ümidin məhvərində --
Səni duyduğum yerdə,
Sənə tapınıb,
Sənəu yduğum yerdə...
Gecəli-gündüzlü
gəzəcəyəm eli, obanı –
Sənli dünyanı

başdan-ayağa.
Vuracağam özümü
oda, közə.
Dolmuş qara bulud kimi
çalxanıb, çaxnaşacağam,
sıxacağam
doluxsunmuş gözlərimi
dağa, daşa, --
Yaşıl məxmər səriləcək
şəmənə, düzə,
Dvamlı olacağam
can atmada,
sənə çatmada –
Dab üzü
göl üzərinə çökən
ağappaq tül duman içində
al-qırmızı duvağa bürünmüş
Tanrı butasını
gətirənəcən
evimizə...

# GƏRƏKLİK

Özünü özündə itirmiş dostum
Arif yaquboğluna.

Qu deyəndə
 qulaq tutulan
gecələr
tənhalıqda
pərqu yorğan-döşək
yaladıqca
ilbizlər kimi
yeyər səni –
yağır-yalaq olarsan...
Qurdla qiyamətə qalmış
qarı kimi
kimsəsizlik

əyər səni –
Təkəbbür ötküsü,
Övlad,nəvə nəvə itkisi –
Ömür biykisi –
Vahimələr içində
bağlrdalaq olarsan...
Gündüzlər –
ha çabalasan da
baş aça bilməzsən
bir-birindən ötkün
ailə,
uşaq qayğısından,
havalanmış,
fağır olarsan...
Əriyərsən
Için-için,
yanıb öz odunda
şam kimi,
kənar qaldıqca
doğmaların
sayğısından,--
kövrəlmiş,
qəhərli,
hər yetənə sığınıb
ağlağan,
fağır olarsan...
Hamı –
Doğmalar
səndən umar
yanım,
ülfət,
mehri-məhəbbət,
Fəqət,
düşməzsən kimsənin yadına,
Göy yerə qapansa,
qopsa qiyamət...
Büdrəyib yıxılsan,
azar adlı mələyin qoynuna,
Düçar olduğun tənhalıqda

kimsə
çatmaz dadına,
Elə hey
yanacaqsan
için-için
bu kimsəsizlikdə
özün öz oduna...
Doğrudur,
deyilsə də insan
yük düzəldib
qərib düşən
çöl daşı –
Ocaq daşı,
el daşı,
Amma gərəkdir
bir-birini tamamlayan,
hər “para” ya –
Hər kəsə
hava kimi,
su kimi
qolboyundaş,
qucaqdaş,
sədaqəti şərik
önür, gün yoldaşı!!!
Olub-olan oldunu?!.
Olub-qalan oldumu?!.

28.01.2001.

## İBRƏT – ÖRNƏK

Şair Rüstəm Behrudiyə

Cəhənnəmin
pıqhapıqla
qaynayan
qır qazanı içində,
“Niyə?”,”Nəyçün?”
suçunda
hiddətindən

donub,
Əsim-əsim əsirdi,
Buz heykəıə dönüb
                susurdu
        bir mələk,
Ac,
yalavac
canavarlar kimi
uladıqca,
vıyıldadıqca
qara
səmum külək...

11

Kimdir
“Niyə”lər, “Nəyçün”lər –
Kəşməkəşlər yaradan
bilərəkdən
fitnəkar?
Təkcə
    siyasi fahişələrmi
günarkar???
Bəs
görüb, duyub
susanlar???
Başını qoltuğa soxub
quyruğunu qısanlar?
28.04.2001.

## ÖRÜN ORTASINDA

1

Qoşa gedərdik
yekəxana, ağayana
insan dənizində,
ali
canjılar axınında
çiyin-çiyinə,

yan-yana...
Nə səs eşidərdik,
nə təbəssüm grərdik
bizə
heyrətlənən
bir kimsə bənizində...
Gedərdik
yol gödəkliyinin,
zaman darmacallığının
qorxusu canımızda,
dəruni bir arzumuz;
uzanaydı yollarımız
kaş,
Dünyanın o başınacan,
Gedəydik yavaş-yavaş.
Gedəydik vaxt-bivaxt –
Nə mənzilimiz məlum,
nə məhdud zamanımız,
təkcə yollaraydı
güvəncimiz, gümanımız...
...Allah əsirgəməsin,
Uzatsın
ömür yollarnı,
versin başacan.
Heykələ dönmüş,
qoşa dayanmış
əbədiyyət ünvanlı
məzar üstü daşacan...

11

Belə düşünərdik
Bir vaxt, bir zaman –
Irəliyə, geriyə baxmadan,
Nə uşaq vardı,
nə ev, nə eşik,
Çox keçmədi
gödəldi yollar,
artdı qayğılar

yaman,
Yarandı ilk beşik –
Gödələn yolların davamı,
Qələbəyə aparası
mənim taleyimlə
atəşkəsdə olan
şərəfli davamı...

## ŞÜKRANLIQ

Beş ildən artıq idi ki, gözəl
Həvvanın diri gözləri iflicdən
ölü, daşlaşmış qılçalarına baxırdı...

Gedir,
Yeriyirı
on səkkiz yaşlı
yazıq qızcığaz,
Hər ikiqılçaları –
addımları,

dolaşıq,
pozuq qızcığaz.
Yeriyir
səksəkəli, sürüncəkli,
Əyninə
al qırmızı geyinmiş,
Başı yaşıl bürüncəkli.
Gedir,
hara gedir? –
Məramsız, məqsədsiz
təki yerisin.
Gedir,
Bəlkə də qayıdır
mənzilbaşından evinə.
Gedir,
ya da gəlir
danışa-danışa,
gülə-gülə,

sevinə-sevinə...
Mən də
yeriyən gördüm Həvvanı,
Qabağa verib heyrətli sinəsini
özünə heyranlıqla,
yerişindən xəbərsiz,
yanını basa-basa
gedirdi,
ya gəlirdi
ördək kimi, qaz kimi –
Yarırdı havanı,
Zirvədən zirvəyə
uçurmuş kimi,
Xilasını görüb,
qismətinə qaçırmış kimi.
Neçə illərdir
dünyadan xəbərsiz
qapılıb otağına,
Zəncirlənmişdi
                Yatağına.
İflicdən daşlaşmış
"qobur"qılçalarına baxıb
                        ağlayırdı...
Görən,
duyan
doğmaları, yadları
qənirsiz gözəlliyini,
məlahətli səsini,
ümidsiz baxışlarını,
məlul, miskin durumuyla
odsuz, ocaqsız
yandırırdı, dağlayırdi...
Bu gün –
Allahın qüdrətiynən,
rəhmiynən, kəramətiynən
diksinib çığırdı,
ayıldı yuxudan,
sışrayıb bağırdı,
qalxıb

yıxıldı
qorxudan –
Oda, alova atırmışlar kimi,
Diri-diri ocağa çatırmışlar kimi...
İndi isə
gedir
danışa-danışa,
sevinə-sevinə,
Sığmırdı can evinə,
Alıb sinəsinə,
Basıb bağrına
dünyanı doldurmuş səadətini,
Yeriməyi bacaran
insan olduğunu bilə-bilə.
Gedir,
Sanki
uça-uça,
qaça-qaça
həyata heyranlıqla,
Ürəyi dolu
Allaha şükranlıqla,
Yeriməyə haqqı olan
yeriməyə qadir
xoşbəxt insanlardan biri kimi...
Gedəcək
bundan sonra
daha sərbəst,
dəstələyə-dəstələyə
ömrün
günlərini, aylarını, illərini
gözü, könlü tox,
Həyatını
yerbəyer etmək qayğısı
çəkə-çəkə...
Kəşməkəşlərdən çıxıb,
düşərək bərkə, boşa
yaşayacaq
bir ömür baş-başa,
Ürəyinə yatan
Tanrı qismətiynən qoşa...

# OĞLUM LOÖMANA

Tələbəlik illərinin bitməsinə
təəssüflənirdi.

Getdi
qayğısız,
ərköyün illər,
Ömrün xatirə güzgüsündə
sayrışan,
parlaq, löyün illər.
Tələbə idin –
sultan idin,
xan idin,
Gözəllərə seçim idin,
güman idin,
Ümidlərə
şəfəqlənən
dan idin...
Dünya dedikləri
Qartımış mələk –
Tərsinə fırlanan
bu şətxi-fələk
birini ucaldar
zirvədən zirvəyə,
Birini yumalar
tələli, torlu bərəyə.
Ağladar birini
gülən çağında,
Qaldırar birini
ğlən çağında...
Nə qədər
olsa da ömrün
burulğan,
kəşməkəş,
Vermə özünü sən
nəfsinə peşkəş.
Büdrəmək, dolaşmaq

ayıb ki deyil,
Məsləki yolunda
a sılan,
soyulan
hayıf ki deyil.
Salıb itirməsən
səbri, təmkini,
Ağılla dərk etsən
Allah hökmünü,
Çarəsi tapılar
hər müşkülatın,
Olar
atana, babana layiq,
(yarıtsın Xaliq)
hamıya örnək,
hamıya lazım,
mənalı həyatın...
İstəsə də
bacarmaz çoxu,
Sən
həkimsən axı!!!

## NAŞI NADAN DİNƏN YERDƏ

Bəxt ulduzu sönən yerdə,
Aqil taxtdan enən yerdə,
Naşı, nadan dinən yerdə --
Haqqa şərik çıxacaqdır.

Kimdi seçən tərs, avandı,
Talismanın nəhs qovandı.
Ümidsizlik sərt divandı! –
Vardan yoxa axacaqdır.

Damcıya bax, daşı dəlir,
Göydən qopur, başı dəlir,
Yanaq yanır, huşu dəlir,
Kim bu seyrə baxacaqdır?

Cağdan-cağa ilmə düzdün,
Qədimlərdən gəlmə dqzdün.
Şah əsərə kəlmə düzdün, -
Qərinələr yıxacaqdır –
Milli möhür sıxacaqdır...

## BİLMƏM

Loğmana

Oğrun-oğrun baxdın, gülüm!
Məni oda yaxdın, gülüm!
Sudan quru çıxdın, gülüm –
Kimə nəyi deyə billəm.

Mövlam verən butanı sən –
İlkin duyub tutanı sən,
Üzə düşüb atanı sən –
Haqq aşiqi saya billəm.

Kövrək ürək çabalardı,
Baxışların yalvarardı, --
Gözlərin çox dilavardı,
Lallığını həya billəm.

Çıxdaş olub əlnmərəm,
Vüsal üçün dilənmərəm,
Müdam sevər, öləmmərəm –
Belə sevgi duya billəm.

Bu sellənən ay nurudu,
Haqdan gələn pay nurudu,
Nurlu qəlbin soy nurudu,
Layiq ollam soya, billəm.

Uçar ömrün taxtı, tacı,
Dada çatmaz qardaş, bacı,

Yəqin bir gün acı-acı
Sənsiz ömrü söyə billəm.

# NADİR

## (Proloq)

1
Sənə bənzər kimsə yoxdur, a bala,
Ovuda qəlbimi, təsəlli ola...
11
Almaq olmur qeyrəti
nağıldan, dastandan,
Xoş meyvəcat,
şirin yemiş deyil ki,
yığasan bağ-bağatdan, bostandan.
Bal da deyil,
min bir növlü çiçəkdən
minlərlə arı ailəsi –
çəkmiş ola
zərif, ufaq ləçəkdən.
Qeyrət insan qanına
düşər ilkin mayadan...
Namus, şərəf daşıyan
Hər insanda genidir –
nə məzhəbi, nə dinidir,
Gendə saflıq yaranar
Halallıqdan həyatda...
İgidlik qeyrətin
bariz əməlidir,
Minbir çək-çeviri
olsa da ömürdə-gündə,
Saxlar özünü
hər təbəddülatda...

111

Göz açdı dünyaya
qızmar günəşli gündə --
18 iyun 1967 sənədə,
Bilmədi ki,
iyirmi altı il
davamlı,
şərəfli bir ölüm
sevə-sevə yol gözləyər,
pusqu çəkər öndə.
Dolduqca o, yaşa,
böyüdükcə ilbəil,
Dili söz tutanda
bilmədi ki,
nə ata deyəcək, nə ana,
Hər biri çox özgə,
çox yad olacaq ona.
Hərə öz işində,
hərə öz kefində,
Bir dəfə açılmayan,
bircə dəfə gülməyən,
Ata, ana qoynunda
nazlanıb uyumayan,
pərvaz nədi bilməyən
Nadir
elə o vaxtdan –
iyirmi altı il öncə
hüznə durmuşdu
sanki
öz məzarı önündə --
öz-özünün dəfnində.
Böyüdü,
orta məktəb bitirdi,
Mərkəzdən uzaq bir kənddən
”alçı” duran taleyi
onu Bakıya –
ali məktəbə gətirdi.

Doğma
nəvazişə, qayğıya
tamam möhtac içində --
Bər-bəzəkli,
şux geyməyə,
Səhər, axşam
naz edib,
ləziz xörək yeməyə
yerli-dibli
ehtiyac içində...
İmtahan verdi
tələbə oldu,
Özünü yeni-yeni qayğıya,
Ağır-ağır yükə,
bir girdaba
saldı –
Öz xoşuna çəkə-çəkə!
Çox arxasız, köməksiz,
sanki
yetim,
yiyəsiz,
"valideynsiz",
dayəsiz –
Qol-qanadsız, gərəksiz!
Can-can deyən çox idi,
Qayğı çəkən yox idi...

4

Kim idi gwnahkar –
Işıqlı arzuları üstə
qara pərdə çəkənmi?
Onu
qarabaqara izləyən,
hər addımda, hər anda
pusqu çəkib gözləyən
aza qane olmağlmı? –
Ruhu əzib, zəhlə tökənmi?
Atalı, analı

kimsəsiz,
yetim qalmağımı?
Yoxsa,
təkəbbürlə
dik tutaraq başını,
yanlış deyib
ata, ana,
qohum-əqrəba öyüdünə
soyuqqanlı,
qulaq asmayan yar-yojsaşına:
--Tüpürdüyünü yalamaz,
Kişi olan bir kimsə --
Dediyindən dönərsə
ondan kişi olamaz –
deyən,
tərs, inadkar, --
guya xotkar,
özündən müştəbeh,
oxlov udmuş kimi,
oğul adlı varlığa
tapınmamış, yanmanış,
qart bir atamı???
Yoxsa,
nə etdiyini bilməyən,
öz fikri, düşüncəsi,
son qərarı olmayan,
xoş günlər üçün
tutulmayan, dolmayan,
yalnız
yeyib-içməyi,
yayıb-durmağı qanan,
içi zülmət,
çölü heyrət, --
Dözüb tablaşmaq,
Dinləmək
məşəqqət,
cavabı zillət,
savadsız, naşı,
çaxnaşan,

toqquşan,
təzadlar içində
buz heykəl –
            anamı???
Kim dayansın
ətil üstündə,
boğazında
həlqələnmiş kəndir,
Kim özünü
suçlu, günahkar bilib
            dinəndir!?.
Yazıqlar onamı!!!

4

Mabat deyil,
qəpiklə ölçülürdü
Nadirin
gündəlik
haqq-hesabı,
alışmışdı illərin
yoxa dönmüş hökmübə.
Fəqət,
anlaya bilmirdi
bu gedişlə ömrünün
sonu nə,
qisməti nə, hökmü nə?
İxtilaflı, dolaşıq suallar
güvə olub yeyirdi
için-için
saf, ləkəsiz qəlbini,
Atam gəlmişdi dünən,
anam sovqat göndərmişdi dünən
otaq, çarpayı,
qrup, patok
yoldaşlarının
qürurlu,
şad, xoçbəxt anını
duyduqca yandırırdı

həsədsiz, qəzəzsiz
dərd çəkəsi

5

## Gündəliyindən

Bir gün
2-ci saat
qrup məşğələsinə
gəldi
ağayana
gözəl-göyçək
bir xanım...
Öz-özünə düşsnər,
Özü danışar,
özü dinləyərdi Nadir
hərdən bir-bir:
rus dili dərsi keçəcəkdi bizə,
dərsin sonunda hər birimizə
Puşkinin"Qiş axşamı" şerini
tapşırdı əzbər öyrənək.
Nadir əl qaldırıb
Utancaqcasına dedi:
--Olarmı elə indi deyək?
--Olar! Olar! Əlbətdə!
Söylədi şeiri Nadir...
Dinlədi hamı.
Puşkinin ecazkar
"Qış axşamı" –
Necə təmiz,
aksentsiz
səsləndi
kənd uşağının dilində.
Elə bil ki,
Bu axşamın
sazağı, tufanı
kədərə dönüb,
hopub
əbədi qalmışdı

bu gəncin
qəlbində, könlündə --
Belə düşündü müəllim,
Sağ ol!- dedi Nadirə.
Soruşdu: -- Kim olub sənin
Bu şeiri öyrədənin?
İlk dəfə
çox titrək,
bir az qəzəbli,
bir az kövrək
dilində səsləndi
adı atasının.
O dərsdən sonra,
tamam bir il boyaboy
danışdı müəllim elə hey
Nadirin atasından –
Bilmədən
atası
olduğunu...
Beş illik tələbəlik illərindən
yadına saldığını.
Danşardı ağız dolusu –
Fəxrlə, qürurla,
danışardı
vurğunluqla, heyrətlə,
danışardı
inamla, qətiyyətlə,
damışardı
elmindən, savadından,
danışardı
qeyrətindən,
təmiz, pak saxladığı,
üşənərək qoruduğu adından,
danışardı,
bir az da təəssüflə,
tərsliyindən, inadından:
--Niyə getdi, bilmirəm,
nə itirmişdi, o, kənddə?
Vətənpərvərlik

burda da
göstərə bilərdi.
Yəqin ki,
yox, deyirəm qətiyyətlə,
elmdə
ən uca zirvələrə
yüksələrdi.

6

Hara getsə,
harda olsa,
Nadirin soyadı –
Babasının şərəfli
Hacı Bədəl adı
hörmətlə xatırlanardı.
İndi də Bakıda,
institut auditoriyasında
hərəsi bir bölgədən gəlmiş
gənc tələbələr arasında
atasından dedilər –
Bunlar, axı, kimdi,
Necə nəxluqdular?..
Ancaq, bizimkilər,
Evdəkilər –
Mənə deyiblər,
nələr...

7

Səksən altıncı ilin
mayın səkkizi günü
Politexnik institutunun
Idman salında
yarış gedirdi
institutlar arası,
Hünər, əzm istəyirdi

**bütün döyüşlərdə**
gərginliyə durası...
Finala doğru
azalırdı
iddiaçıların
ümid verən adları.
Döyüşlər gərgin keçirdi,
olduqca gərgin...
Kimisi uduzub çıxırdı,
Kimisi yorulub
əldən düşmüş,
kimisi əzgin...
Sanki
ağırlaşmışdı
əlcəklər əldə,
Tez-tez baş verirdi
qıcolmalar
baldırda, beldə.
Nakautla uddu
yarışı
Nadir
yarımfinalda.
Düşünürdü:
--Çatacaqmı udmağa
hünərim, əzmim,
karım
finalda?..
Final sabaha qalacaqdı,
Görəsən rəqibi kim olacaqdı?
Hələ bəlli deyildi
Ikinci
finalçı,
Dayanıb gözləyirdi,
Rəqibini izləyirdi...
Döyüşən cütün
hansı olacaqdı,
öncə bilmək çətindi.
Canlı aparılırdı
televiziyada

yarışların gedişi,
Çox gözəl,
boylu-buxunlu,
incə bir xanım
aparırdı çəkilişi.
İlkin finalçı kimi
yaxınlaşdı ,Nadirə,
Soruşdu
adını,
soyadını.
Söylədi Nadir.
Aparıcı gözəl xanım:
--Atanın adı nəgir?
Ani sükut içində,
çətinliklə olsa da,
Nadir- dedi
atasının adını –
Büruzə versə də
alışıb- yanan
üzündəki
atəşini, odunu...
Aparıcı gözəl xanım
qucaqladı Nadiri,
öpdü onun alnından.
Sonra
dövrə vurub
keçdi yanından,
süzdü Nadiri
ayaqdan başa:
Maşallah!
Əhsən bala!
Görüm səni yüz yaşa!!!
Demək, Ərşadın oğlusan,
Necə oxşayırsan
fərasətinlə, əzminlə,
rinqdəki duruşunla,
əlbəyaxa vuruşunla
elə
özüsən,

ona bağlısan.
Tü, tü, gözüm dəyməsin,
qorusunAllah!!!
Bir də maşallah!
Sabahkı finalı
udacaqsan,inşallah!!!
Bilirsən, oğlum, atanla
tələbə yoldaşıyıq,
O gözəl, qayğısız,
ərköyün illərin
sirdaşıyıq...
Nə işin olsa,
bir bibi kimi,
bil ki, burdayam –
teleşirkətin qınında,
tükü-tükə tutarsan,
mən olaram yanında...
Fikir apardı
Nadiri:
--Kimdi, axı, bu ata,
niyə məndən qaçaqdır?
Hamı ondan danışır,
yoxsa, bunlar qurğudur?
Bəlkə, elə layiqdir
hörmətə,
rəğbətə,
Bəlkə, elə ötkəmdir,
bəlkə, elə kamallı,
bəlkə elə qoçaqdır,
deyilənlər doğrudur?
Sanki,
yatmışdı Nadir,
birdən-birə oyandı,
haqlı-haqsız xatasıyla,
Evdəkilər tərəfindən
hər sözbaşı söyülən,
lənətlənən atasıyla
üz-üzə dayandı:
Gözlərindən yaş giləndi,

ağır tərəddüdlər içində
üstünə od, qor ələndi.
Öz-özünə düşünüb
bir-bir
xatırlayırdı Nadir,
yaxşını pisdən
yavaş-yavaş
artıq ayırırdı Nadir.

8

## Yenə gündəliyindən

Ora mənə
belə doğma,
belə əziz Vətən
heç olardımı, ata!??
Belə şirin,
Belə əbədi
Heç qalardımı, ata!? –
Sən olnasaydın...
Sənə daha çox
yaxınlaşıram,
Səndən uzaqlaşdıqca, ata!!!
Xəyalən
öpüb
əllərindən,
Səninlə qucaqlaşdıqca, ata!!!
Nə mən vardım,
nə
gündən-günə
gözlərimdə
gözəlləşən,
şirinləşən,
əzəlləşən
bu dünya –
Sən,
Sən olmasaydın...
Niyə, axı, duydum,

Niyə, axı, sevdim
Səni,
Səni mən?!!
Nəyə uydum,
Nəyi qıydım,
Niyə,
Niyə tapdım,
Niyə --
Məni mən??!

9

Tablaşmadı, nəhayət,
çəkildi içindən dara.
Kimə açsın dərdini,
kimi çağırsın kara?
Axır ki, bir axşam
o gəldi qərara.
Birinci kursun sonunda
ərizə yazdı,
könüllü
əsgəri xidmətə getdi.
Neçə müddət yol keçib
uzaq
Almaniya torpağına yetdi...
Gündüzlər təpik döyər,
qaçar,
torba dolu
yük daşıyardı.
Gecələr,
uşaqlıqdan vərdişi –
tənhalıq gərdişi
ağır yorucu düşüncəsi,
atalı-analı
olmayan
dünyasıynan
yaşayardı...